**A.H.DƏMİROV**
**S.M.MƏMMƏDOV**
**Ş.N.İSMAYILOV**

# YENİ TƏLİM TEXNOLOGİYALARI VƏ MÜASİR DƏRS

www.preslib.az
PREZIDENT
KİTABXANASI

**BAKI – 2007**

**Aslan Dəmirov**
**Səhyəddin Məmmədov**
**Şahismayıl İsmayılov**

# «Yeni təlim texnologiyaları və müasir dərs»

**(pedaqoji ali təhsil müəssisələrinin tələbləri, ümumtəhsil məktəb müəllimlərinin və ixtisasartırma və yenidən hazırlanma fakültələrinin dinləyiciləri üçün vəsait)**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin tövsiyəsi ilə («___»______ 2007-ci il ____ saylı əmr) nəşr olunur

**BAKI - 2007**

**Dəmirov Aslan Həsən oğlu:**

**AMİ-nin Mingəçevir filialının direktoru**

**Məmmədov Səhyəddin Şəhyəddin oğlu:**

**AMİ-i Mingəçevir filialı. Pedaqoqika və psixologiya kafedrasının baş müəllimi. «Müasir təlim metodları kabinetinin müdiri**

**İsmayılov Şahismayıl Namaz oğlu:**

**AMİ-i Mingəçevir filialının baş müəllimi, BDU-nun dissernatı, ali ixtisas dərəcəli tarix müəllimi**

**Elmi redaktor: N.R.Manafov:**

**AMİ-i Mingəçevir filialının pedaqoji fakültəsinin dekanı, f.e.n. dosent**

**RƏYÇİLƏR:**

**İbrahimli Saleh Qulam oğlu**

**Fəlsəfə elmləri namizədi, dosent**

**Məmmədov Sahib Əmirxan oğlu**

**AMİ-nin Mingəçevir filialının pedaqoqika və psixologiya kafedrasının müəllimi, p.e.n.**

**Namazova Flora Kamran qızı**

**AMİ-nin Mingəçevir filialının ibtidai təhsilin pedaqogikası və metodikası fakultəsinin dekanı, f.e.n.**

# MÜNDƏRİCAT

Yeni pedaqoji texnologiyalar və müasir dərs
Aktiv və interaktiv tədris təlim üsulları və metodları
Rolun ifa edilməsi
Qərarlar ağacı
Sərbəstləşdirmə və bəsitləşdirmə oyunları
Beyin həmləsi
İştirakçıların sərbəstləşdirilməsinə və müsbət iş iqliminin yaranmasına imkan yaradan oyunlar
Əməkaşlıq
Şifahi assosiasiyalar
Vəziyyət üzrə praktikon
Kurrikyulim-təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkilini əks etdirən konseptual sənəddir
Təlim-tərbiyə prosesində pedaqoji texnologiyalar
Tarix üzrə interaktiv dərslərin müxtəlif modelləri
Fəal dərsin quruluşu
Müasir dərs nümunələri: «Cəmiyyətin siyasi təşkili»
Azərbaycan Respublikasının himni
«Neft–Suveren Azərbaycan Respublikasının milli sərvətidir»
İnteraktiv dərslərdə qiymətləndirmə «Dərslərdə şagirdlərin qiymətləndirilməsi »
Ədəbiyyat

# YENİ PEDAQOJİ TEXNOLOGİYALAR VƏ MÜASİR DƏRS

Dünyanın pedaqoq alimlərini daim bir məsələ düşündürür. «XXI əsrdə məktəb necə olmalı və hansı rolu oynamalıdır ki, insanları həyata və əməyə hazırlıya bilsin?». Onlar nəhayət belə bir qənaətə gəlmişlər ki, təhsil sistemində əsaslı dəyişikliklər aparmalı, təhsil sisteminin inkişaf istiqamətinin strategiyasını aydınlaşdırmalıdır.

Görkəmli Amerika pedaqoqu Fillip Şlexti özünün «XXI əsrin məktəbi. Təhsil islahatının prioritetləri» əsərində yazır ki, o, sahibkarlarla, iş adamları və məktəb funksionerləri ilə çoxsaylı sorğular aparmış və onlardan belə bir suala cavab istəmindir? «Siz məktəbdən nə istəyirsiniz?» - cavab isə belə olmuşdur: «Bizə elə insanlar lazımdır ki, onlar müstəqil, sərbəst öyrənməyi bacarsınlar». Müəllif bununla demək istyir ki, əgər şagird müstəqil öyrənməyi, məqsədinə çatmaq üçün yollar tapmağı, bu və yp digər problemləri həlletməyi və problemin həlli üçün müxtəlif informasiya mənbələrindən istifadə etməyi bacarırsa, onda peşəkarlıq səviyyəsini yüksəltmək onun üçün çox asan olacaqdır.

Aparılmış təcrübələrin nəticəsi kimi belə bir fikir formalaşmışdır ki, təhsil sisteminin inkişaf istiqamətlərinin baş strategiyası şagird şəxsiyyətini, pedaqoqun, psixoloqun diqqət mərkəzində durmasından, tədris prosesində müəllimin özünün şagirdə münasibətinin dəyişməsindən, şagirdşəxsiyyət kimi görməsindən ibarətdir.

Elə bu səbəbdən də inkişaf etmiş ölkələrdə təhsil şagird-dərslik-müəllim sistemində qurulmuşdur.

Əlbəttə, yeni interaktiv texnologiyaya əsaslanan müəllim sinifdə ənənəvi tədris metod və üsullarından imtina etməli, biliklərin əldə edilməsi yolunda bələdçi rolunu oynamalıdır.

Bu baxımdan aparılan tədqiqat işləri qabaqcıl təcrübənin öyrənilməsinə, söylənilən fikir və mülahizələr ilk növbədə dərsin

keyfiyyətinin yüksəldilməsinə, dərsə verilən yeni tələblərin həyata keçirilməsinə yönəlmişdir. Dərsin yeniləşməsi isə təlim texnologiyalarının prosesə tətbiqindən əsaslı şəkildə asılıdır.

Görkəmli pedaqoq-alim C.P.Kapitsa vaxtilə deyirdi ki, təhsil gələcəyə yönəlmiş sənaye sahəsidir.

Alimin bu nəzəriyyəsi artıq həqiqətə çevrilmişdir. Belə ki, ötən əsrin 60-cı illərində Amerika və Avropa məktəblərində islahatlar keçirilmiş və təlimin texniki vasitələrinin geniş tətbiqi6nə başlanmış, tədris prosesinə texnikanın tətbiqi zəminində təlimin texnologiyası yaranmışdır. Bu tərbiyə sahəsinə də nüfuz edərək pedaqogikaya pedaqoji texnologiya kimi daxil olmuşdur.

Hazırda texnologiyanın pedaqogikaya daxil olması təhsil texnologiyalarının və eyni zamanda pedaqoji texnologiyaların yaranmasına səbəb olmuş və ümumiyyətlə, pedaqoji texnologiya mahiyyət etibari ilə təlim-tərbiyə prosesinin layihələşdirilməsinin sistemi metodu kimi səciyyələndirilmişdir.

V.M.Monodxova görə pedaqoji texnologiya təlim prosesinin layihələşdirilməsi təşkili və əhyata keçirilməsində birgə pedaqoji fəaliyyətin bütün detalları ilə hazırlanmış modelidir. Burada müəllim və şagirdlər üçün rahat şəraitin yaradılması zəruridir. Müasir təhsil konsepsiyasında da yeni pedaqoji, texnologiyaların tədris prosesində tətbiqi məsələsi konkret olaraq qoyulmuşdur. Artıq müasir dərs konsepsiyasını ənənəvi üsullarla həyata keçirmək çətinliklər yaradır. Buna görə də o yeni pedaqoji texnologiyalar tələb edir.

Ənənəvi didaktik sistemə görə dərs yalnız təhsil məqsədinə xidmət etməli idi. Lakin XX əsrdə elmi-texniki tərəqqi şəraitində yeni pedaqoji texnologiyaların pedaqoji proseslərə daxil olması nəticəsi kimi dərsin təhsil, inkişaf və tərbiyə məqsədiləri formalaşdı. Beləliklə, təhsil

məqsədi kimi inkişaf və tərbiyə məqsədləri də müasir dərsin atributları hesab olundu.

Məktəb təcrübəsinin təhlili göstərir ki, müəllimlərin böyük əksəriyyəti tədris prosesində yalnız təhsil məqsədlərini həyata keçirməyə çalışır, onun inkişafetdirici və tərbiyəedici məqsədlərinə əhəmiyyət vermirlər. Buna görə də bütün təhsil idarəetmə orqanlarının və pedaqoq-alimlərin fəaliyyətləri 45 dəqiqəlik dərsin əsas bələdçisi olan müəllimin hazırlanmasına və onun işinin səmərəli olmasının təşkilinə yönəlməlidir.

**«İnteraktiv»** termini **«dialoq, qarşılıqlı fəaliyyət göstərmək»** kimi izah olunur. Fəal, interaktiv təlim metodları və üsullarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, onu hər bir şagird üçün daha əhəmiyyətli və maraqlı edir, dərsdə fəallığın maksimum artmasına zəmin yaradır, bununla da təlimin inkişafetdirici aspektini nəzərəçarpan dərəcədə gücləndirir. Təlim-tərbiyə prosesində interaktiv təlim metodlarının tətbiqi şagirdlərdə müstəqil düşünmək, sərbəst rəy söyləmək, başqasının fikrinə münasibət bildirmək, qərar qəbul olunmasında iştirak etmək və sair bu kimi xüsusiyyətlərin təşəkkülünə bilavasitə kömək etməklə tənqidi təfəkkürün formalaşmasına, müstəqillik və çeviklik amillərinin güclənməsinə zəmin yaradır.

Bəzi interaktiv təlim metodları və üsullarının mahiyyətini nəzərə çatdırırıq:

# AKTİV VƏ İNTERAKTİV TƏDRİS-TƏLİM ÜSÜLLARI VƏ METODLARI

## ROLUN İFA EDİLMƏSİ

Bu texnikadan istifadə zamanı iştirakçılar özlərindən asılı olmayaraq, aparıcının müəyyənləşdirdiyi rolları ifa edirlər. Aparıcı situasiya ilə tanış edir, xəbərləyir, iştirakçılara insanların tipik davranışlarını müəyyən bir situasiyada ünsiyyətə kömək edən, ya da qarşılıqlı razılaşmanı kəsən mexanizmləri müşahidə etmək imkanı verir.

Rolun ifası iştirakçıları fəallaşdıran üsullara aiddir. Həmçinin yığıncağın aparıcısından iştirakçıların öz rollarını ciddi şəkildə və çəkinmədən icra etmələrinə nail olmaq bacarığı tələb edir. Oyunun iştirakçılarını ehtiyat və nəzakətlə seçmək lazımdır. Aparıcı yadda saxlamalıdır ki, bəzi hallarda bir tərəfin (aparıcının) passivliyi bütövlükdə çalışmanın icrasının qarşısını kəsə bilər. Eyni zamanda, şəxslərin səhv seçilməsi aressivlik yarada bilər və «aktyorlar» incik düşərlər (dəfələrlə iştirakçılar yaxınlaşır və sual verirlər: Niyə mən bu rolu aldım, mən həqiqətənmi beləyəm?). Situasiyanı hazırlayarkən diqqət yetirmək lazımdır ki, iştirakçılar müxtəlif baxışları təmsil etsinlər, amma, eyni zamanda bu, onların qrup daxilində ciddi münaqişəsinə gətirib çıxarmasın.

Rolu hazırlayarkən aktyorların tapıla biləcəyi situasiyanı yaratmaq lazımdır. (avtobus dayanacağında keçmiş DTK-çı və bir vaxt onun məhbusu olmuş hazırkı nazirlə təsadüfi görüş; iştirakçıların hamısının tətil qərarı qəbul etməli olduğu həmkarlar ittifaqı yığıncağı). Situasiyanı təsvir edərkən bütün faktları açıqlamaq lazımdır, lakin bu zaman bunların sayı minimuma endirilməlidir.

Hazırlığın növbəti mərhələsi – «aktyorlar» və müşahidəçilər üçün fərdi tapşırıqların müəyyənləşdirilməsidir. Aktyorların rolları qısa olmalı, sadə dildə yazılmalıdır.

Çalışmanın məqsədindən asılı olaraq, bir rolu diqqətlə təsvir edə (bax: Cehoy simnyak «İnsan hüquqları və vətəndaş azadlıqları»), yaxud bunu etməyə (bax: «Parlament oyunu») bilərik. Bu materiallardan real qrupda istifadə etməzdən əvvəl, onları mütləq dostlar, ya da həmkarlarla sınaqdan çıxarmaq lazımdır. Bu çalışmanı «mərkəzi» (üz üzlərə) adlanan (4-8 nəfər rol ifa edir, qalanlarsa onların hərəkətlərini izləyir) üsula dəyişə, ya da iştirakçıları 3-5 nəfərdən ibarət, rolları paralel ifa edən qruplara bölə bilərik.

**ÇALIŞMANI NECƏ KEÇİRMƏLİ:**

1.Çalışmadan əvvəl aparıcı özü üçün zal, həmçinin aktyorlar üçün rollar hazırlayır.

2.Aparıcı situasiya ilə tanış edir, aktyorları və müşahidəçiləri təyin edir, rollar və təlimatlar verir.

3.Çalışma bitdikdən sonra, yekunlaşdırma zamanı aparıcı iştirakçıların diqqətini aktyorların dediyi konkret sözlərə yox, çalışmanın məqsədlərinə yönətlməlidir.

# QƏRARLAR AĞACI

«Qərarlar ağacı» üsulu Con Patrik və Riçard Remi (ABŞ) tərəfindən işlənilib. Bu üsul mürəkkəb və birmənalı olmayan vəziyyətlərdə qərar qəbulunu asanlaşdırır, düşünülmüş qərar qəbul etməyə kömək edir.

«Qərarlar ağacı» üsulunun tətbiqi üçün suallar, problemlər götürülür ki, onların bir neçə həlli yolu vardır. Bu üsuldan istifadə edərkən şagirdlər mümkün olan qərarların bütün variantlarını təhlil edir, hər bir variantın müsbət və mənfi cəhətlərini göstərirlər. Bütün variantlara baxdıqdan sonra şagirdlər müsbət və mənfi cəhətləri nəzərə alaraq qərar qəbul edirlər – variantların birini seçirlər.

Tapşırığı yerinə yetirərkən şagirdlər aşağıdakı cədvəli doldururlar:

| P R O B L E M | | |
|---|---|---|
| Variant 1 | Variant 2 | Variant 3 |
| + | + | + |
| - | - | - |
| Qərar: | | |

Tətbiq etmək qaydası:

--Əvvəlcədən təhlil ediləcək problemi və onun həlli yollarının bir neçə variantını müəyyənləşdirin, qruplar üçün cədvəlləri hazırlayın.

--Sinfi 4-6 nəfərlik qruplara bölün. Qruplara tapşırığı izah edin. Hər bir qrupa doldurmaq üçün cədvəl və marker verin. Tapşırığın yerinə yetirilməsi üçün vaxt təyin edin (15-20 dəqiqə).

--Qruplar iş zamanı problemin bütün verilmiş həlli yollarını təhlil edir, hər variantın müsbət və mənfi cəhətlərini müəyyənləşdirirlər, sonra isə problemlə bağlı qərar qəbul edirlər – variantlardan birini seçirlər. Qərar cədvəlin aşağı hissəsində yazılır.

--Qrupların işinə nəzarət edin, zərurət olduqda onlara kömək edin.

--Qruplar öz işini bitirdikdən sonra, cədvəllərin qərar hissəsinin üstünü örtün. Təqdimat zamanı qrupların nümayəndələri yazıları oxuyur, amma gəldiyi qərarı bildirmir. Bunu müəyyənləşdirməyə digər qruplara təklif edin. Bundan sonra qərarlar yazılan hissə açılır və müqayisə edilir.

# SƏRBƏSTLƏŞDİRMƏ

## SƏRBƏSTLƏŞDİRMƏ OYUNLARI

**1.«Əşya yiyəsindən danışır»**

Hər bir iştirakçı ona aid olan əşyanı əlinə götürüb, bu əşyanın adından onun yiyəsi haqqında danışır. Başqa «əşyalar» danışana onun yiyəsi haqqında istənilən sual verə bilərlər.

**2.Qarşılıqlı təqdimatlar**

İştirakçılar qruplara bölünür. Onlara özləri barədə bir-birindən daha ətraflı və hərtərəfli məlumat almaq üçün 6 dəqiqə vaxt verilir. Sonra qarşılıqlı təqdimatlar aparılır. iştirakçılar ən mühüm və onlara maraqlı olan məlumatlarla istifadə edib öz müsahibinin portretini yaradırlar.

**3.Qeyri-verbal hədiyyə**

Hərəkətlər və mimika vasitəsi ilə; mehriban hissləri və ya hədiyyələri təsvir edib, dairə şəklində onlara ötürmək.

4.Pəncərə

Sizin aranızda heç bir səs buraxmayan çox qalın şüşəsi olan pənxərə var. siz yoldaşınıza nə isə demək istəyirsiniz. Hər kəs əvvəlcədən yoldaşına nə demək istədiyini müəyyən etməlidir. Bunun üçün öz dodaqlarınızla hərəkət edib, səs çıxara bilərsiniz, barmaqlarınızla başa sala bilərsiniz. Yoldaşınız başa düşməlidir və eyni qayda ilə cavab verməlidir.

## «BEYİN HƏMLƏSİ»

### BU HANSI ÜSULDUR VƏ NƏYƏ XİD-MƏT EDİR?

«Beyin həmləsi» şagirdləri fəallığa həvəsləndirmə və ideyaların sürətli generasiyası üsuludur. Bu üsuldan konkret problemi həll etmək və ya suala cavab axtarmaq üçün istifadə olunur. Məsələn, şagirdlər vətəndaşlıq hüququnun öyrənilməsinə «Sizcə, hansı səbəblərdən dövlət hər kimsənisə vətəndaşlıqdan məhrum edə bilər?» sualına «beyin həmləsi» yolu ilə başlaya bilərlər. Bu üsuldan istifadə olunmasına aid bəzi təkliflər aşağıdakılardır:

- Problemin həlli axtarılan zaman. Məsələn, şagirdlər arasında münaqişənin yaranması ilə bağlı anlaşılmazlıqdaq sonra onlardan «beyin həmləsi» etməyi və münaqişənin dinc yolla həllində bütün mümkün variantlardan istifadə etməyi xahiş edin.
- Yeni mövzunun keçirilməsi zamanı şagirdlərə məlum mövzu üzrə «beyin həmləsi» təşkil edin. Bu, onlarda maraq oyadılmasının, həmçinin biliklərinin müəyyən edilməsinin ən yaxşı üsuludur.
- Sürətli yaradıcı tapşırıq kimi. Məsələn, bilməmiş hekayənin mümkün sonluqlar variantları üzrə «beyin həmləsi» təşkil edin.

**ÜSULDAN NECƏ İSTİFADƏ OLUNUR?**

- Hansı problem üzrə «beyin həmləsi» etmək istəyinizi müəyyənləşdirin. Onu çoxlu sayda müxtəlif cavabları olan sual şəklində formalaşdırın. Sualı hamı tərəfindən görünə biləcək şəkildə yazın.
- Məsələn, «Biz sinifimizdə hansı dəyişiklikləri edə bilərik?»
- Şagirdlərdən fikirlərini söyləməyi xahiş edin. Onları iri hərflərlə yazın. Bunlar ayrıca sözlər və ya qısa ifadələr olmalıdır.
- Şagirdlərə bildirin ki, «beyin həmləsi»ndə onların «həmlə»nin sonunadək bir-birinin fikirlərini şərh etmək və ya məlum fikirləri təkrar etmək ixtiyarı yoxdur.
- Şagirdləri həvəsləndirin, lakin onları çevrə boyu əyləşdirməyin və fikirlərini açıqlamağa məcbur etməyin – bu, ilk növbədə onların fəallığını azalda bilər.
- Rəylər yazıldığı məqamda onları qiymətləndirməyin. Mümkündürsə onların yazılı qeydiyyatını aparıb asın. Şagirdlərin birindən xahiş edin. Yalnız sinfin fəallığını artırmaq lazımdır. Sonra şəxsi fikrinizi bildirin.
- Hər hansı bir fikir aydın deyilsə, şagirddən onu izah etməyi xahiş edin və ya şərhini versin. Şagirdlərin bu şərhlə razı olub-olmamasını müəyyənləşdirin.
- Hər bir yeni təklif yazın. Çox vaxt qeyri-adi, gözlənilməz, ilk baxışdan sərsəm təklif əhəmiyyətli və maraqlı olur.
- Fikirlər tükəndikdə, «beyin həmləsi»ni dayandırın. İndi siz bütün təkliflərə şagirdlərdən onları şərh etməyi xahiş edərək baxa bilərsiniz.

## İŞTİRAKÇILARIN SƏRBƏSTLƏŞMƏSİNƏ VƏ MÜSBƏT İŞ İQLİMİNİN YARANMASINA İMKAN YARADAN OYUNLAR

Treninqi adətən psixoloji fəallaşdırma oyunundan başlayırlar. Bu fəaliyyətin məqsədi:

- İştirakçılara sərbəstlik vermək;
- Treninqin başlanğıcında yaranan gərginliyi aradan götürmək;
- İştirakçılara bir-birilə tanış olmaq imkanı vermək;
- İş mühitini yaratmaq.

### TANIŞLIQ, ÖZÜNÜ TƏSDİQETMƏ OYUNLARI

**1.«DAİRƏVİ TƏQDİM OLUNMA»**

İştirakçılara dairə üzrə düzülmək təklif edilir. Sonra hər iştirakçı adını deyərək və onu müəyyən hərəkət ilə müşayiət edərək özünü təqdim etməlidir.

Hər növbəti iştirakçı əvvəlki iştirakçıların adını və Hərəkətlərini təkrarlayır, sonra isə özünü təqdim edir və jestlə və ya hərəkətlə öz adını müşayiət edir:

Beləliklə, axırıncı iştirakçı bütün iştirakçıların adlarını və hərəkətlərini təkrar etməlidir, sonra isə özünü təqdim etməlidir. Gülməli hərəkətlərdən istifadə olunması təqdimatı daha da şən edir.

**2.AD-ŞƏKİL (RƏSM) – DEVİZİNİZ (ŞÜARINIZ)**

İştirakçılar xarakterik xüsusiyyətləri əks etdirən simvolik şəkildən və devizdən ibarət olan öz vizit kartoçkalarını bir vərəq üzərində təsvir edirlər. Sonra hər bir iştirakçı öz vizitkasını şərh edir.

**3.«VİZİT KARTI»**

Təlimat: «Rəngli qələmlərdən istifadə etməklə kağız üzərində öz adınızı yazın və bu vizit kartınızı istədiyiniz kimi bəzəyin. Özünüzü şəkil vasitəsi ilə ifadə edin».

Aparıcı özü də şəklin çəkilməsində iştirak edir. bununla o, ümumi işə cəlb olunmasını nümayiş etdirir və tərəddüd edənləri ürəkləndirir.

Aparıcı iştirakçılara dairə üzrə bu vərəq vasitəsi ilə özlərini təqdim etməyi təklif edir.

**4.MÜŞAHİDƏÇİLİK ƏSASINDA TANIŞ-LIQ**

Eyni masanın arxasında oturan iştirakçılara belə bir təlimat verilir: Müşahidəçilik qabiliyyətinizə əsaslanıb, siyahıda verilən hər bir mülahizənin iştirakçılardan hansına uyğun gəldiyini qeyd edir» (oyun blankı əlavədə verilmişdir, blank 1). İştirakçılar iş vərəqində öz adlarını yazır, sonra dairə boyu sol tərəfdəki iştirakçıya ötürərək vərəq sahibinə məxsus keyfiyyətləri qeyd etmək təklif olunur. Hər kəsə öz vərəqi çatdıqdan sonra ona aid edilən mülahizələri oxuyur və onun fikrincə, həqiqətə nə qədər uyğun gəlib-gəlmədiyini söyləyir.

## ƏMƏKDAŞLIQ

### ƏMƏKDAŞLIQ İQLİMİNİ YARADAN OYUNLAR

Bir sıra vəziyyətlərdə məşqçi əməkdaşlıq şəraitini yaratmaq və möhkəmləndirmək üçün aşağıda göstərilən (və ya ona bənzər) oyundan istifadə edə bilər.

### «MƏN--SƏN--BİZ»

İştirakçının optimal sayı: 14-16 nəfər (2 qrup). Otağın mərkəzində ətrafında stullar və məşqçinin stolu düzülmüş 2 böyük stol qoyulur (şagirdlərin partalarını birləşdirmək olar).

Bu oyunda dairə fiquru harmoniyanın mifaloji simvolu kimi seçilib. Belə hesab edilir ki, bütün həndəsi fiqurlardan uclu künclərinin olmamasına görə yalnız dairə ən «mehribandır». Dairədə işin aparılması inteqrativ, emosional, intuitiv təfəkkürü fəallaşdırır, həmçinin, qrupu sabitləşdirir, şəxsiyyətlərarası münasibətlərin müvəffəqiyyətli olması üçün şərait yaradır.

**LƏVAZİMAT:**

- böyük formalı kağız vərəqi (vərəqin uzunluğu 2 metr; birləşdirilmiş hissələrin olmaması daha məqsədə uyğundur; divar kağızlarının arxa tərəfindən istifadə etmək olar);
- qələmlər, rənglər, yağlı pastel, tutqun sulu boya, flomasterlər;
- fırçalar, su ilə dolu bankalar.

### I MƏRHƏLƏ: FƏRDİ İŞ

**İştirakçılar üçün təlimat:**

1.Stollardan birinin arxasında əyləşin.

2.Xoşunuza gələn rəng ilə kağızın müxtəlif yerlərində ovuc ölçüsündə olan dairə çəkin.

3.Vərəqdə daha bir dairə çəkin.

4.Əgər istəsəniz, yenə də dairələr çəkə bilərsiniz.

5.Şəkillərin konturlarını çəkin.

6. Öz dairənizi daha çox xoşunuza gələn dairələr ilə birləşdirin.

7.Öz dairələrinizin boş hissələrində şəkillər çəkin, yəni onlara fərdi xüsusiyyətlər verin.

İştirakçılara həmçinin, əvvəl dairələri çəkmək, sonra isə daha çox xoşlarına gələn şəkil ilə birləşdirməyi təklif etmək olar.

## II MƏRHƏLƏ: KOLLEKTİV İŞ

**İştirakçılar üçün təlimat:**

1.Vərəqin fonunda (arxa plan) şəkillər çəkin, yəni dairələr arasında olan boş hissəni doldurun.

2.Şəkilli vərəqin ətrafında gəzərək, şəkillərə diqqətlə baxın, istəsəniz fonu dəyişə, düzəlişlər apara bilərsiniz.

3.Müəllif icazə versə özgənin məkanında (yerində) işləyə bilərsiniz. Bu kimi yolla qarşılıqlı anlama şəraiti yaranır. Birgə səylər nəticəsində, uğurlu çəkilməyən şəkillər daha cəlbedici görkəm alır və müəllifin həzz almasına səbəb olur.

4.Digər iştirakçıların dairələrində nə isə çəkmək həvəsində olanlar varmı? Müəllif ilə danışıb yekdil fikrə gəlməyə çalışın.

5.Xoşunuza gələn şəkillərin yanında mehriban sözlər və arzularınızı ifadə edin. Müəlliflərdən icazə almağı unutmayın. Ətrafdakıların hisslərinə hörmətlə yanaşın. Bu çox vacib andır. Bir qayda olaraq simpatiya və mehribanlıq iqlimi yaradın.

## VƏZİYYƏT ÜZRƏ PRAKTİKUM

Bu üsul şagirdlərdə öyrənilər mövzu üzrə müəyyən biliklərin olmasını nəzərdə tutur. Buna görə, «Vəziyyət üzrə praktikum» üsulundan hər hansı bir mövzunu öyrənib qurtardıqdan sonra istifadə etmək olar. Belə hallarda bu üsul mövzunun məzmununu şagirdlərin necə mənimsədiklərini müəyyənləşdirməkdə müəllimə kömək edə bilər.

Şagirdlər qarşısına mənəvi sahəyə aid problemlər qoymaq və ciddi müzakirə tələb edən müxtəlif vəziyyətlər təklif etmək olar.

Vəziyyət üzrə praktikum tənqidi təfəkkür vərdişlərini, təhlil qabiliyyətini inkişaf etdirir, mənəvi dəyərləri, mövqeləri formalaşdırır. Dəyərlərin müəyyənləşdirilməsi üçün «Vəziyyət üzrə praktikum» üsulundan istifadə şagirdlərə öz rəylərinə görə cavab verməyi, bundan müdafiə etməyi öyrədir.

**Tətbiq etmə qaydaları:**

-Müəllim dərsdə müzakirə olunacaq problem və sualları əvvəlcədən müşaiyət edir, onları müxtəlif vəziyyətlər şəklində tərtib edir.

-Vəziyyət ayrı-ayrı kağız vərəqlərdə kartoçkalar şəklində yazılır.

-Hər vəziyyətə dair suallar və tapşıroıqlar qoyulur. Bunların sayı 2-dən 5-dək ola bilər.

-Şagirdlər  cütlüklərlə ya da qruplarla bilinirlər. Hər qrupa bir və ya bir neçə vəziyyət təsir edən kartoçkalar verilir.

-Tapşırıqlar yerinə yetirildikdən sonra qruplar öz işlərini təqdim edirlər.

-Qrupların təqdimatından müzakirəyə keçirilir.

## ŞİFAHİ ASSOSİASİYALAR

Bu üsuldan iki məqsədlə istifadə etmək olar.

Birinci, mövzunu öyrənməyə başlayarkən şagirdlərin bu mövzu haqqında nə bildiklərini aydınlaşdırmaq üçün.

İkincisi, dərsin sonunda şagirdlərin yeni nə öyrəndiklərini aşkara çıxarmaq üçün

- Lövhədə öyrənilən məsələ ilə bağlı söz (ya da sözlər) yazın.
- Şagirdlərdən xahiş edin ki, bu sözü lövhədə görərkən ya da eşitdərkən ağıllarına gələn başqa sözləri yazsınlar. Buna bir-iki dəqiqə vaxt verin.
- Mövzunun öyrənilməsinin sonuna yaxın hər bir şagirddən bu mövzu ilə bağlı nə düşündüklərini və ya hansı hisslər keçirdiklərini bir sözlə ifadə etməyi xahiş edin. Şagirdlərə mövzuya dair sözlər tapmağı təklif edin. Sözləri toplayın. Bir və ya iki şagirddən bu sözlərin siyahısını tərtib etməyi xahiş edin.

## KURRİKYULUM – TƏLİM PROSESİLƏ BAĞLI BÜTÜN FƏALİYƏTLƏRİN TƏŞKİLİNİ ƏKS ETDİRƏN KONSEPTUAL SƏNƏDDİR

«Kurrikyulum» geniş mənalı termindir və ölkə səviyyəsində təhsil məqsədlərindən başlayaraq, şagirdlərin gündəlik fəaliyyətinə kimi olan prosesləri əhatə edir. milli kurrikyulun bir-birilə bağlı müxtəlif nəticələri özündə cəmləşdirir.

**KURRİKYULUMUN ƏSAS KOMPO-NENTLƏRİ:**

- Ölkə miqyasında təhsilin inkişafı perspektivləri
- Milli (ölkə miqyasında) kurrikyulum siyasəti
- Fənlər üzrə kurrikyulum siyasəti
- tədris və təlim siyasəti
- Qiymətləndirmə siyasəti
- Təhsil almaqda hamı üçün bərabər imkanların yaradılması siyasəti
- Təhsildə informasiya və kommunikasiya texnologiyaları.

**MİLLİ (ÖLKƏ MİQYASINDA) TƏHSİL STANDARTLARI.**

- Ümumi təlim nəticələri
- Fənlər üzrə təlim nəticələri
- Ölkə miqyasında imtahan və qiymətləndirmə sistemi (müvəffəqiyyət dərəcəsi)
- Ölkə miqyasında monitorinq və qiymətləndirmə sisteemi
- Ölkə miqyasında tənzimləyici fəaliyyət
- Münasiblik və keyfiyyət üzrə ölkə və beynəlxalq səviyyəli etalonlar

## KURRİKYULUM ÜZRƏ TƏŞKİLATİ MODEL



## MİLLİ (ÖLKƏ MİQYASLI) TƏDRİS PROQRAMLARI

- Tədris planına hər hansı fənnin daxil edilməsinin məntiqi əsaslandırılması
- Fənn üzrə təlim nəticələrini əks etdirən məzmun
- Tədris, təlim, qiymətləndirmə metodları, üsulları
- Fənlərin tədrisinə ayrılan vaxt
- Dərsliklər də daxil olmaqla, tədris və təlim vasitələri.

## MƏKTƏBİN TƏDRİS PLANI

- Sinifdaxili təlim
- Şagirdlərin seçimi və məktəb tərəfindən seçilmiş fənlər (məktəb komponenti)
- Maddi-texniki və tədris-maddi baza
- Monitorinq və keyfiyyətin yüksəldilməsinə yönəldilmiş daxili qiymətləndirmə prosesi
- Valideynlərin və ictimaiyyətin məktəb həyatında iştirakı.

Əlbəttə, bir tədris vəsaiti çərçivəsində bütün sahələr üzrə yeni baxış və yanaşmaları əhatə etmək, onları şərh etmək qeyri-mümkündür. Burada qeyd olunanlarla yanaşı, xeyli vacib məsələlər vardır ki, onlara müasir düşüncə tərzi ilə yanaşma mümkün və çox zəruridir.

## TƏLİM-TƏRBİYƏ PROSESİNDƏ PEDAQOJİ TEXNOLOGİYALAR

Hesab edirik ki, hər bir pedaqoq anlayır ki, uyğunlaşmış məktəb-şagirdin məktəbə bağlılığı və məktəbin şagirdə bağlılığıdır. Pedaqoji texnologiyalar haqqında olan informasiyalar isə birmənalı deyildir. Bununla bağlı məktəbdə görülmüş işləri və problemlər cəmlənib dərk etmək tələbatı əmələ gəlmişdir.

Buna görə də ən yaxşı effektiv tədris formalarından biri də «Təlim-tərbiyə prosesində pedaqoji texnologiyalar»dır. Oyunların humanist istiqaməti müəllimlərdə empatiya, professional özünüdərk, kommunukativ ünsiyyət, pedaqoji ayıqlıq, pedaqoji duyma kimi keyfiyyətlər formalaşdırır.

## TƏLİM-TƏRBİYƏ PROSESİNDƏ PEDAQOJİ TEXNOLOGİYA OYUNLARININ METODİKASI

### MƏQSƏD

1. Pedaqoji texnologiya anlayışını nəzəri əsaslarla dərk etmə və sistemli nöqteyi-nəzərdən yanaşma;
2. Pedaqoji texnologiyalar haqqında biliklərini təkmilləşdirmək və sistemləşdirmək;
3. mümkün olan müxtəli təhlil texnologiyalarının müəyyən edilməsi, onların təlim vəsaitləri ilə əlaqəsini aydınlaşdırma.

### VASİTƏLƏR

**Psixoloji:** şəraitin rahatlığı, komanda üzvlərinin psixoloji baxımından uyğunluğu, oyunların məqsəd və məramlarının izahı, hərəkətlərin rəğbətləndirilməsi və refleksiya (təhlil etmə)

**Təşkilatı:** reqlament, oyun meydançasının hazırlığı; rolların bölünməsi və gözlənilməsi;

Oyunçuların adekvat imkanlarına görə oyunun tempi, işlərin yekunlaşdırılması.

**Didaktivlik:** oyun praktiklərin bacarığı; Kollektiv mülahizə nəticələrinin əyaniliyi; təlimat və sxemlərin həcmində konkretlik; oyunçuların intellektual şəraiti.

**MƏZMUN**

**I mərhələ.** Oyunun keçirilməsi qaydaları və məqsədi haqqında informasiyanın verilməsi (oyunun mövzusu, növü, qayda, reqlament haqqında məlumat verilir. Oyunun niyyətinin tezislərini və rolların bölüşdürülməsini yerinə yetirmək).

**Mərhələnin nəticələri:** komandaların təşkilat strukturlarının formalaşdırılmasının yekunlaşdırıl-ması.

**II mərhələ.** İştirakçıların psixoloji hazırlığı (onları oyun rejiminə giriş etmək üçün)

**Mərhələnin nəticələri:** iştirakçıları «beyin həmləsinə» cəlb etmək.

**III mərhələ.** Kollektiv axtarış. Pedaqoji texnologiyada strukturları modelləşdirmək və praktikada tətbiq etmək.

1. Oyun medançası: əsas pedaqoji terminlərin lüğəti; qruplarda işləmək üçün suallar; müəllimlərin və şagirdlərin testləşdirilməsinin yekunu; qruplarda işləmək üçün hazırlıq işləri (qələm, vərəq, market, lövhə).

2. Qruplarda işləmək üçün suallar; pedaqoji texnologiyada münasibətinizi bildirin və onları xarakterizə edin.

**Mərhələnin nəticələri:** pedaqoji texnologiya modelinin yaradılması, tətbiqi formaları, komandalar arası diskusiyaya hazırlıq.

**IV mərhələ** (III mərhələ ilə paralel olaraq). Mikrotədqiqat «Seminar iştirakçıları – pedaqoji texnologiyalar haqqında « (test).

**<u>Mərhələnin nəticələri:</u>** seminar və onun iştirakçılarının pedaqoji texnologiya haqqında müqayisəli fikirləri. Mikrotədqiqat işlərinə yekun vurmaq.

**<u>V mərhələ</u>**. Komandalar arası diskussiya (hər bir komandanın öz fikri, münasibəti, strukturu). Konservatorlar fikir söyləyirlər: digər komandaların iştirakçıları – apponertlik edir: suallar verir, fikirlər söyləyir (arzular, diləklər).

Seçim yaradıcılıq tədbirləri: 1. Müzakirə olunan problem (texnologiya) haqqında hekayə söyləyin, məzmunu ona yaxın olsun. 2. Emblem çəkin. 3. Epiqramma tərtib edin.

## NƏTİCƏ

**<u>VI mərhələ.</u>** Yekun təəssüratını təhliletmə.

- Qruplarda ümumiləşdirmə;
- Ekspeprt qrupunun fikirləri;
- Təklif edilmiş metodun yekunu.

Mərhələlərin yekunu: Məktəbin elmi-metodiki şurasına yeni təkliflərlə müraciət etmək.

## OYUN QAYDALARI

I mərhələ. Oyunun konkret məqsədi aydınlaşdırılır. Hər birində 6 nəfər olmaqla 5 komanda iştirak edir. Komandaların formalaşdırılması prinsipləri – məktəbdə aktiv tətbiq edilən pedaqoji texnologiyalardan istifadə etməklə. Bu texnologiyalara aiddir:

- Differensial texnologiya;
- Modul təhsil
- Özünüidarəetmənin inkişafı;

- Oyun texnologiyaları;
- Problemli təhsil

Oyunların gedişi zamanı – hər bir qrup müəyyənləşdirir:

-qruplarda işləri təşkil edir, vəzifə bölgüsü aparır, qrup üzvlərinin birgə hərəkətini koordinasiya edir, ümumiləşdirir, hər etapda işləri yekunlaşdırır.

-oyunların gedişi zamanı «öz» texnolo-giyalarının müsbət və mənfi tərəflərini müəllim və şagirdlər üçün müəyyən edir və sairə.

-kompleks funksiya yerinə yetirilir: praktik və analitik.

Stol arxasında olan oyunçular. Reqlamenti razılaşırlar. Komandalara rolların müəyyənləş-dirilməsi üçün 1 dəqiqə vaxt verilir.

## II MƏRHƏLƏ. İŞTİRAKÇILARIN ONUN REJİMİNƏ DAXİL EDİLMƏSİ ÜÇÜN PSİXOLOJİ HAZIRLIQ

Şagirdlərin diqqəti müəllim əməyinə yönəldilir. Onun arxasında nə dürür? Bu haqda nə bilirik. O necə ola bilər? Bu haqda düşünmək və müzakirələr aparmaq.

## III MƏRHƏLƏ. «BEYİN HƏMLƏSİ» - QRUPLARDA İŞ

Oyun meydançasında – qruplarda iş üçün lazım olan avadanlıq. Hər bir komanda analiz edir, pedaqoji texnologiya üzrə işlənmiş məsələni ümumiləşdirir. Onlarda iş üçün 20 dəqiqə vaxt ayrılır.

***SUALLAR:***

1. Pedaqoji texnologiyaya münasibətinizi bildirin. Onlardan hansı (hansılar) sizin fikrinizcə məktəbdə tətbiq oluna bilər?

a) Sizlər tərəfindən seçilmiş pedaqoji texnologiyanın strukturunu modelləşdirin (müəyyənləşdirmək, xarakterizə etmək).

b) müəyyən edilmiş texnologiyaların praktikada tətbiq edilməsi alqoritini tərtib edin.

2. Pedaqoji texnologiyanın tətbiq edilməsi müəllim və şagird üçün nə verir?

3. Pedaqoji texnologiyanın məktəbdə tətbiq edilməsi üçün hansı maneələr görürsünüz?

## IV MƏRHƏLƏ (PARALEL OLARAQ)

Qruplar işləyərkən, mikrotədqiqat keçirilir: müzakirə problem haqqında fikirlər söylənilir.

Aşağıdakı suallara cavab verilməsi təklif olunur (15 dəqiqə).

1. Pedaqoji texnologiyalara öz münasi-bətinizi bildirin. Onlardan hansı (hansılar) sizin fikrinizcə məktəbdə tətbiq oluna bilər?

2. Pedaqoji texnologiyanın tətbiq edilməsi müəllim və şagird üçün nə verir?

3. Pedaqoji texnologiyanın məktəbdə tətbiq edilməsi üçün hansı maneələr görürsünüz?

Mikrotədqiqatın müzakirəsi və təkmilləşdiril-məsi – 10 dəqiqə (ekspertlər şurası)

Bu zaman aparıcılar qruplara məsləhətlər verirlər.

Müzakirədən sonra qruplarda III mərhələnin sualları üzrə işlər başlanır.

## V MƏRHƏLƏ. KOMANDALAR ARASI DİSKUSSİYA

Birinci növbədə diskussiyaya konservatorlar dəvət olunur. Müzakirə üçün 1 dəqiqə vaxt verilir. Qruplara suallar verilir, məsləhətlər edilir, arzular çatdırılır. Bir komanda digər komandaya 1-2 sual verə bilər.

## VI MƏRHƏLƏ. YARADICILIQ ŞƏRAİTİ.

Bir qədər yorğunluq olduğu zaman istirahətə ehtiyac duyulur. İstirahət məlum olduğu kimi həm də fəaliyyətin digəri ilə əvəz edilməsidir. Komandalara seçim üçün yaradıcılıq tapşırıqları verilir:

1. Müzakirə olunan problem (texnologiya) haqqında hekayə söyləyin, məzmunu ona yaxın olsun. 2. Emblem çəkin. 3. Epiqramma tərtib edin və sairə.

Tapşırığın hazırlanması – 5 dəqiqə. Sonra hər bir komanda öz yekunlarını nümayiş etdirir. (2 dəqiqə).

Mikrotədqiqat yekunlaşdırılır – ekspertlər şurası rəy verir.

## VII MƏRHƏLƏ. OYUNLARIN YEKUNLAŞDIRILMASI.

a) Liderlərin qruplarda görülən işlər barəsində ümumiləşdirilmiş fikirləri;

b) Ekspertlər şurasının yekun rəyi;

c) Aparıcıların fəaliyyətinin ümumiləşdiril-məsi.

Oyunların yekununda kollektiv halda yeni texnologiyaların daha da səmərəli, effektiv tətbiqi barədə tövsiyələr hazırlanır;

- Müəllimlərdən yaradıcı qrupların təşkil edilməsi;
- Metodik birləşmələrə cari tədris ilində pedaqoji texnologiyalara aid toplanmış təcrübələrin ümumiləşdirilməsinin tövsiyə olunması;
- Məktəbin elmi-metodiki şurasının toplanmış texnologiya təcrübəsinin öyrənilməsi və müəllimlərin yaradıcı qruplarını səlahiyyətli mütəxəssislərlə, I dərəcəli və ali kateqoriyalı müəllimlərlə təmin etməsi.

## MÜASİR MƏRHƏLƏDƏ TƏLİM TEXNOLOGİYALARININ TƏDRİS PROSESİNDƏ TƏTBİQİ

Mənimsənilməsi zəruri olan məlumatların durmadan artdığı hazırki dövrdə təlim fəaliyyətində texniki vasitələrdən istifadə olunması ən səmərəli tədbirlərdən biri kimi nəzərdə tutulur. Bu hər şeydən əvvəl, təlimdə istifadə olunan texniki vasitələrin informasiya mübadiləsi vasitəsilə çevrilir və mənimsəmənin səmərəliliyini artırır.

Müasir dövrü nəzərdən keçirdikdə kütləvi kommunikasiya vasitələrinin nə dərəcədə geniş inkişaf etdiyinin şahidi oluruq. Bu cür kütləvi kommunikasiya vasitələrinə müxtəlif çap məhsulları, kinonu, səs yazılarını, radionu, televizov verilişlərini aid edə bilərik. Həmin kütləvi kommunikasiya vasitələri istər-istəməz şagirdlərin bu və ya digər məlumatlarla tanış olmalarına, onları mənimsəmələrinə əsaslı təsir göstərir. Şübhəsiz həmin vasitələri məqsədəuyğun şəkildə şagirdlərin təlim fəaliyyətinə daxil etdikdə mənimsəmənin səmərəliyiyinə qat-qat artıq təsir göstərəcəkdir. Başqa sözlə, kino, səs yazıları, radio, televizov kimi kütləvi kommunikasiya vasitələri təlimin texniki vasitələrin zənginləşdirmək sahəsində mühüm rol oynayır.

Yuxarıda qeyd etdiyimiz kimi, müasir pedaqoji proses üçün texniki vasitələrdən istifadənin genişlənməsi qanunauyğun haldır. Əks təqdirdə yalnız köhnə ənənəvi şifahi şərh yolu ilə lazımi məlumatların hamısını şagirdlərin malı edə bilməzdik.

Təlimdə texniki vasitələrdən istifadə olunması şagirdlərə çatdırılacaq məlumatların həcmini artırmağa, şagirdlərin idrak fəaliyyətini fəallaşdırmağa, materialı çatdıma formasını dəyişdirməyə və s. imkan verir. Təlim prosesində texniki vasitələrdən istifadə zamanı məlumatların qavranılması və işlənilməsi daha yüksək psixi fəallıq

şəraitində həyata keçir ki, bu da materialın dərindən mənimsənilməsini təmin edir.

Psixoloji tədqiqatlar göstərmişdir ki, təlim fəaliyyətində texniki vasitələrdən istifadə olunması aşağıdakı dəyişikliklərə səbəb olur. 1) Təlimin fəallığı artır, mövzuya qarşı idrak istifadə başa çatdıqdan sonra şagirdlər həmin məsələnin müzakirəsinə girişirlər. 2) İnformasiyaların qavranılması prosesi əsaslı şəkildə dəyişir. Qavranılan materialın anlaşılması üçün geniş imkanlar yaranır. Əldə edilən yeni biliklərlə keçmiş biliklər arasında əlaqərəp zənginləşir. İdrak fəaliyyəti emosional fəaliyyətlə üzvü şəkildə bağlanır. Zəruri surətlərin yaranması mexanizmlərinin idarə olunması imkanı meydana gəlir. 3) İnformasiyaların işlənməsi mərhələsində əsaslı dəyişiklik baş verir. Təsəvvür ehtiyatları genişlənir.

Müasir məktəbdə pedaqoji prosesdə əyani vasitələrin tətbiqi 2 mühüm funksiyanı həyata keçirmək imkanı verir, tədris prosesində cisim və hadisələri təmsil etmək və gerçəkliyin obrazlı modelini yaratmaş. Bu yunksiyalır həyata keçirməklə təlimin texniki vasitələrdən istifadə şagirdlərin fikri fəaliyyətini daha canlı, daha məhsuldar edir.

Müasir dövrdə təlim prosesində audiovizual istifadə olunması ayrı-ayrı dərslərdə müəllimin məlumatvermə funksiyasını həyata keçirmək imkanı yaradır. Bu cür audiovizual vasitələrdən xüsusi ilə televiziyadan istifadənin rolunu qeyd etmək lazımdır. Təlimin texniki vasitəsi kimi televizor verilişlərindən istifadə olunması şagirdlərin psixi inkişafına əsaslı təsir göstərir. Burada 1 növbədə hissi idrakın inkişafı üçün geniş şərait yaranmış olur. Şagirdlərin daha dəqiq və aydın duyub qavramalır üçün bu cür audiovizual vasitədən istifadə əvəzolunmaz əhəmiyyət kəsb edir. Təlimdə bu cür vasitələrdən istifadə təfəkküo və təxəyyülün inkişafına geniş imkan yaradır. Bu zaman obrazlarla bağlı olan kifayət qədər anlayış və ideyalar obrazlı və əyani-əməli təfəkkürün

inkişafına təsir göstərir. Şagirdlərin obrazlar aləminə daxil olmaları onların təxəyyülünü inkişaf etdirir. Ona görə də şagirdlərin xüsusilə bərbaedici təxəyyüldən istifadə etmə imkanları genişlənir. Televiziya verilişlərindən audiovizual vasitə kimi istifadə olunması şagirdlərin hafizələrinə də əsaslı təsir göstərir. Ekranın köməyi ilə şagirdlərə çatdırılan material tez yadda saxlanılır. Uzun müddət unudulmur. Adi təlim şəraitində öyrənilən metariala nisbətən daha dəqiq yada salına bilir.

Təlimin texniki vasitələri sistemində televiziya verilişlərinin üstün mövqeyi rndan ibarətdir ki, o özünün məlumat vermə imkanı və eləcə də informasiyanı qəbul edənin psixikasına təsir etmə gücünə görə başqa kütləvi kommunikasiya vasitələrinə nisbətən daha səmərəli xarakter daşıyır.

Tədris kinolarında istifadə əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Tədris kinosu hadisələrin cərəyan surətini istənilən kimi, tədris vəzifələrinə uyğun şəkildə dəyişdirməyə imkan verir. Tədris kinosundan istifadə edən müəllim dərsin gedişində müxtəlif yerlərdə və müxtəlif şəraitlərdə baş verən hadisə və prosesləri bir-birinə qarşı qoymaq və müqayisə etmək imkanı əldə edir. Tədris kinosu müşahidə obyekti haqqında tam və dəqiq anlayışlar yaratmaqla, bərabər, möhkəm əqidə və maraq tərbiyə edir.

Adətən, televiziya verilişlərindən təkcə tədris filmlərinin nümayiş etdirildiyi zaman istifadə olunmamışdır. Bu cür verilişlərin imkanları çox genişdir. Müəllim şagirdlərlə bədii-siyasi, publisist, elmi-kütləvi verilişləri müzakirə etməli, onlardan şagirdlərin dünyagörüşünün, əqli və əxlaqi baxışların, bir şəxsiyyət kimi formalaşmasının gedişində istifadə etməlidir. Bu cür verilişlərə təkcə baxmaqla kifayətlənmək olmaz. Müəllim həmin verilişlərin hər birini şagirdlərlə birlikdə geniq müzakirə etməlidir. Bu cür müzakirələr həmin verilişlərin məzmununu

anlamağa, onlara qarşı münasibət və ustanovkasının yaranmasına səbəb olur.

Müasir dövrdə proqlamlaşdırılmış təlimdən, xüsusilə, proqramlaşdırılmış təlim maşınlarından istifadəyə müəyyən yer verilir. Proqramlaşdırılmış təlim dedikdə əvvəlcədən hazırlanmış proqrama müvafiq olaraq bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesisini idarə etmək yolu ilə öyrətmək, təlim vermək nəzərdə tutulur. Bu cür idarəetmə bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesində daxili və xarici əlaqə əsasında şagirdlərin fikri fəaliyyətini idarə etmək deməkdir.

Proqramlaşdırılmış təlimdə öyrədiləcək materiallar «porsiyalara» bölünür. Bu məlumatlar çox ciddi məntiqi ardıcıllıqla düzülür. Belə ki, hər bir sonrakı porsiyanı anlamaq və mənimsəmək üçün əvvəlki porsiyaları möhkəm mənimsəmək və anlamaq lazımdır. Bu olmadan sonrakı porsiyaların öyrənilməsinə keçmək heç bir səmərə verə bilmir və ümumiyyətlə, sonrakı məlumatları öyrənməyə keçmək olmur.

Şagirdlər hər bir növbəti porsiyanın materialları ilə tanız olduqdan sonra, onlara müvafiq yoxlama sualları verilir. Şagirdlər həmin suallara cavab verməli olurlar. Bu zaman onlar cavağlarının düzgün və ya yanlış olduğunu yoxlamaq imkanına malik olurlar. Cavablar düzgün olduqda şagird sonrakı porsiyanı öyrənməyə keçir. Yanlış olduqda isə yenidən əvvəlki məsələni təkrar etməyə, öyrənməyə yönəldilir. Bu iş düzgün cavab alınana qədər davam etdirilir.

Proqramlaşdırılmış təlimdən istifadədə məqsəd şagirdlərin öyrənmə proseslərinin səmərəli keçməsinə kömək edir, onlar çoxlu məlumata malik olurlar. Bu üsuldan hər bir şagirdlə daha fərdi işləmək olur, xüsusilə təlimin maşınlarından istifadə olunması təlim işinin səmərəliyinə əsaslı təsir göstərir.

Hazırda kompüterlərdən istifadə olunması bu baxımdan diqqəti cəlb edir.

Təlimin kompüterləşməsi bütün fənlər üzrə bacarıq və vərdişlər əldə olunmasına, şagirdlərin idrak və yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsinə, təlim və tərbiyə prosesini idarəetməyi optimallaşdırmağa, təlim prosesini şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun aparmağa imkan verir.

Ölkəmizdə aparılan psixoloji tədqiqatlar təlimdə kompüterlərdən istifadənin aşağıdakı üstün cəhətlərini aşkara çıxarmışdır.

a) kompüter vasitəsilə görülən işin yeniliyi şagirdlərin onunla işləməyə olan marağını daha da artırır.

b) o, təlim prosesində hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almağa imkan verir.

v) fərdi ünsiyyət funksiyasını yerinə yetirir.

q) kompüter şagirdlərin təlim prosesinə fəal surətdə qoşulmasına diqqətlərini öyrənilən materialın lazımi cəhətlərinə cəlb etməyə imkan verir.

ğ) təlimdə müxtəlif tapşırıqların tətbiq olunması imkanları genişlənir, müxtəlif situasiyaların modelləşdirilməsi tapşırıqlarından geniş istifadə olunur.

d) şagirdlər kompüterin köməyi ilə əvvəllər əldə edə bilmədikləri məlumatlardan istifadə etmək imkanı qazanırlar.

Bütün deyilənlərdən aydın olur ki, proqramlaşdırılmış təlimdən istifadə müasir dövrdə böyük üstünlüklərə malikdir. Lakin onun qüsurlarını da qeyd etməmək olmaz. Hər şeydən əvvəl bu üsuldan bütün müəllimlər eyni səviyyədə istifadə etmək imkanına malik deyildir. Digər tərəfdən isə proqramlaşdırılmış təlim fərdiləşdirməyə nə qədər geniş imkan versə də müəllimin şagirdlə canlı, emosional ünsiyyətini əvəz edə bilməz.

Təlimdə istifadə olunan texniki vasitə kimi, artıq çoxdandır ki, maqnitafon özünə geniş yer etmişdir. Lakin bu imkan ən çox dillərin,

xüsusilə xarici dilin öyrənilməsi prosesində daha genişdir. Bu məqsədlə məktəblərdə fəaliyyət göstərən linqafon kabinələrinin rolunu xüsusilə qeyd etmək lazımdır.

Bəs dillərin öyrənilməsində maqnitafonun mövqeyi nədən ibarətdir?

Maqnitafondan, hər şeydən əvvəl düzgün tələffüz vərdişini yardan çalışmalar üçün istifadə edilir. Maqnitafon olmadıqda tələffüz vərdişinin yaradılmasında əsas ağırlıq müəllimin üzərinə düşür. Bu zaman təlimi fərdiləşdirmək çətinləşir. Ona görə də çox vaxt müəllimlər bu işin öhdəsindən gələ bilmirlər. Müasir dövrdə isə maqnitafon müəllimlərin bu işdə ən yaxın köməkçisi olmuşdur. Maqnitafon vasitəsilə bu və ya digər ifadələr istənilən miqdarda təkrar edilir ki, bunun sayəsində də şagirdlər düzgün tələffüzü dəfələrlə dinləmək imkanı əldə etdirir.

Maqnitafonu dəfələrlə dinləmək nəticəsində şagirdlər özlərinin və yoldaşlarının lentə yazılmış nitqlərindəki səhvləri daha yaxşı başa düşür və asanlıqla düzəldirlər.

Müəllimin düzgün tələffüzü nəticəsində lentə yazılmış səslər dinlənilir və şagirdlər diktorun işlətdiyi həmin sözləri təkrar edirlər.

Müşahidə və təcrübələr göstərir ki, xarici dilləri öyrənən şagirdlər öz müəllimlərinin nitqini yaxşı başa düşdüyü halda, başqasının məlum sözlər və qrammatik konstruksiyalar əsasında qurulmuş danışığını anlamaqda çətinlik çəkirlər.

Bu işdə də, yəni şagirdlərin eşitmə və anlamaqda da maqnitafon köməyə gəlir. Eşitmə və anlama bacarığını yaratmaq üçün arası kəsilmədən məşqlər aparmaq və bu yolda daha mürəkkəb və zəruri bacarıqlar yaratmaq lazımdır.

Maqnitafonla aparıla biləcək belə çalışmalara aşağıdakılar misal ola bilər;

- diktorun söylədiyi mətn üzrə sual-cavab, diktorun vermiş olduğu sözlər əsasında hekayə düzəltmə və s. Sualları bir mövzu ilə əlaqələndirib seçmək lazımdır ki, şagirdlər son nəticədə diktorun suallarından istifadə edərək danışa bilsinlər.

Yuxarıda qeyd etdiklərimizdən aydın olur ki, təlimdə texniki vasitələrdən istifadə mühüm əhəmiyyətə malikdir. Lakin texniki vasitələrdən necə gəldi istifadə etmək olmaz. Burada bir sıra psixoloji pedaqoji tələblərə əməl olunmalıdır.

Hər şeydən əvvəl, texniki vasitə tətbiq edilərkən şagirdlərin yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır.

Texniki vasitələrin tətbiqi şagirdlərin idrak imkanlarına uyğun olmalıdır.

Texniki vasitələrin tətbiqində məktəbin mühitini nəzərə almaz zəruridir.

Ehtiyac olmadan texniki vasitələrdən yerli-yersiz istifadə etmək düzgün deyildir. Belə olduqda şagirdlərdə həmin vasitələrə qarşı laqeydlik, psixoloji doyumluluq yaranır.

Görkəmli pedaqoq A.O.Gernayevski təlim prosesində əyaniliyin mühüm didaktik prinsip olduğunu qeyd edirdi. İlk növbədə də ibtidai məktəblərdə onlardan istifadə olunmasını xüsusi vurğulayırdı. O, uşaqlar üçün, «Vətən dili» kitabının I və II hissələrini elə tərtib etmişdir ki, öyrənilən material ətraf aləm, təbiət hadisələri haqqında bitgin və əlaqəli təsəvvürlər əldə edilsin.

Görkəmli gürcü pedaqoqu J.S.Qoqevaşvili dərslikləri tərtib edərkən nəzərdə tutulması lazım gələn xüsusiyyətləri göstərirdi. O, qeyd edirdi ki, belə bir dərslik bir tərəfdən əyaniliyə, digər tərəfdən ana dilinin müntəzəm köməyinə arxalanmalıdır, həm də bu kömək əvvəlcə müəllimin canlı dili ilə, sonra isə kitab tərcüməsi vasitəsilə göstərilməlidir.

A.O.Çernayevski əyaniliyin bir cəhətini də qeyd etmişdir. O, yazmışdır… uşaq inamla susduğu, yaxud öz fikrini deyə bilmədiyi və ya deməyə qorxduğu yerdə əyani şey və şəkil ona, demək olar sehrli təsir göstərir və dərhal onu dilə gətirir. (Qoqebahvili. Rus dilinə dair tədris vasitələrinin təhlili, seçilmiş pedaqoji əsərləri. M.1954, səh. 192) Çernayayevski göstərirdi ki, ortada olmayan bir şeyir nə qədər yaxşı təsir və ya izah etsən də şagirddə aydın təsəvvür yaranmaz. Lakin bu şeyi və ya onun şəklini göstərmək, baxmağa vermək, həm də bu zaman mümükün qədər çox xarici hissi işlətmək kifayətdir ki, şagird həmin şey haqqında dürüst təsəvvür alsın və onu təsvir edə bilsin.

Bununla yanaşı Çernyayevskinin fikrincə, əşyaya tamaşa edən şagird təkcə onun zahiri görkəmi ilə deyil, rəngi, keyfiyyəti, hansı materialdan hazırlanması ilə də tanış olur, yeni əşya haqqında dolğun təsəvvür əldə edir və öz fikrini söyləyə bilir. Bunlardan əlavə əyanilik, müəllifin fikrincə, şagirddə mənəvi qabiliyyətin, yəni xarici hisslərin diqqətin, müşahidə qabiliyyətinin inkişafına, təsəvvür və anlayışların ibtidai əsaslarının formalaşmasına müsbət təsir göstərir, təlimə maraq oyadır və eyni zamanda şajirdlərin nitqninin inkişafına kömək edir.

Çernyayevski bir tərəfdən Y.A.Komenskinin didaktikasına, xüsusilə də onun belə bir tələbinə də əsaslanırdı ki, qeyri-ana dilində ilk çalışmalar üçün uşaqlara məlum olan material götürülməlidir, digər tərəfdən o bu məsələ barəsində məşhur alman psixoloqu F.Benekenin belə bir fikrini əsas tuturdu ki, uşaq ana dili ilə əlaqələndirilən ətsəvvürləri mənimsəməklə özgə dilin əsasları haqqında təsəvvür əldə edə bilər. Digər tərəfdən Çernyayevski assosasiya qanununa əsaslanırdı. Bu qanuna görə təlim sözlərin, xüsusən əşyaların assosasiyası əsasında baş verir, bu zaman xarici dildən olan söz ana dilində müvafiq sözü yada salır.

Çernyayevski bununla əlaqədar olaraq yazırdı: « Bəzi müəllimlər belə ümid edirlər ki, uşaq verilən bütün biliyi yalnız hafizə vasitəsilə mənimsəyə bilər. Lakin bu yalnış fikirdir. Biliyin mənimsənilməsində gərək düşüncə hdə iştirak etsin, hətta başlıca olaraq iştiirak etsin. Bilik topladıqca bir-birinin üzərinə qalaqlanmadan bölüşdürməli və qruplaşdırılmalıdır».

Biz ətrfa aləmdən ilkin informasiyaları, məsələn, havanın temperaturu, güllərin rəngi və iyi, əşyaların foroması, quşların səsi, çayların şırıltısı, yeməyin dadı və s. haqqında informasiyaları duyğu orqanlarımız vasitəsilə alırıq. İnsan qəbul etdiyi informasiyanın çoxunu görmə orqanları vasitəsilə əldə edir. Biz özümüzə lazım olan informasiyanı çalışıb yaddaşımızda saxlayırıq.

Yaddaşımıza etibar etmədikdə isə onu qeyd kitabçamıza yazırıq. Atədən, aldığımız informasiyalar haqqında düşünürük müəyyən nəticələrə gəlirik və qərarlar qəbul edirik.

Məsələn: biz radio və ya televizorda hava haqqında məlumatda yağış yağacağı barədə eşitdikdə, evdən çıxarkən hökmən çətir götürürük.

Müəllimin dərsdə verdiyi informasiyalara əsasən tapşırıqları yerinə yetiririk. Başqa sözlə informasiyanı emal edirik.

Bəzi hallarda aldığımız bu və ya digər informasiyanı sinif yoldaşlarımıza deyirik. Bu halda deyirlər ki, insan informasiyanı ötürür.

İnsanlar minilliklər boyu informasiyaları şifahi olaraq ötürmüşlər. Lakin, bu zaman informasiyanı qəbul edənlə onu ötürən arasında bilavasitə ünsiyyətin olması lazım gəlirdi. Sonralar informasiyaları yadda saxlamaq və gələcək nəsillərə ötürmək üçün müxtəlif vasitələrdən, o cümlədən materialdan istifadə etmişlər.

Bu gün elm və texnikanın surətlə inkişaf etdiyi bir zaman, ölkəmizdə kompüterləşmə həyatımıza fəal şəkildə daxil olduğu bir

dövrdə təlim tədris prosesində dəyişikliklər baş verir, müxtəlif forma və metodları tətbiq edilir. Əgər dərsin fəal forması kimi əvvəllər müəllimin əyani və texniki vasitələrdən istifadə edilməsidirsə, bu günkü reallıq uşaqların elmin sirlərini daha mükəmməl mənimsəməsi üçün kompüterlərdən istifadədir.

Hələ ibtidai məktəbdən şagirdləri elə ilk dərslərdə kompüterlə tanışlıq, onun qurğusunun izahı ilə başlayırlar. Əlbəttə, ilk əvvəl onların yaş xüsusiyyətlərini və meylini nəzərə alaraq adi oyun, şəkil nümayişlərindən başlanır, daim şagird və müəllim bu mürəkkəb eyni zamanda maraqlı texnikadan informasiya alır, informasiyalarla işləyərkən insan beyni əsasən iki funksiyasını yerinə yetirir.

1) informasiyanın yadda saxlanması; 2) informasiyanın emalı.

İnsan beyni informasiyaları duyğu orqanları ilə qəbul edir, nitq yolu ilə hərəkət sistemi vasitəsi ilə ötürür. Beləliklə, informasiyalarla işləyərkən insan əsasən dörd hərəkəti icra edir.

1. İnformasiyanı qəbul edir;
2. İnformasiyanı emal edir;
3. İnformasiyanı yadda saxlayır;
4. İnformasiyanı ötürür.

Kömpüter də insan kimi informasiyanı qəbul edir, yaddaşda saxlayır, emal edir və ötürür. Ona görə də kompüteri informasiyaların qəbulu, saxlanılması, emalı və ötürməsi üçün universal qurğu adlandırırlar.

İnformasiyaların qəbulu, saxlanılması, emalı və ötürməmsini həyata keçirmək üçün bütün ixtisas sahibləri istifadə edir. Ona görə məktəblərdə uşaqları kompüterlərin mahiyyəti, həyatımızdakı rolu, onun qurğuu ilə tanış etdikdən sonra kompüter sinfi ilə onun tərkib hissələri və başlıca vəzifələrini izah edir və göstərirlər. Uşaqlar praktik işdə kompüter sinifdən istifadə qaydalır ilə tanış olur. Hərəkət qaydaları

öyrədilir ki, klaviaturada işlədikdə barmaqlar düzgün hərəkət edə bilsin. Şəkil, rəsm əsəri çəkdikdən sonra onun bu və ya digər elementlərinin dəyişməsi və ya ləğv edilməsi lazım gəlir. Belə proseslər redaktə prosesi adlanır. Şəkildə müəyyən hissələri pozmaq üçün rezin pozanlardan istifadə edirik. Alətlər panelində isə pozan aləti var və o dəqiq pozan kimi işləyir. Əşkildəki müəyyən hissəni pozmaq üçün pozan aləti aktivləşdirirlər və kursoru lazımi yerə gətirdikdən sonra mausun sol düyməsi basılır, silinəcək hissə üzərində hərəkət etdirilir və nəticədə həmin hissə silinir. Alətlərin saxlanılması qutusu vasitəsilə pozanın ölçülərini dəyişmək olar.

Təsvirin lazım olmayan hissələrini pozmaq üçün bu üsul yeganə üsul deyil, digər üsullar da vardır. Praktiki işdə şagirdlərin hər biri öz arzusuna uyğun olaraq ilk rəsm layihəsi işləyir. Bu zaman alətlər və rənglər qutusundakı bütün elementlərdən istifadə etməklə redaktə işi aparır və hər kəs öz adı ilə həmin rəsmi yaddaşda saxlayır.

Ümumiyyətlə, şagirdlərin informasiyaları ilə işləmələri, artıq müasir texniki tədris avadanlıqlarından istifadə onlarda təlimə marağı artırır, hətta zəif şagirdlər belə istər-istəməz fəallaşmağa başlayır.

Müəllimlər şagirdlərin əqli əməkdən üz döndərmələri məqsədilə qeyri-standart dərslərdən istifadə etmişlər. Məqsəd şagirdlərdə tədris əməyinə maraq oyatmaq və o marağı saxlamaqdır. Qeyri-standart tədris əməyinə maraq oyatmaq və o marağı saxlamaqdır. Qeyri-standart dərslər əstandart strukturu olmayan improvizə edilmiş tədris məşğələlərdir. Ən çox yayılmış qeyri-standart dərs tipləri aşağıdakılardır:

1)Dərslər – işgüzar oyunlar;

2) Dərslər – mətbuat konfransı;

3) Yarış dərsləri;

4) Məsləhət dərsləri;

5) Kompüter dərsləri;

6) Qarşılıqlı təlim dərsləri;

7) Yaradıcılıq dərsləri;

8) Məqbul dərsləri;

9) Fantaziya dərsləri;

10) Dərslər oyunlar;

11) Həqiqəti tapma dərsləri;

12) Dərslər –konsertlər;

13) Dialoq dərsləri;

14) Dərslər – rollu oyunlar;

15) Dərslər – konfranslar;

16) Dərslər – seminarlar;

17) Dərslər – ekskursiyalar;

18) İnteqral-dərslər

19) Məhkəmə – dərsləri

Ümumiyyətlə, yeni pedaqoji ədəbiyyatda 36-1a qədər qeyri-standart dərs tipi göstərilir.

Göründüyü kimi qeyri-standart dərslər siyahısına bəzi məşğələ tipləri düşmüşdür ki, onlar təsnifatlarda təlimin köməkçi sinifdən xaric təşkili formaları hesab olunurdular, lakin bu cür dərslərin daima keçirilməsi səmərəsizdir.

Şagirdlərin evlə müstəqil işi məktəbdənkənar əsas və stabil məşğələ motivlərindəndir. Bu iş növü təlim prosesinin tərkib hissəsidir. Onun başlıca məqsədi şagirdlərin dərslərdə aldıqları bilik və bacarıqları genişləndirmək, dərinləşdirmək, unutmanın qarşısını almaq və həm də onların fərdi meyllərini, istedad və qabiliyyətlərini inkişaf etdirməkdir. Müstəqil ev-işi tədris proqramlarının tələblərini, həmçinin məktəblilərin maraq və tələbatlarını, onların inkişaf səviyyəsini nəzərə almaqla qurulur. Sinifdən xaric müstəqil iş şagirdlərin müstəqilliyinə, şüurluluğuna, fəallığına və təşəbbüskarlığına istinad edir, düzgün təşkil edilmiş sinifdən xaric fəaliyyət şagirdlərin inkişafında sinifdəki fəal işdən heç də az əhəmiyyət kəsb etmir.

Şagirdlərin evdə müstəqil işi aşağıdakı didaktik funksiyaları yerinə yetirir:

1)Dərsdə əldə olunmuş bilik və bacarıqları möhkəmləndirmək;

2)Sinifdə keçirilmiş tədris materialını genişləndirmək və dərinləşdirmək;

3)Çalışmaları müstəqil yerinə yetirmək üçün bacarıq və vərdişləri formalaşdırmaq;

4)Proqram materialı çərçivəsində fərdi tapşırıqları yerinə yetirmək yolu ilə təfəkkürün müstəqilliyini inkişaf etdirmək;

5)Fərdi müşahidələr və təcrübələr aparmaq, dərslərdə yeni mövzuları öyrənmək üçün material toplamaq və tədris vəsaitləri hazırlamaq (təbiət nümunələri, şəkillər, qəzet və jurnallardan kəsilib götürülmüş materiallar və statistik materiallar əsasında).

Son illərdə şagirdlərin evdə müstəqil işinin roluna və funksiyalarına yenidən baxmaq təşəbbüsləri olmuşdur. Xüsusilə, ibtidai siniflərdə ev tapşırıqları vermədən işləmək fikri irəli sürülmüşdür. Çox əsrlik praktika və pedaqoji dəyərlər sübut edir ki, dərsdə əldə edilən biliklər evdə təkrar olunmayanda onlar yaddan çıxır. Evdə müstəqil işdən istifadə təlimin keyfiyyətinə də müsbət təsir göstərir. Müəllim ev tapşırıqlarından imtina etməməli, bu işə bacarıqla rəhbərlik edərək, onu optimallaşdırmağa çalışmalıdır. Məktəblilərin maksimum yük normasına əməl etmək, onların ev yükünü diqqətlə diaqnostlaşdırmaq, proqnozlaşdırmaq və planlaşdırmaq lazımdır.

Pedaqoji texnologiya dedikdə qabaqcadan verilmiş xarakteristikalar üzrə kompüter təlimi üçün işlənib hazırlanmış optimal didaktik proseslər başa düşülür. Bundan başqa praktiki planda pedaqoji texnologiya müəllimin hər hansı bir texnoloji cəhətdən işlənib hazırlanmış metodlar və priyomlar sistemini, nəhayət, tərbiyə işinin metodikasını və metodlarını da ifadə edə bilər.

Texnologiyanın köməyi ilə həll olunan başlıca problem təlim prosesinin idarə olunmasıdır. Ənənəvi qeyri-texnologiji təlim metodikalarının nöqsanları vardır. Qeyri-müəyyənlik öyrənmə əməliyyatlarının az idarə olunması, mənimsəmənin əməliyyatlarının az idarə olunması, mənimsəmənin yoxlanılmasının subyektiv və epizodik xarakter daşıması buna misal ola bilər.

Ənənəvi yanaşmada müəllim teoremi öyrətmək şeri təhlil etmək, kvadrat tənlikləri həll etmək və s. məqsədləri qoyur. Bu məqsədlər şagirdin fəaliyyətini təsvir etmir. Texnologiyaya görə təlimin fikirlərini, hisslərini, davranışını dəyişməkdir. Texnologiyanın vəzifəsi təlimedici

sistemin bütün elementlərini öyrənmək və təlim prosesini layihələşdirməkdir. Bunun sayəsində məktəbin təhsil-tərbiyə işi az qaydaya salınmış hərəkətlərin məcmusundan məqsədyönlü prosesə çevrilir. Bunun üçün təlim texnologiyasının aşağıdakı spesifik əlamətlərini bilmək lazımdır.

1)Qarşıda qoyulmuş məqsədlər;

2)Bütün tədris əməliyyatlarının təlim məqsədlərinə nail olmağı təmin etməsi;

3)Müntəzəm əks əlaqə;

4)Öyrədici dövrənin təkrar olunması;

Bununla əlaqədar olaraq təlim texnologiyası təlim layihəsinin əsas komponentlərini ayırır;

1)Təlim məqsədlərinin qoyuluşu;

2)Tədris materiallarının hazırlanması və öyrədici əməliyyatların işlənib hazırlanması;

3)Təlimin nəticələrinin cari və yekun qiymətləndirilməsi və korreksiyası üçün materiallarının işlənib hazırlanması;

Təlim texnologiyasının əsas əlamətlərindən biri öyrədici dövrənin təkrar olunmaq imkanına malik olmasıdır, yəni hər bir müəllim onu təkrar edə bilər.

Təlim texnologiyasının əsas əlamətlərindən biri öyrədici dövrənin təkrar olunmaq imkanına malik olmasıdır, yəni hər bir müəllim onu təkrar edə bilər. Təlim dövrəsində aşağıdakı məqamlar vardır:

1)Məqsədlərin qoyulması;

2)Öyrənmə səviyyəsinin ilkin qiymətləndirilməsi;

3)Əks əlaqənin nəticələrinə əsasən təlim əməliyyatlarının korrektirovkası;

4)Nəticələrin yekun qiymətləndirilməsi və yeni məqsədlərin qoyulması;

Təlim texnologiyasının vəzifələrindən biri təlimin bütün növ məqsəd və səviyyələri üçün cari və yekun standart tapşırıqlar yaratmaqdır. Əslində, texnoloji təlim üçün testlər fondu, bütün fənlər üzrə yoxlayıcı komplekslər lazımdır. Test nəzarətinin xüsusiyyəti onun meyarlığındadır. Məqsədə nail olunma dərəcəsi meyalarla ölçülür.

Yuxarıda sadalananlar təlim texnologiyasının müsbət cəhətlərinə aiddir, lakin onun nöqsanları da vardır. Onlara reproduktiv təlim tipinə meyl, tədris fəaliyyətinin motivasiyasının işlənilməməsi, şəxsiyyətin daxili aləminə etinasızlıq aiddir.

Təlim texnologiyası «praktik» didaktikanın inkişafına, yəni öyrədici sistemlərin, hazır sənədlər və vasitələr paketlərinin, didaktik və texniki paketlərin yaradılmasına təkan vermişdir. Sənədlər paketinə aşağıdakılar daxil ola bilər:

1)Müəyyən fənn üzrə təlimin məqsədi və məzmunu;

2)Öyrədici əməliyyatlar;

3)Təlimin bütün mərhələlərində veriləcək test tapşırıqlar;

Müasir təlim texnologiyaları kompüterdən istifadəyə meyl göstərdiyindən sənəd paketlərin əsasını proqram materialı təşkil edir. Belə ki, təlim prosesini həyata keçirmək disketlərdən istifadə olunur. Təlim texnologiyası təhsildə informasiya texnologiyalarının inkişafı prosesini də stimullaşdırır.

Ümumiyyətlə, təlimin bütövlükdə texnologiyası məktəbə fayda verməz. Texnologizasiya təlim prosesinin ayrı-ayrı sahələrində ancaq onun idarə olunması qaydalarından biridir. Praktiki mənada pedaqoji texnologiya dedikdə həm də qarşıya qoyulmuş məqsədə uyğun olaraq bilik, bacarıq və vərdiş, münasibətləri formalaşdırmaq və onlara nəzarət həyata keçirmək üçün əməliyyatlar komplekti başa düşülür.

Pedaqoji texnologiyada müəllimin fəaliyyətinin aşağıdakı funksional komponentlərini ayırmaq olar:

1)Qnostik (idrak) komponet;

2)Layihələşdirici komponent;

3)Konstruktiv komponent;

4)Təşkilatçılıq komponenti;

5)Kommunikativ (ünsiyyət) komponent.

Beləliklə, müəllimin təlim texnologiyalarını aşağıdakı əməliyyatlar təşkil edir:

1)Bilikləri toplamaq üçün əməliyyatlar;

2)Təlimin və təhsil-tərbiyənin prosesini təşkil etmək üçün əməliyyatlar;

3)Bilikləri şagirdlərə ötürmək üçün əməliyyatlar;

Qnostik komponentə daxildir; təlim, təhsil-tərbiyənin məqsədləri, tədris etdiyi fənnin məzmunu barədə binologiyaların öyrənmək, öyrədici və tərbiyəedici məşğələlər keçirmək və s.

Layihələşdirici komponent uzaq məqsədləri, əməliyyatları, vasitələri özündə birləşdirir. Layihələşdirmə cinsi fərqləri nəzərə almaqla həyata keçirməlidir.

Konstruktiv komponent qarşıdakı məşğələni hazırlamaq üçün əməliyyatlar komplektini nəzərdə tutur.

Kommunkativ komponent şagirdlərə verbal və qeyri-verbal qarşılıqlı fəaliyyət üçün əməliyyatlar komplektini özündə birləşdirir.

Təşkilatçılıq komponenti məşğələləri hazırlamaq və keçirmək üçün əməliyyatlar komplektini nəzərdə tutur. Son iki komponent bir-birinə sıx əlaqıdardırlar.

Texnologiyaların müxtəlif təsnifatları vardır. Onlardan ikisi pedaqoji və psixoloji texnologiyalar xüsusilə qeyd edilməlidir.

Pedaqoji texnologiyalarda əməliyyatlar və hərəkətlər fiziki cəhətdən hiss olunur.

Psixoloji texnologiyalar gizli xarakter daşıyır. Bu konkret insanın psixikasında baş verən əməliyyatlar və hərəkətlərdir. Amma pedaqoji və psixoloji texnologiyalar arasında dəqiq sərhəddi müəyyənləşdirmək olduqca çətindir.

Pedaqoji texnologiyalar aşağıdakı kimi təsnif oluna bilər:

1)Təlim texnologiyası;

2)Tərbiyə texnologiyası;

3)İnkişaf texnologiyası;

4)Diaqnostika texnologiyası;

Təlim texnologiyası dedikdə bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar komplekti başa düşülür. Tərbiyə texnologiyası dedikdə nisbi, sabit və müntəzəm olaraq ümumiləşən münasibətlərin məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar komplekti başa düşülür.

İnkişaf texnologiyası ilə sıx əlaqədardır. Psixi inkişaf dedikdə, əqli bacarıqların formalaşdırılması, insan psixikasında hər hansı əməliyyatların çoxalması başa düşülür. Beləliklə, bacarıqların formalaşması harada baş verirsə, orada da psixi inkişaf müşahidə olunur.

Fiziki inkişaf zamanı fiziki bacarıqlar nəticə kimi özünü göstərir. dmaqnostika texnologiyası-pedaqoqların və ya psixoloqların uşağın məktəbə hazırlığını diaqnostlaşdırmaqdır.

Pedaqoji texnologiyaların psixi materialı vardır. Məsələn: təlim prosesində predmetlərin və hadisələrin psixi obrazları biliklərin psixi materialı hesab olunur. On iki növ analizatorun beyinə gətirdiyi informasiya orada on iki növ obraz yaradır. Deməli, biliklər şagirdlərin psixikasında formalaşmış obrazlardır.

Əgər biliklərin psixi materialı obyektlərin və ya hadisələrin obrazlarıdırsa, inkişafın psixi proseslərdə həyata keçirilir. Şagirdlərin

psixi inkişafı psixi proseslərdə yeni psixi əməliyyatların formalaşdırılmasını nəzərdə tutur.

Münasibətlər təhsil-tərbiyənin psixi materialını təşkil edir. Münasibətlərin tərbiyə prosesinin materialı olması üçün onlar aşağıdakı göstəricilər üzrə ölçülməlidirlər;

Həcminə görə, anlaşılan olmasına görə; sabit və iüntəzəm olmasına görə; oyadıcı qüvvə olmasına görə.

Münasibətlər insanın davranışında təzahür edəndə, o idarə olunanda tərbiyə prosesinin nəticəsi hesab olunur.

Pedaqoji texnologiyaların yaradılması və tətbiqi üzrə spesifik prinsipləri müəyyənləşdirmək və onların pedaqoji-psixoloji təhlilini vermək olduqca vacibdir. Bu prinsiplər də əsas təlim prinsipləri üçün sistemaltı, köməkçi funksiyaları təşkil və tətbiq edərkən rəhbər tutulan əsas müddəalardır. Pedaqoji ədəbiyyatda müxtəlif spesifik prinsiplər verilmişdir. Aşağıda ən vacib prinsiplər təhlil olunur:

1.Tərbiyəedici təlim prinsipi. Hər hansı pedaqoji texnologiyaların strateji məqsədləri şəxsiyyət xarakteristikalarını formalaşdırmaq olmalıdır. Deməli, burada münasibətlər tərbiyəedici təlimin psixi materialı hesab olunur. Burada üç qrup münasibətləri fərqləndirmək olar:

1)Qanuna tabelik münasibətləri;

2)Əməkdaşlıq münasibətləri;

3)«Mən»-konsepsiyası.

Təlim prosesi şagirdlərin psixikasına təsir edən xarici konstruksiyadır. Bu proses müəllimin, şagirdlərin, didaktik materialın təsirindən ibarətdir.

<u>2.İnkişafedici təlim prinsipi:</u>

Pedaqoji texnologiyaları təşkil edən zaman tərbiyəedici səmərəni nəzərə almaqla yanaşı, onun inkişafedici tərəfini də layihələşdirmək və həyata keçirmək yaxşı olar. Şagirdin psixi əməliyyatlarında artım hiss olunmalıdır. Emosional və intellektual sferanın ahəngdar inkişafını təmin etmək lazımdır. intellektual sferanın emosional sferanın sıxışdırılması insanda soyuq münasibətlərin yaranmasına, insanlara sevinc bəxş etmək və sevincə şərik olmaq bacarıqlarının olmasına gətirib çıxara bilər.

<u>3.Təlimdə müvəffəqiyyət qazanmaq prinsipi.</u>

Müvəffəqiyyət qazanmaqdan ötrü situasiya yaratmaq uşağı daha böyük nəticələrə nail olmağa stimullaşdırır. Uşağın keçmişini öyrənmək üçün böyük əmək sərf etmək lazım gəlir. A.S.Makarenko uşağı koloniyada qəbul edəndə onun keçmişini öyrənməyə tələsmirdi. O, hər bir şagird üçün səmərəli olan texnologiya işləyib hazırlamışdı. Bu, müvəffəqiyyət qazanmaq üçün situasiya yaratmaqdan ibarət idi.

Hamı üçün, o cümlədən şagird üçün psixi enerji mənbəyini yemək, istirahət, yuxu, nəfəs alma, fiziki hərəkətlər təşkil edir. Əgər bir uşaqda enerji lazımi həcmdə deyilsə, psixikanın qalan sferaları həmin çatışmazlığı bərpa edə bilmir. Əgər enerji yoxsa, informasiyanın mənimsənilməsi prosesi effektli olmur. Ona görə də uşaqda enerji ehtiyatının tükənməsinə yol vermək olmaz.

4.Bütün şagirdlərlə əks əlaqə prinsipi:

Mühüm vəzifələrdən biri hər bir dərsdə bütün şagirdlərə öz müvəffəqiyyətləri barədə məlumat vermək imkanı yaratmaqdır. Başqa sözlə desək, hər bir şagird materialının mühüm bilikləri üzrə yoxlanılmalıdır.

Bütün şagirdlərlə əks əlaqədə prinsipi şagirdi hər dərsdə zaxır gəlməyə stimullaşdırır. Seçmə yolu ilə sorğu aparanda şagirdlər oyun qaydalarını tez mənimsəyir və dərsə hərdən bir hazırlaşırlar. Beləliklə, sinifdə tənbəllər formalaşır. Şagird belə fikirləşir; əgər məndən işinin nəticələrini soruşmurlarsa, hər dəfə hazırlaşmağın nə əhəmiyyəti var. şagirdlər məktəbə gələndə bir neçə həftə sonra şüurlu və ya şüursuz surətdə bu nəticəyə gəlirlər.

Bu prinsipi lazımi şərait yaradıldığı halda həyata keçirmək olar. Hər şenydən əvvəl, ev tapşırıqlar uşaqlara gücünə müvafiq olmalıdır. Tapşırıqları verən zaman başqa da nəzərə alınmalıdır. Çox təəssüf ki, məktəbdə ev tapşırıqlarının dəqiq həcmi yoxdur. Bu işdə müəllimlər müxtəlif cür hərəkət edirlər.

Tədris materialı ilk dəfə tanış olandan sonra onu bir neçə dəfə təkrar etmək olar.

Hər iki-üç dərsdən bir keçilmiş materiala qayıtmaq onu hərəkət etmək lazımdır. burada sual yarana bilər; bəs vaxtı haradan tapaq, axı çox zaman bu proqramda nəzərdə tutulmur. Problemi həll etmək olar. Başlıca diqqət əsas fikirlərə «siqnallara» verilərsə, onda vaxt ehtiyatı yaranır. İl ərzində keçirilmiş materiala dövrü olaraq qayıtmaq və əsas fikirləri təkrar etmək lazımdır.

Dərs ilində ötən tədris ilində keçilən materialınq təkrarı ilə başlamaq lazımdır. Yay ərzində çox şey şagirdlərin yadından çıxır. Normal və sağlam psixika belə qurulubdur. Təkrar etmədiyimiz şey şüurdan çıxıb şüuraltına keçir və yaddan çıxır. Ona görə də birlikdə aktuallaşdırmaq üçün tədris ilinin əvvəlində onları təkrar etmək lazımdır.

Optimal psixi gərginlik həm şagirdlər, həm də müəllimlər üçün zəruridir. Şagirdlər həm də həddən artıq yükləmək, həm də az yükləmək lazımdır. Şagird az psixi gərginlik şəraitində inkişaf etmir. Bu tələbi müəllimlərə də aid etmək olar. Əgər müəllimlər dərsdə hər şeyi özləri etmək istəyirlərsə, bu müəllimlərin psixi cəhətdən yüklənməsinə gətirib çıxarır. Odur ki, şagirdlərə daha çox səlahiyyətlər vermək yaxşı olardı. Onların tədris prosesinin dairəsi olunmasına cəlb etməyə imkan verən bir çox texnologiyalar vardır.

Bu prinsip dərsdə şagirdləri müxtəlif növ fəaliyyətə cəlb etməyi nəzərdə tutur. Bu məqsədlə qarşılıqlı sorğu keçirilir, yaranan problemlər, cavablardan kəm-kəsirlər aradan qaldırılır.

Burda prinsip belədir: şagirdlərin görə biləcəkləri işi müəllim görməlidir. Bu prinsip müəllimi artıq yükdən azad etməyə imkan verməyə çalışırlar. Şagird real fəaliyyətə cəlb etmək onu nəinki inkişaf etdirir, həm də tərbiyə edir. tədris prosesində real fəaliyyətində uğur qazanmaq stiuasiyanın yaratmaqla təlimin tərbiyəedici, inkişafedici məqsədlərinə müvəffəqiyyətlə nail olunur.

Əgər uşaq çalışmanı yerinə yetirə bilmirsə, onda həmin çalışmanı uşağın imkanları səviyyəsinə endirmək lazımdır. Əgər şagird özünün fəaliyyətindəki qüsuru düzəldə bilmirsə, ona irad tutmağa ehtiyac yoxdur. Çünki bu irad onun inkişafına heç bir təsir göstərməyəcəkdir. Əgər göstərmiş olsa da bu neqativ tərəfndən özünü təzahür etdirəcəkdir. İş prinsipləri, məqsədləri, texnologiyaları şagirdlərə zorla qəbul etdirilməməlidir. Tədris prosesini təkmilləşdirmək üçün müzakirələr, beyin hücumları keçirmək yaxşı olar. Təlim prosesinin texnologiyası müəllimlərin və şagirdlərin birgə fəaliyyətinin məhsulu olmalıdır. Bir şagirdin problemi hamının problemi hesab olunur. Amerika məktəblərində aparılan sorğunun nəticələri göstərir ki, forma şagirdlərin xoşuna gəlir. Onlar qayğı hiss edir, müəllimlərin öz nailiyyətləri üçün böyük məsuliyyət daşıdığını görürlər. Pedaqoji texnologiyaların təhlili məktəb müəllimlərinə və psixoloqlarına kömək etməlidir. Təlim prosesində ən səmərəli yol bu və ya digər situasiya üçün əlverişli olan pedaqoji texnologiyanı tətbiq etməkdir.

Aşağıda bəzi pedaqoji texnologiyalarını təhlili verilir:

1.«Fikirlərin hücumu» Məqsədlər:

1)Şagirdlərin yaradıcı fikirlərini birləşdirməklə aləmi və ya təlim problemini həll etmək «kollektiv beyin» yaratmaq.

2)Əməkdaşlıq etmək bacarıqların qanuna tabelik vərdişlərini tərbiyə etmək;

3)Şagirdlərin yaradıcılığını inkişaf etdirmək;

Bu texnologiya məktəbdə sorğu zamanı, yeni materialı öyrənəndə, keçilmiş materialı təkrar edəndə və ümumiləşdiriləndə, problemləri həll edəndə, sinfin planlarını tərtib edəndə və s. hallarda tətbiq edilir. Bundan bütün fənlərin tədrisində istifadə etmək olar. Onun ardıcıllığı, gedişi belədir:

1.Şagirdlərə mövzu, məqsəd bildirilir v onlarda maraq yaradılır.

2.Əməkdaşlığın ümumi qaydaları bildirilir.

3.Qiymətləndirmə meyarları bildirilir.

4.Elmi ekspertlər və katib təyin olunur (və ya seçilir).

5.Müəllim və ya başqa aparıcı ilkin situasiyanı şərh edir.

Uşaqların rəyi öyrənilir, təkliflər öyrənilir. Hamısı qeydə alınır real və qeyri-real. Fikirlər söylənilir. Katiblər hər şeyi yazı taxtasına yazırlar. Müəllimin və aparıcının davranışı xeyirxah olmalı, tənqidə yol verilməməlidir.

6.Başlanğıc informasiya ilə tanış olunur. Şagirdlər onu dinləyir, əgər nə isə aydın deyilsə, sual verib dəqiqləşdirirlər.

7.Əlavə informasiya verilir. Müəllim əgər lazım gələrsə, son nəticələri bir daha qeyd edir.

8.Fikirlərin hücumu başlanır. Hər bir şagird qısa işgüzar təkliflərlə sərbəst formada çıxış edir. Hər bir təklif qısa formada lövhədə yazılır.

Ekspertlər fikirləri qısa ifadə etməyə kömək göstərir, katiblər isə yazırlar. Ekspertlər, katiblər fikirlərin hücumunu müntəzəm olaraq müdafiə edirlər. Dinləyicilərin təkliflərinə heç kəs qiymətləndirmir, təhlil etmir, necə deyilirsə, yazı taxtasına elə da yazılır. Hücumun müddəti 45 dəqiqədən çox olmur.

9.Şagirdlərin fəallığı sönür, təkliflər gəlmir, fikirlərin hücumu başa çatır.

10.Ekspertlər, fikirlərin hücumunu təhlil edirlər, növbəti məşğələdə nəticələr bildirirlər. Nəticələri insenerovka qurtaran kimi də bildirmək olar.

11.Müəllim və ya aparıcı yekunlaşdırır və ümummiləşdirmələr aparır.

Tədris prosesində fikirlərin hücumu texnologiyası az tətbiq olunur, çünki bu çətin texnologiyalardır. Bu texnologiya danışmaq bacarığının, emosiyaların, şagirdlərin müsbət «Mən» konsepsiyasının, əməkdaşlıq etmək bacarığının, qanuna tabe olmaq bacarığının inkişafına müsbət təsir edir. Fikirlərin hücumunda müəllimin davranışından çox şey asılıdır. Əgər o, şagirdlərin fəaliyyətinə neqativ qiymət verərsə, onda bu texnologiyaların effektini heçə endirirlər.

II-Binar dərs, məqsədlər;

1)Fənlər üzrə bilikləri transformasiya səviyyəsində öyrənmək;

2)Müəllimlərin əməkdaşlığını inkişaf etdirmək;

3)Şagirdlərdə fənlərin bir-birilə bağlılığı, əlaqəsi, dünyanın tamlığı barədə əqidələri formalaşdırır.

Binar dərsin keçirilməsində bir neçə müəllim iştirak edir. Bu texnologiya daha çox mühazirələri oxuyan zamanı istifadə olunur. Mühazirələri iki ayır-ayrı fənn müəllimi oxuya bilər. Məsələn, əvvəlcə fizika müəllimi ümumi məsələləri izah edir, sonra isə biologiya müəllimi həmin material əsasında nəfəsalma sisteminin işlənməsini göstərir.

Bu texnologiyadan seminar məşğələlərində və müsahibəni keçirəndə də istifadə etmək olar. Bu texnologiya müəllimlərdən hazırlıq tələb edir. O, çox vaxt apara bilər.

III-Qarşılıqlı nəzarət, məqsədlər:

1)Şagirdlərin biliyini yoxlamaq;

2)Hər bir şagirdə öz müvəffəqiyyətləri barədə yoldaşlarına məlumat vermək imkanı yaratmaq;

3)Zəif şagirdlərin güclü şagirdlər qarşısında olan inamsızlığını aradan qaldırmaq;

4)Şagirdlərin nitqini inkişaf etdirmək;

5)Sorğunu intensivləşdirmək;

6)«Mən» konsepsiyasını tərbiyə etmək;

Qarşılıqlı nəzarət müxtəlif yaşlı şagirdlərə keçirilə bilər. Sorğunun bu növünü tətbiq etməzdən qabaq cavablara qiymət vermək bacarığını inkişaf etdirmək üçün şagirdlərlə hazırlıq işi aparılır. Bu zaman yaxşı olar ki, birinci mərhələdə şagirdlər yalnız müvəffəqiyyətə diqqət versinlər. Cavabın düzgünlüyü, tamlığı, fikrin dəqiqliyi əsas meyarlar kimi götürülür. Qarşılıqlı nəzarət aşağıdakı kimi aparılır.

1.Müəllim müəyyən mövzu və məsələləri üzrə qarşılıqlı yoxlama aparılacağını xəbər verir. Sinif müəllimlərə və şagirdlərə bölünür. Bir parta arxasında oturalar müxtəlif rollarda çıxış edirlər.

2.«Şagirdlər» öz «müəllimlərinə» cavab verirlər. Başqalarına mane olmamaq üçün cavab verənlər astadan danışmalıdır. «Şagirdlər» cavab verəndən sonra qiymət verilir. Qiymətlər yazılı da ola bilər. Bu məqsədlə fərd uçot vərəqi açmaq lazımdır. Qiymət verərkən sinifdə münaqişəli vəziyyətin yaranmasına yol verilməlidir.

3.Şagirdlər rollarını dəyişə öilərlər. Şagird rolunda edənlər müəllim rolunda çıxış edirlər. Şagirdlərin yerini də dəyişmək olar. Bu cütlər arasında gərginlik yaranan zaman edilir. Hər dərsdə cütlərin yerini dəyişmək yaxşı olar. Bu ünsiyyət dairəsini genişləndirməyə kömək edir.

Qarşılıqlı nəzarət korreksiya funksiyasını yerinə yetirir. Bu güclü şagirddən zəif şagird soruşan zaman baş verir. Müəllimlər rolunda ən zəif şagirdlər də çıxış etməlidirlər. Bu onlara güclü təsir edir.

Bu texnologiya müəllim tərəfindən yaxşı hazırlanan zaman az vaxt tələb edir. Bunu yenilikçi pedaqoqlar tətbiq edirlər. Bu sorğu növü praktiki olaraq hər dərsdə tətbiq oluna bilər.

Qarşılıqlı nəzarətdən həm nəzəri materialı yoxlayan zaman, həm də misalları həll edən zaman istifadə etmək olar. Dərsdə qarşılıqlı nəzarətlə bərabər sorğunun aşağıdakı başqa növlərini də tətbiq etmək lazımdır. Yazı taxtası yanında şifahi cavab vermək, mətndəki əsas fikirləri danışmaq, özünüqiymətləndirmək və s. buna misal ola bilər.

Əgər müəllim sinfi idarə edə, intizamı yarada bilmirsə, qarşılıqlı nəzarətdən istifadə etmək olmaz. İntizamsızlıq şəraitində şagirdlər başqa işlərlə məşğul ola bilərlər. Əgər texnologiya düzgün təşkil edilərsə, onda qayda-qanunu təmin etmək asan olar.

IV.Qarşılıqlı imla. Məqsədlər:

1)Şagirdlərə müxtəlif fənlər üzrə savadlı yazmaq bacarıqlarını öyrətmək;

2)Çalışmalar yerinə yetirən zamanı əməkdaşlıq bacarıqlarını formalaşdırmaq;

3)Fənnə marağı inkişaf etdirmək;

4)Müəllimi dəftər yoxlamaq işindən azad etmək;

Qarşılıqlı imla ibtidai siniflərdə savad təlimindən sonra və bəzi dəyişikliklərə yuxarı siniflərdə istifadə oluna bilər. O, aşağıdakı kimi keçirilir.

1.Hazırlıq dövrü. İmlalar üçün müxtəlif mətnlər hazırlanır. Köhnə qəzet və jurnallardan 4-12 sətir həcmində mətntlər kəsib götürürlər. Mətnlərin məzmunu şagirdlər üçün maraqlı olmalıdır. Onların çətinliyi sinfin hazırlıq səviyyəsindən asılıdır. İbtidai siniflərdə imla qısa yuxarı

siniflərdə isə böyük həcmdə olur. Hazırlanmış mətnlər kartona yapışdırsa yaxşı olar. Bu işi həm müəllim, həm də şagirdlər görə bilər.

2.Şagirdlərin dərsdə işi;

Hər bir şagird imla mətni olan bir kartoçkanı götürür və onu səssiz oxuyur.

-müəllim bütün şagirdləri cütlərə ayırır;

-hər bir cütdə şagirdlərdən biri öz mətninin birinci cümləsini hündürdən oxuyur, ikinci şagird onu axıra qədər dinləyir;

-dinləyən şagirdə cümlə diktə olunur və o, cümləni dəftərinə yazır. Yazan şagirdə mətnə baxmaq olmaz. Beləliklə. İkinci, üçüncü və digər cümlələr mətnin axırına qədər oxunur;

-sonrakı mərhələdə rollar dəyişir. Əvvəl yazan şagird öz mətnini o biri şagirdə diktə edir, o isə yazır;

-İmlalar qurtarandan sonra şagirdlər öz dəftərlərini bir-birinə verirlər və kartoçkasız yazıları yoxlayırlar. Səhvlər yaşıl pasta ilə düzəldilir;

-sonrakı mərhələdə şagirdlər müstəqil surətdə kartoçkalar üzrə öz yoldaşlarının imlalarını yoxlayırlar. İndi isə səhvlər qırmızı pasta ilə düzəldilir;

-Sonra şagirdlər imlaları birgə yoxlayırlar. Səhv buraxan şagird o biri şagirdin nəzarəti altında şifahi təhlil aparır, ikinci şagird isə ona kömək edir;

-Hər bir şagird dəftərində səhvlərinin təhlilini yazır;

-Şagirdlər bir-birinin dəftərini götürür, imlalara bir daha baxır və öz qolunu çəkirlər.

Bəzi stiuasiyalarda şagirdlərə qiymət yazmağı da təklif etmək olar. Lakin bu prosesin müsbət və mənfi cəhətləri vardır; bir tərəfdən şagird qiymət yazanda onda məsuliyyət hissi yaranır, digər tərəfdən aşağı qiymət yazılanda şagirdlərdə həm yoldaşına, həm də texnologiyaya neqativ münasibət yarana bilər. Bununla da cüt-cüt işləmək üzrə iş başa çatır. Onun iştirakçıları mətnləri bir-birinə qaytarırlar. Hər bir şagird özünə işdə yeni yoldaşlar tapır. Bəzən müəllimin özü yeni cütlər təşkil edir. Bunu ancaq zəruri hallarda etmək lazımdır. Sonrakı mərhələlərdə qoşa işlər davam edir.

Bu texnologiyadan istifadə etmə nəticəsində şagirdlər mətn üzərində iki dəfə işləməli olurlar. Bir dəfə mətni diktə ilə yazan zaman, ikinci dəfə onu özü diktə edən zaman müəllim sıralar arasında gəzərək qoşa-qoşa işləyən, şagirdləri müşahidə edir, onlara necə diktə etmək,

səhvləri neçə təshih etmək barəsində məsləhətlər verir, geridə qalan şagirdlərə diqqət yetirir.

Tərəfdaşı seçmək maraqlı psixoloji andır. Bu vaxt qarşılıqlı anlaşma yaranır, statuslar və s. müəyyənləşdirilir.

İmlalar mübadiləsi və qarşılıqlı öyrədən zaman şagirdlər bir-birinin iş üsulunu, biliklərini əxz edirlər.

Bu texnologiyanı düzgün tətbiq edəndə onu riyaziyyat, fizika və digər fənlər üzrə aparmaq olar. Bu imlanın bir növü də onun şifahi formasıdır. Suallar şifahi formada müəyyənləşdirilir, yazılması izah edilir. Bu forma qısa vaxtda böyük həxmdə materiaı yoxlamağa imkan verir. Bu formanın mənfi cəhəti ondan ibarətdir ki, burada öyrənilən materialın görmə və haləki yadda saxlanması baş verir. Bu mənada şifahi qarşılıqlı yazılı imlanı əvəz edə bilməz.

Qarşılıqlı imlanı qabaqcıl müəllimlər təşkil edir, hələlik bu geniş yayılmamışdır. Ən yeni elmi-pedaqoji ədəbiyyatda çoxlu pedaqoji texnologiyanın təhlili verilir. Lakin bu texnologiyalar heç də fəal təlim metodları «İnteraktiv metodlar» deyil.  Göstərilən texnologiyanın təlim prosesində tətbiqi onun fəallaşdırıcı və öyrənmə məqsədlərinin səmərəliliyini artırır.

# TƏLİM VƏ MƏKTƏB YAŞLI UŞAQLARIN TƏLİMİNDƏ İNTERAKTİV TƏLİM METODU HAQQINDA

Hər bir proses özü-özlüyündə hansısa nəticəyə nail olmaq üçün yönəldilmiş hərəkətlərin məcmusunu özündə əks etdirir. Təlim prosesi də şagirdin gerçəkliyi dərketmə yolundakı hərəkəti ilə bağlıdır. Bu zaman uşaqda idrakı və praktik bacarıq və vərdişlər yaranır. O, inkişaf edir, formalaşır.

Təlim prosesi müəllimin fəaliyyəti ilə şagirdin fəaliyyətini özünlə birləşdirir. Müəllimin fəaliyyəti öyrətmə, şagirdin fəaliyyəti isə öyrənmə adlanır. Məhz bu iki fəaliyyətin qarşılıqlı əlaqəsi nəticəsində gerçəkliyin dərk olunması prosesi həyata keçir, şagird bilik, bacarıq və vərdişlər sisteminə yiyələnir, onda mənəvi-əxlaqi keyfiyyətlər formalaşır.

Təlim prosesində gerçəkliyin şagird tərəfindən dərk olunması subyektiv xarakter daşıyır. Belə ki, hər bir uşaq yeni biliyi özünün inkişaf və bilik səviyyəsinə, idrak imkanlarına uyğun şəkildə dərk edir. Təlim prosesi çox qədim bir prosesdir. Hələ quldarlıq dövründən təlim var idi. Bu gün də təlim prosesi davam edir. Təbiidir ki, hər bir cəmiyyətdə təlim özünəməxsusluğu var və təlim prosesi inkişaf edir, yeni forma və məzmun daşıyır. Bu gün təlimə verilən tələblər cəmiyyətin inkişafına uyğun olaraq mürəkkəbləşmiş, günün tələblərinə uyğun olmuşdur.

Yeni islahat proqramının qarşıya qoyduğu mühüm vəzifələr təhsil işçilərində yeni pedaqoji təfəkkürün formalaşdırılmasına, təhsilin forma və məzmunca yeniləşməsini, təlimin mütərəqqi prinsip və metodlarından istifadə olunmasını tələb edir. Hazırda təlim-tərbiyə prosesi, təlim-tərbiyə prosesi, təlim metodları kiçik yaşlı uşaqların müstəqil fəaliyyətin tərbiyəçi və uşaqların biri-biri ilə əməkdaşlığını uşaqlarda təhlil etmək, düşünmək, sərbəst rəy söyləmək, yoldaşlarını qiymətləndirmək, əməkdaşlıq etmək, başqalarını dinləmək, öz fikirlərini dəqiq izah etmək bacarığını, danışıq qabiliyyətini tənqid təfəkkürünü inkişaf dinamikası birbaşa təhsilin vəziyyətindən və səviyyəsindən qazanılmış biliklərə tətbiqindən asılıdır. Bu gün dünya təcrübəsində yeni pedaqoji texnologiyalardan, interaktiv-təlim metodlarından geniş istifadə olunur. «İnteraktiv» termini «dialoq» qarşılıqlı əlaqədə fəaliyyət göstərmək kimi başa düşülür və düşünülməlidir. «Rollu oyunlar», «Cütlər və qruplar», «Əqli hücum», «Layihələrin hazırlanması»,

«işgüzar səs-küy», «söz assosiasiyaları», ümumi diskusiya, suallar, müşahidə və s. belə metodlardı. Bu metodlardan istifadə edərək kiçik yaşlı uşaqlarda keçirilən məşğələlərin qurulması aktual problemlər və bu problemin inkişafı təlim və tərbiyə prosesi sahəsində geniş imkanlar əldə etməyə imkan verir.

İnteraktiv təlim metodu yeni metoddur. Ancaq mənəvi deyə bilərəm ki, həm də bu metodun kökləri keçmişə gedib çıxır. Bu metodun priyomlarından, tərzlərindən əvvəllər də təlim prosesində istifadə olunurdu. Lakin bu gün bu metod yeni formada təzahür edir.

Dünya ölkələrində təlimə müxtəlif növ yanaşmalar müşahidə olunur ki, biz də dünyadan təcrid olunmamışıq və istər-istəməz həmin təlim metodlarından istifadə edir, bəhrələnirik. Bu baxımdan təlimə günün tələbləri baxımından yanaşaraq, müasir təlim prosesinin ən aktual metodlarından biri olan interaktiv təlim metodundan istifadə edirik.

İnteraktiv təlim metodu nədir? Biz interaktiv təlim metoddan nə cür istifadə edirik? Suallarına cavab verərkən deməliyik ki, əslində buna sadəcə olaraq təhsilə müxtəlif yanaşmalar və metodun məğzidir və bu mntodun kiçik yaşlı uşaqların təlimindən başlayaraq tətbiq olunması məqsədyönlüdür. Çünki bu metoda bilik, bacarıq verməklə yanaşı təfəkkür prosesinin inkişafına bilavasitə müsbət təsir göstərir, fəallaşdırır. Ümumiyyətlə, idrak fəaliyyətinə çox güclü təsir göstərən interaktiv təlim metodu uşaqların məktəbə hazırlanmasında onların hərtərəfli inkişafını təmin edir. Bu metodun tətbiqi üçün Avropa standartlarına uyğun gələn müxtəlif proqramlardan istifadə zəruridir. Kiçik yaşlı uşaqlar üçün tərtib olunan proqramlar çoxdur. lakin hələ ki, bunlardan biri haqqında «Addım-addım» proqramını nəzərdən keçirək.

Əsasən proqram bir neçə bölmələrə bölünmüşdür. Lakin proqramı nəzərdən keçirib tanış olduqdan sonra belə bir qənaətə gəldim ki, təlim-təhsil prosesində elə incəliklər vardır ki, biz həmin proqramı olduğu kimi uşaqlara öyrətsək təhsildə çox böyük nailiyyətlərlə yanaşı, həm də çox böyük səhvlərə yol vermiş olarıq. Doğrudur ki, bu metodu dünyanın ən qabaqcıl ölkələri məqbul saymış və ondan istifadə etmişlər. Ancaq təcrübə müddətində əldə olunan nəticələr göstərir ki, bir proqramı olduğu şəkildə kor-koranə istifadəyə vermək də düzgün deyildir. Biz mütləq öz uşaqlarımızın fiziki, zehni inkişafı, dünyagörüşü, ailə tərbiyəsini, yaşadığı mühiti, milli adət-ənənələrimizi əsas götürərək bu metodu özümüzünküləşdirərək ondan istifadə etməyi bacarmalıyıq. Məhz bu zaman bizim təhsilimizdə istədiyimiz nailiyyətləri əldə edə bilərik.

Proqramda əsasən:
Addım-Addım proqramlarının standartları başlığı altında
Ümumi icmal
Təsvir
Müşahidə forması
Müəllimlər üçün standartlar başlığı altında
Ümumi icmal
Təsvir
Müşahidə forması və s. öz yerini tutmuşlar.

MƏKTƏB YAŞLI UŞAQLARIN TƏLİM PROSESİNDƏ İNTERAKTİV TƏLİM PROQRAMININ MÖVZUSU HAQQINDA

«Addım-Addım» proqramlarının standartları:
1.Müəllimlər və uşaqlar arasında qarşılıqlı ünsiyyət.
2.Ailənin iştirakı.
3.Uşağa istiqamətləndirilmiş proqramın planlaşdırılması.
4.Məzmunlu təlimin strategiyası.
5.Təlim mühiti.
6.Sağlamlıq və təhlükəsizlik.
Müəllimlər üçün standartlar aşağıdakı kimidir:
1.Fərdiləşmə.
2.Təlim mühiti.
3.Ailənin iştirakı
4.Məzmunlu təlimi təmin edən tədris strategiyası.
5.Planlaşdırma və qiymətləndirmə.
6.Peşəkar inkişaf.

Eləcə də proqrama əlavələr edilmişdir. Kiçik yaşlı məktəbli üçün təlim prosesi müxtəlif mərkəzlərdə keçirilir ki, bunlardan aşağıdakıları göstərmək olar.

Fəaliyyət mərkəzləri:

Hər bir məşğələdə oyun və başqa məşğuliyyət üçün müxtəlif vəsaitləri olan bir neçə fəaliyyət mərkəzi olmalıdır. Müxtəlif dəstəklərdə mərkəzdən dəst, müxtəlif ola bilər, ancaq bu dəstin özəyini adətən aşağıdakı tərkibdə olan mərkəzlər təşkil edir:

1.Sujetli –rollu oyunlar.
2.Mainipulyativ.
3.Tikinti.
4.Ədəbiyyat
5.İncəsənət.

6.Qum və su.

7.Açıq meydança.

1)Süjetli-rollu oyun mərkəzində həyatda gördüklərindən istifadə etməklə uşaqları ətraf aləmi başa düşməkdə, bu və ya başqa ictimai rolları sınamaqda onlara kömək edə bilən kostyumlar və başqa vəsaitlə olmalıdır. Bu sahə üçün əşya dəsti tərbiyəçilər tərəfindən seçilir və bunlar vaxtaşırı təzələnməlidir.

2)Manipulyativ (stolüstü oyun və oyuncaqlar) mərkəzi quraşdırma oyuncaqları, xırda hissəciklər, tikinti oyuncaqları olan yerdir. Burada vəsaitləri seçmək, uyğunlaşdırmaq, saymaq və sistemləşdirməyi öyrətməklə yanaşı şəxsi oyunlar fikirləşib tapmaqda, dili inkişaf etdirməkdə uşaqlara kömək edən oyunlar da olmalıdır. Bu mərkəzdəki məşğələlər zehni vərdişlərin, incə hərəkətlərin, gözəyarı ölçmə bacarığının inkişafına kömək edir.

3)Tikinti mərkəzləri uşaqların təxəyyülünün məhsulu olan binaları, yaşayış evi və ya forma, zoopark və s. kimi tanış tikintiləri yamsılayan konstruksiyaların inşası üçün lazım olan müxtəlif ölçü və formalı bloklarla təchiz olunmalıdır. Tikinti ilə məşğul olaraq uşaqlar çox şey əldə edə bilərlər, bu zaman onlarda əqli və riyazi bacarıqlar zənginləşir, ictimai vərdişlər yaranır, problemləri həll etmək və diqqəti cəmləşdirmək qabiliyyəti inkişaf edir, yaradıcı potensiya fəaliyyətə gətirilir. Mərkəzdə minik və yük maşınları, heyvan və insan fiqurları, təyyarələr, binaların üstünü örtmək üçün vəsaitlər, uşağın ağlına gələ biləcək hər şey gündəlik rejimin ən vacib hissələrindən biridir.

Açıq meydançada fəaliyyətin yaradıcı anı süjetli-rollu və ya digər üçün məşğələlərin hesabına güclənə bilər. Biliklərə qulluq, rəsm və rəssamlıq, qardan və gildən, torpaqdan tikinti işləri buna daxil etməklə başqa fəaliyyət növlərini də təşkil etmək olar.

Sadalanan fəaliyyət mərkəzləri Soros proqramının mərkəz xəttini təşkil edir. Bunlarda istifadə olunan vəsaitlər lazım gələrsə digərinə ötürülə bilər. Soros Proqramına görə uşağın əhatəsi dinamik olmalı və onun maraqlarına, inkişaf səviyyəsinə uyğun cürbəcür təcrübə qazanmaqda ona zəngin imkanlar verməlidir. Burada işləyən tərbiyəçilər uşaqlarda ünsiyyət və öyrətmək həvəsi oyadan şəraitin yaradılması üçün məsuliyyət daşıyırlar. Onlar həmçinin uşaqların dəyişən tələbatlarına proqramın uyğun gəlməsi üçün arası kəsilmədən müşahidələr aparılmalıdır. Fərdi və qrup dərs məşğələlərinin həftəlik planları uşaqların valideynləri ilə tərbiyəçilərin razılaşdığı xüsusi məşğələlər ətrafında cəmləşdirilməlidir. Soros Proqramı qrupuna gələn valideynlər

uşaqların hərtərəfli dəyişildiyini duymalıdırlar, göründüyü kimi bu proqramla təhsil və təlim metodları daha mürəkkəb formada təşkil edilməli və tərbiyəçidən çoxlu bilik və bacarıqla yanaşı, ixtisasının ustası olmağı dastanlar tələb edir.

3)Ədəbiyyat mərkəzində – kitablar, səsi dinləmək üçün avadanlıq və yazı ləvazimatları olmalıdır. Bu mərkəzdən bütün gün ərzində istifadə olunur. Burada uşaqlar nəinki oxuyur, eləcə də öz kitablarını hazırlamaqla məşğul olur, hadisələri danışır, bunlara uyğun teatral quruluşlar tərtib edirlər.

4)İncəsənət mərkəzi-Yeni vəsaitlərdən və təmas duyğusundan zövq ala bilmələri üçün uşaqları şəxsi yaradıcılığa həvəsləndirməlidir. Yaxşı olar ki, uşaqlar boyalar, qayçı, kağız, rəngli qələmlər, təbaşir, parça qırıqları, plastilin, gillə təmin olunsunlar. Təbii vəsaitlər, budaqlar, yarpaqlar, qum və s. əlavə etmək olar. Bu mərkəzlərdəki məşğələlər yaradıcılıq qabiliyyətlərinin oyanmasına kömək edir, verbal və qeyri verbal ünsiyyət təcrübəsi aşılayır, idrak prosesini inkişaf etdirir.

5)Qum və su mərkəzləri ya içəridə, ya da qum və su olan açıq meydançada yerləşdirilir. Bu mərkəz uşağın çox şey öyrəndiyi bir yerdir. Uşaqların burada oyun bacarığının inkişaf etdirmək imkanı olur.

Burada vəsaitlər: Gellər, qəliblər, gəlinciklər, süzgəclər, vedrələr və s. daxildir. Burada uşaqların riyazi bilikləri, yaradıcılıq qabiliyyətləri inkişaf edir.

Binadan kənarda olmaq: müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlərindən məhrum edir. Yalnız təlim metodlarının keyfiyyətcə dəyişdirilməsi, bilikləri mənimsəmə zamanı yaradıcı təfəkkürdən fəal istifadə edilməsi şəraitdə təlim böyük səmərə verə bilər. Bu tələbləri nəzərə almaqla, məhz məhsuldar, yaradıcı təfəkkürü və yeni biliklərə müstəqil yiyələnmə üsullarını özündə birləşdirən təlim metodlarına üstünlük verilməsi tamamilə təbiidir.

Bu meyarlara ən dolğun şəkildə fəal təlim cavab verir. fəal təlim prosesində müəllim hazır biliklərin ötürücüsü və hafizənin mühafizəçisi rolundan imtina etməli, biliklərin əldə edilməsi yolunda bələdçi rolunu qəbul etməlidir. Təlim metodları uşaqlarda məntiqi, tənqidi, yaradıcı ğəfəkkürü inkişaf etdirərək uşaqlara elə bilik, bacarıq və vərdişlər aşılayır ki, onlar daim dəyişən həyat şəraitinə uyğunlaşmağı bacarsın.

Fəal təlim metodu təhsil prosesinin digər iştirakçıları təlim üsulları anlayışından istifadə olunur. Belə ki, interaktiv termini dialoqu qarşılıqlı təsiri bildirir. Bu təlim metodunu ifadə etmək üçün həmçinin

«problem-dialoqu», «problem», «evristik təlim» anlayışlarından da istifadə olunur.

Fəal təlim idrak fəaliyyətinin təşkili və idarə olunması üsullarının məcmusudur. Bu təlim üçün aşağıdakı cəhətlər səciyyəvidir.

-müəllim tərəfindən idraki problem-stiuasiyasının yaradılması;

-problem-stiuasiyanın həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin həvəsləndirilməsi;

-şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi əldə edilməsi və mənimsənilməsi;

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının yeni elmi biliklərlə zənginləşməsinə deyil, biliklərin müstəqil qazanılması, mənimsənilməsi vərdişləri və təfəkkürün müntəzəm inkişaf etdirilməsinə əsaslanır. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan ən vacib təlim metodlarının öyrənilməsi prosesində, elmin əsas qanunauyğunluqları haqqında nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

Bu yanaşmanın əsas üstünlüyü real idrak motivasiyasının yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Real ziddəyyətlərdən yaranan emosiyalar əqli ehtiyatların səfərbəyliyini təmin edir, idrak, idrak fəaliyyətini şövqləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Biliklər hazır şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində mənimsənilir, yəni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır.

Təlim prosesində təfəkkürün fəallaşdırılması nəticəsində həmçinin:

-biliklərin daha müstəqil, sərbəst qavranılması və mənimsənilməsi;

-məntiqi, tənqidi və yaradıcı təfəkkürün, habelə problemlərin həlli və qərar qəbul edilməsi üzrə vərdişlərin formalaşdırılması;

-elmi-tədqiqat vərdişlərinin formalaşdırılması;

-qarşılıqlı hörmət hissinin və əməkdaşlıq vərdişlərinin aşılanması;

-təlimin səmərəliliyinin artırılması mümkün olur.

Burada hərtərəfli və geniş şəkildə təzahür etmişdir. Bütün bunlar dövrün, təhsilin inkişafı nəticəsində, təhsilə və tərbiyəyə, yeni konsepsiyaya baxımından meydana çıxmışdır. İnteraktiv təlim metodundan kiçik yaşlı tərbiyədə təlim prosesində istifadə daha məqsədəuyğundur. Əvvəla bu uşaqların psixoloji prosesində istifadə

daha məqsədəuyğundur. Əvvəla bu uşaqların psixoloji inkişafı ilə bağlıdır. Uşaqlarda təfəkkür prosesinin inkişafı, qeyri-ixtiyari diqqətin ixtiyari diqqətlə tarazlaşmaması imkan verir və tələb edir ki, bu yaşda uşaqlarla interaktiv təlim metodu ilə təlim prosesini artırmaq vaxibdir. Bu metodla kiçik yaşlı uşaqların proqramlarında olan bütün məşğələlər bu yeni metoddan istifadə edərək keçilməsi zərurəti meydana çıxır. Təlim prosesində təlimin məqsəd və vəzifəsinin uğurla həyata keçirilməsi ilk növbədə müəllimin nəzəri biliyinin, praktik qabiliyyətinin pedaqoji ustalığının nəticəsi kimi ortaya çıxır. müəllim həmişə yenilik üçün axtarışda olur. Hər bir qrupun tərbiyəçisi unutmamalıdır ki, nitq inkişafı, riyaziyyat, ətraf aləmlə tanışlıq və s. kimi fənlərin əsası bağçada qoyulur. Nitq inkişafı, bədii oxu kimi məşğələlər Azərbaycan dilinin təməlini qoyur və bu da Azərbaycan dili xalqın varlığını əks etdirən başlıca amildir. Dilin incəliklərinin düzgün öyrənilməsində bağça tərbiyəçilərinin üzərinə böyük vəzifələr düşür, buna görə də bağça tərbiyəçiləri bütün interaktiv metodlardan səmərəli istifadə etməlidir ki, istənilən nəticəni əldə edə bilsin. Təröiyəçilər hələ körpə yaşlı uşaqlara məşğələ keçərkən düzgün səs tələffüzünü uşaqlara öyrədir ki, sonralar lüğət ehtiyatının zənginləşdirilməsi rabitəli nitqin inkişaf etdirilməsi, qrammatik cəhətdən düzgün cümlə qurulması kimi etapların həyata keçirilməsi mümkün olsun. Məhz bu prosesdə tərbiyəçi interaktiv təlim metodundan istifadə edərək məqsədinə tam nail olur. Dilin incəliklərinin düzgün öyrədilməsində bağça tərbiyəçiləri məhz bu metoddan istifadə etməklə uşaqları məktəbə lazımi səviyyədə hazırlaya bilirlər. Uşaqların lüğətinin yeni sözlərlə zənginləşdirilməsinin təməlini bağça tərbiyəçiləri qoyur.

Təlimin yeni prinsipləri və interaktiv metodlar məşğələnin mövzusundan, qarşıya qoyulan məqsəddən, tərbiyəçinin bütün bunlarla münasibətindən, yaradıcılıq qabiliyyətindən, pedaqoji, psixoloji hazırlıq səviyyəsindən, dərsə hazırlığından asılı olaraq öz nəticəsini verir. bütün bunlar bir-biri ilə sıx, qarşılıqlı əlaqədə olub, tədris prosesinin əsasını, canını təşkil edir. Onları özündə cəmləşdirən tərbiyəçinin məşğələsi müasir dövrün tələblərinə cavab verən məşğələ ola bilər.

İnteraktiv təlim metodu üçün aşağıdakılar səciyyəvidir:

-Uşaqların fəal işi;

-Tərbiyəçinin uşaqlarla və uşaqların bir-biri ilə əməkdaşlığı;

-Didaktik oyunlardan istifadə olunması;

-Uşaqların qrupda qeyri-ənənəvi yerləşdirilməsi;

İnteraktiv təlim zamanı müəllim üçün ən yaxşı iş formalarından biri qruplar üzrə əməkdaşlıq təlimini təşkil etməkdər. Bu zaman qrupda uşaqları ya dairəvi, ya da qrup halında yerləşdirmək lazımdır. Məşğələnin gedişində tərbiyəçi onlara necə işləmələri barədə məsləhət yerə bilər. Ancaq heç vaxt tərbiyəçi uşaqlara öz iradəsini, istəyini qəbul etdirə bilməz, bu zaman uşaqlara sərbəstlik vermək lazımdır. Ancaq uşaqlar məşğələnin gedişində özləri kollektiv fəaliyyətin fərdi işdən üstünlüyünü hiss etməlidirlər. Belə olduqda uşaqlar dərk edirlər ki, kollektiv kiçik olsa dastanlar müəyyən problemləri müstəqil həll etmək qüvvəsinə malikdir. Məhz burada təlim prosesində həm də kollektiv tərbiyə zərurəti yaranır. İnteraktiv təlim metodu həm də tərbiyəyə öz müsbət təsirini göstərir. Uzunmüddətli fəaliyyət zamanı uşaqlar həm də mövqelərinin doğruluğunu müdafiə etməyə yiyələnirlər. Azərbaycan dili təliminin ilk mərhələsi səslərin öyrənilməsi dövründən başlayır. Belə ki, ayrı-ayrı səslərin tələffüzü sözlərin tələffüzünə gətirib çıxarır.

Sözlərin birləşərək cümlələr yaratmasına imkan verir və bu dövr Azərbaycan dilinin hazırlıq mərhələsidir. Dilin təlimi isə sait və samit sözlərindən, səslərin eşidilməsindən, hərflərin isə həm görünüb, həm də yazılmasından başlayır.

Sait və samit səslər haqqında uşaqlara aşağıdakı tapşırıqları vermək olar.

1-ci qrupdan olan uşaqlara tapşırır ki, sait səslə başlanan beş hərfdən ibarət söz deyin.

2-ci qrupa samitlə başlanan beş hərfdən ibarət söz deyin.

3-cü qrupa tapşırır ki, saitlə qurtaran bir söz deyin və həmin sözlərdə sait səsləri qırmızı dairələrlə, samit səsləri isə göy dairələrlə işarə edin və sözlərdə neçə sait və neçə samit səsin olduğunu tapın. Sait səslərin çox və ya samit səslərin çox olduğunu göstərin. Sözdə neçə səs və ya neçə samit olduğunu rəqəmlərlə göstərin. Hər bir qrup özü izahat verir, digər qrup isə münasibət bildirir. Sonda özünü qiymətləndirmə gedir. Tərbiyəçi özü tapşırığı yekunlaşdırır.

MƏKTƏBLİLƏRİN TƏLİM PROSESİNDƏ İNTERAKTİV TƏLİM METODUNDAN İSTİFADƏ YOLLARI

Qrupdakı uşaqların ayrı-ayrı mərkəzlərdə bölüb tapşırıqlar vermək olar.

1-ci mərkəz nitq inkişafı.
2-ci mərkəz riyaziyyat.
3-cü mərkəz incəsənət.

Hər mərkəz ana sözünə aid bildiyini söyləyir.

**1.Nitq inkişafı mərkəzi.**

«Ana mənə çox əzizdir»
«Ana bizim zəhmətimizi çəkir»
«Mən anamı çox sevirəm»
«Ana hamıdan gözəldir»
«Ana bizi böyüdür»

Başqa bir uşaq ana haqqında şeir söyləyir.

**2.Riyaziyyat mərkəzi.**

Ana sözünün üç səsdən ibarət olduğunu söyləyir. Ana sözü «a» saitinin və n samitinin köməyi ilə düzəldilib. Bu sözü 2 hecaya ayırmaq olar: a-na. Ona görə ki, burada iki sait var.

**3.İncəsənət mərkəzi.**

Uşaqlar anaya aid şəkil çəkirlər. Digər uşaq ananın yanında öz şəklini də çəkir. Sonra hər bir mərkəzin cavabı dinlənilməli, qiymətləndirilməli, daha yaxşı cavab verən mərkəz alqışlanmalıdır.

Ümumiyyətlə, uşaqlara hər bir öyrənilən sözü asanlıqla hecalara bölməyin yollarını, hər bir hecanın saitlə düzəldiyini, belə hecaların saitlərlə müqayisə etməyin mümkün olduğunu öyrətmək lazımdır.

İnteraktiv təlim metodlarından biri də rollu oyunlardır. Süjetli-rollu oyunlar uşaqlara tanış olan hər hansı hadisənin, prosesin, əməlin əyani canlandırılması vasitəsi ilə səbəb məqsəd əlaqələrinin qanunauyğunluqlarının daha dərindən dərk edilməsinə kömək göstərməkdən ibarətdir. Süjetli-rollu oyunları müxtəlif məşğələlərin tədrisi zamanı, təlim prosesinin müxtəlif sahələrində, müxtəlif tədbirlərdə tətbiq etmək olar. Bu məqsədlə hər bir səsin və ya hərfin rolundan, əhəmiyyətindən, qalın və incə saitlərdən məlumat verə bilər, sərbəst şəkildə heca, söz və cümlə qura bilərlər.

«Əqli hücum» metodu. Bu metodvasitəsilə dərs və məşğələ prosesində uşaqların fəaliyyətinin rəğbətləndirilməsinə və onlar tərəfindən ideyaların surətlə irəli sürülməsinə imkan yaradır. Bu üsuldan

konkret problemin həlli və ya hansısa suala cavab axtarılması zamanı istifadə olunur. Belə ki, «Əqli hücum» yeni mövzunun izahından əvvəl, habelə çevik yaradıcı çalışmaların yerinə yetirilməsi prosesində və digər bu kimi hallarda tətbiq olunur.

Məktəbəhazırlıq qrupunun uşaqlarının fonetik təhlil aparmaq bacarığını yoxlamaq məqsədilə aşağıdakı qaydada suallar tərtib etmək olar:

-Sözdə neçə səs var?

-Sözdə neçə hərf var?

-Səsdə hərfin sayı eynidirmi?

-Sözdə neçə heca var?

Təhlil üçün vətən sözü verilir.

Suallar əsasında uşaqlar fikirləşirlər və biliklərinə istinadən cavbv verirlər.

-Vətən sözündə neçə səs var?

-Vətən sözündə beş səs var?

-Yaxşı bəs neçə hərf var?

-Sözdə beş hərf var?

-Sözdəki səslərin sayı ilə hərflərin sayı uyğun gəlirmi?

-Bəli, sözdə beş səs var və beş hərf var.

-Deyin, vətən sözündə neçə heca var?

-İki heca var.

-Bu açıq hecadır, yoxsa qapalı hecadır?

-Saitlə bitdiyi üçün açıq hecadır.

-Bəs ikinci heca açıqdır, yoxsa qapalı?

-Samitlə bitdiyi üçün qapalı hecadır.

Bütün bu suallara uşaqlar cavab verərkən öyrəndikləri biliklərə əsaslanıb nəticə çıxardılar. Şagirdlərin də kiçik yaşlı uşaqların hər birini düşünməyə vadar edən sualların əhəmiyyəti çox böyükdür, çünki bu zaman onlar başa düşdükləri formada cavab verir, bilmədiklərini yoldaşlarından eşidir və təkrar edib öyrənirlər.

Qeyd olunduğu kimi, interaktiv təlim metodlarından istifadə təlimin keyfiyyətini daha da yüksəldir. Yeni metrdlar əsasında keçirilən məşğələ hər bir mərhələdə imkan verir ki, zəif uşaqlar öz qüvvələrinə, inam hiss etməkdə qüvvətli uşaqlarla birlikdə, hətta onlarla bərabər səviyyədə qruplarına xal qazansınlar.

Təlim-tərbiyə prosesində müasir, o cümlədən interaktiv təlim metodlarının tətbiqi uşaqlara müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı problem barədə başqalarının fikrinə münasibət bildirmək,

digər fərqli nöqteyi-nəzəri təsdiq və yaxud inkar etmək, çoxluğun qərarını qəbul etmək, yaxud öz qərarının üstündə israr etmək və s. xüsusiyyətlərin formalaşmasına bilavasitə kömək göstərməklə təfəkkürün tənqidliyi, müstəqilliyi və çevikliyinə zəmin yaradır.

Rabitəli nitqin inkişafında interaktiv təlim metodundan istifadə edilir. Uşaq bağçasında ana dili təlimi zamanı qarşıya qoyulmuş başlıca vəzifələrdən biri də uşaqlara öz fikrini şifahi ifadə etməyi öyrətməkdir. Təbii ki, bu təlimin digər vəzifələri ilə qarşılıqlı şəkildə həyata keçirilir. Nitqin qabiliyyəti fikrin ardıcıl, məntiqi, dəqiq və məzmunlu olması ilə xarakterizə edilir. O, hər şeydən əvvəl məntiqi düşüncə tərzinin nəticəsi kimi meydana çıxır. Deməli, uşaqların rabitəli nitqinin inkişafı ilk növbədə gerçəkliyi, hadisələr əsasında əlaqəni qavramaq və dil normalarına yiyələnmək səviyyəsindən asılıdır. Kiçik yaşlı uşaqların ümumi inkişafının göstəricilərindən biri kimi çıxış edən rabitəli nitq məşğələlərində aşılanan əməli vərdişlər sistemidir. Ona ardıcıl, məqsədyönlü praktik istiqamətdə nail olunması mövcud dərslikləri məzmunlu, tərbiyəçilərin peşəkar səviyyəsi və təlim metodlarının düzgün seçimi ilə sıx bağlıdır.

Çalışmaların böyük əksəriyyəti orfoqrafik leksik və qrammatik məzmunlu rabitəsiz sözlər və cümlələr üzərində qurulmuşdur.

Çalışmalar elə düşünülməlidir ki, burada mətni əks edən hissələrin bərpası üzərində iş aparılsın. Hər halda mövcud dərsliklər qənaətbəxş deyil. uşaqlar eşitdiklərini öz sözləri ilə ifadə edirsə, və ya müstəqil mühakimə yürüdürsə, deməli mövzunu mənimsəmişdir. Uşaqların rabitəli nitqinin inkişafını tərbiyəçi peşəkarlığı ilə əlaqələndiririk. Tərbiyəçinin işi məşğələ qurması, uşaqları istiqamətləndirmə bacarığı, nöqsanları aradan qaldıra bilər. Ancaq öz işini bilən məşğələnin mərhələləri arasında düzgün əlaqə yaradan və təlim prosesində uşağı müstəqil, sərbəst, yaradıcı işləməyi bacaran müəllim çox şeyə nail ola bilər.

Tərbiyəçinin peşəkarlıq səviyyəsi dərslik və şagirdlə işləmək bacarığı ilə yanaşı, müasir təlim metodlarına hansı səviyyədə bələdliliyi ilə ölçülür.

Qabaqcıl təcrübə göstərir ki, şagird fəallığı, müstəqilliyi əsasında tərtib edilən bu metodlar onların bir-biri ilə qarşılıqlı əlaqədə olan təfəkkür və nitq qabiliyyətinin inkişafına yönəlmişdir.

Müasir məşğələ inkişafetdirici olmalıdır. O ümumən uşaq dünyagörüşünün zənginləşməsi ilə yanaşı həyat üçün lazım olan praktik vərdişlərin formalaşmasına xidmət etməlidir. Bu baxımdan təlim

metodlarına real münasibət prof. Y.Kərimov belə bir nəticəyə gəlir… təlim metodu tərbiyəçi və uşaqların birgə fəaliyyətinin, uşaqların bacarıq və vərdişlərinin, dünyagörüşünün formalaşması, qabiliyyətlərin inkişafını, həyata hazırlanmasını təmin edən yollardır.

Beləliklə, fəal təlim metodları dedikdə, uşaqları təlim prosesinə tam hüquqlu iştirakçısına subyektinə çevrilən və onlarda müstəqilliyə, yaradıcılığa, qarşılıqlı ünsiyyətə böyük maraq yaradan praktik yollar nəzərdə tutulur. Bu yollar içərisində fəallaşdırma məşqi, rollu oyunlar, əqli hücum, sorğu vərəqi, cütlər və qruplar, zəncirvari hekayə və şəkillər, müzakirə xarakterli detallar və s. hazırda təlim prosesinə sürətlə daxil olmaqdadır. Etiraf etmək lazımdır ki, ilk mərhələdə bu iş üsullarının çoxu bəzi tərbiyəçilər tərəfindən formal mənimsənilərək konkret məşğələnin qarşısında qoyulmuş məqsədlərlə əlaqələndirilmirdi. Bu qorxulu tendensiya formalizmə aparıb çıxarır. Ancaq yaradıcı tərbiyəçilərin iş təcrübəsi göstərir ki, fəal təlim metodlarından məqsədyönlü istifadə məşğələni canlı, mütəşəkkil təşkil olunmuş bir prosesə çevirir. Tərbiyəçinin yalnız istiqamətverici müdaxiləsi müşahidə olunan belə məşğələlər eyni zamanda uşaqların rabitəli nitqinin inkişafında mühüm amil olur.

Təcrübəmə əsasən bir neçə nümunəni nəzərinizə çatdırmaq istərdim. «Yaz gəlir» şeiri interaktiv təlim metodu ilə keçirilən məşğələlər canlı keçir. məhz bu canlı proses uşaqların fəal işini təmin edir, heç kəs məşğələyə biganə qalmır, hərə öz imkanı daxilində ümumi nəticənin alınmasına kömək göstərir.

Rabitəli nitqin inkişafında fəal təlim metodlarından istifadənin səmərəliliyi mübahisəsizdir. Lakin ona aludə olmağı düzgün saymıram. Müəyyən hazırlıq aparılmadan, uşaqları müvafiq bilik və məlumatlarla silahlandırmadan, əməli vərdişlərə yiyələndirmədən fəal təlim metodlarından istifadə məzmunsuz bir formaya çevrilir. Fikirsiz mətn söz yığımını xatırladır. Odur ki, fəal təlim metodları məqsədyönlü tətbiq edilmişdir. Biz tərbiyəçilər unutmamalıyıq ki, interaktiv təlim metodu nə qədər yeni bir sahədirsə, bir o qədər də vacib və aktualdır. Odur ki, mən interaktiv təlim metodlarından istifadə təlimin keyfiyyətinin yüksəldilməsinin mühüm vasitəsi olduğunu bir daha açıqlamaq istəyirəm.

Biz uşağı gələcək həyata hazırlamaqla kifayətlənməməli, onun bu gününün, uşaqlıq, yeniyetməlik və gənclik illərinin maraqlı qurulmasına çalışmalı, uşaqlarla münasibətdə ayrı-seçkiliyə yol verilməməli, onların öz rəylərini sərbəst ifadə etmələrinə, ideyalar vermələrinə şərait

yaratmalıyıq. Məhz buna görə də bu gün tədris prosesinin bütün mərhələlərində, tərbiyəçilərimiz müasir məşğələlərin tələblərinə yeni interaktiv təlim metodlardan istifadəyə əsaslanmalıdırlar.

Demokratikləşmə və ümumiləşmə prosesində interaktiv təlim metodunun dastanlar özünün müxtəlif variantları vardır ki, bunlardan biri də konstruktiv təlim metodudur. Bu metodun da fəaliyyəti, məqsədi, mənası, məğzi uşaqlara yeni üsulla bilik, bacarıq və vərdişləri aşılamaqdır. Konstruktiv təlim metodu dedikdə biz bunun mənasını dərk etməliyik. Yığcam şəkildə bunu ortaq məxrəcə gəlmək kimi başa düşmək olar. Konstruktiv təlim isə bu günkü məşğələlərin səviyyəsinin yüksəlməsinə geniş yaradıcı və yaradıcı təxəyyülü inkişaf etdirir.

Dünya bankının təhsil üzrə ekspertləri ənənəvi məşğələnin müasir məşğələdən nə ilə fərqləndiyini izah edərkən bizdə və onlarda qrup otaqlarında stulların yerləşdirilməsini əks etdirən iki sxematik şəkil çəkdilər. Biz ön sırada düzülmüş stullar, üzü tərbiyəçiyə tərəf oturmuş uşaqlar, 5-6 nöqtədə qoyulmuş stullar ətrafında üz-üzə oturmuş uşaqlar. Təlim metodları pedaqoji texnologiyaların dili ilə yox, ən sadə sxemlərlə müasirliyi bizə nümayiş etdirir.

Bəzi tərbiyəçilər frontal sorğuya üstünlük verir, müxtəlif paylama materiallarından istifadə edir, yeni dərsin izahında problem stiuasiyası yaradaraq sual-cavabla məşğul olurlar.

Deməli, məşğələ o zaman müasir sayıla bilər ki, hər bir uşaq ondan faydalana bilsin. Bu tələblərin reallaşması məhz interaktiv təlim metodlarının tətbiqi ilə mümkündür.

İnteraktiv terminini dialoqu əlaqədə fəaliyyət göstərmək kimi izah olunur. İnteraktiv təlim metodlarının tətbiqi tədris prosesini intensivləşdirir, onu hər bir uşaq üçün daha əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevirir, məşğələdə fəaliyyətin maksimum artmasına zəmin yaradır, təlimin inkişafetdirici aspektini gücləndirir.

İnteraktiv təlim metodlarını nəzərdən keçirək:

1.Rollu oyunlar-bu uşaqlar tərəfindən oynanılan kiçik pyesdir.

2.Cütlər və qruplar – uşaqlar arasında qısamüddətli hər hansı məsələ ilə bağlı fikir mübadiləsi aparmaqdır.

3.Əqli hücum –hər hansı suala cavab axtarılması zamanı istifadə olunur.

4.Söz assosiasiyaları-tərbiyəçi mövzunun əsasını təşkil edən bir sözü sinfə təklif edir, uşaqlar həmin sözlə əlaqədar assosiativ şəkildə xatırladıqları sözləri bir-iki dəqiqə ərzində yazırlar.

5.İşgüzar səs-küy –mövzu ətrafında dörd-beş dəqiqə ərzində bütün qrupla fikir mübadiləsinin aparılmasıdır.

6.Layihələrin hazırlanması uşaqların məntiqi təfəkkürünün inkişafına, müstəqil düşünmə, təhliletmə və əqli nəticə çıxarmaq qabiliyyətinin təşəkkülünə zəmin yaradır.

İnteraktiv təlim metodlarına habelə ümumi diskusiya, suallar, rəsm çəkmək, şəkillər, müşahidə və digərləri aiddir. Bundan əlavə son 20-25 ildə təhsil sistemində tətbiq olunan problemi təlim, inkişafetdirici təlim, kollektiv təlim metodları müasir dövrdə öz aktuallığını itirməmişdir. Bu baxımdan istifadə tədris prosesini intensivləşdirir, uşaqların fəaliyyətinin artmasına zəmin yaradır.

Doğrudur ki. mövzunun tədrisi zamanı bu metodların hamısından istifadə etmək çətinlik törədir, ona görə də bu metodlardan ayrı-ayrı məşğələlərdə mövzuya uyğun tərzdə istifadə olunması məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, bu metodlardan istifadə ilə tədris edilən mövzuda uşaqların sərbəst fikir yürütmələri də yüksək nəticə verir. belə məşğələlər uşaqların hər biri üçün əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevrilir.

Qrupların işi qrup otağının dəyişməsini tələb etdiyi üçün qrupda stollar elə düzülməlidir ki. uşaqlar üz-üzə otursunlar. Hər qrup üçün bir uşaq lider müəyyənləşdirilir. Bu lider qrupun işinə rəhbərlik edir. Uşaqlara qruplar üzrə verilən tapşırıqların çətin olmasına çalışmaq lazımdır ki, bu da onların birlikdə işləmələrinə səbəb olsun. Tapşırıqları uşaqların bilik səviyyəsini nəzərə almaqla verməlidir. Məsələn, oxudan «Ördək, balıq və xərçəng» nağılını danışdıqdan sonra uşaqlara güc birlikdədir ifadəsini işlədilir. Qrupların bilik səviyyəsinə görə «Aslan və iki ögüz», «Babək» mətnləri üzrə iş verilir. Qruplar işə başlayır, onların öz şəxsi təcrübəsi, qazandıqları bilik, bacarıq və vərdişlərə əsaslanmaqla fikir mübadiləsi aparılmasına zəmin yaradılır.

3-4 dəqiqə ərzində fikirlər ümumiləşir. Birinci qrupun liderinin fikri dinlənilir, qruplardan birinin lideri deyir:

-Nə qədər ki, öküzlər bir yerdə idilər aslan parçalaya bilmədi. Elə ki, ayrıldılar, aslan onları asanlıqla parçaladı və s.

Dördüncü qrupun fikri söylənilənləri möhkəmləndirdi.

-Babək xalqın gücünə arxalandığı üçün 20 ildən artıq bir vaxtda ərəblərə qarşı mübarizə aparmışdı və s.

4. **İşgüzar səs-küydən** dərsin surətini dəyişmək üçün istifadə edilir. 1-2 uşağa problem üzrə mövzu təklif edilir. 4-5 dəqiqə ərzində müzakirədən sonra gəldikləri nəticəyə aid fikir mübadiləsi aparılır. Nəticədə danışılan məsələnin mahiyyəti dərk edilir.

5. Rollu oyunlar uşaqlar tərəfindən oynalan kiçik bir sujetdir, məsələn:

- «Yaxşı nədir, pis nədir» bölməsinjə uşaqlar hər bir mövzunu səhnələşdirirlər. «Qurd və quzu», «Ağacların bəhsi» kimi mövzuları verərkən uşaqlar rollar üzrə öyrənir, hadisələri səhnələşdirir və bu zaman dərs daha canlı və maraqlı olur. Sonra onlar fikirlərini yekunlaşdırır, nəticə söyləyir, nəyin yaxşı, nəyin pis olduğunu dərk edirlər.

«Ətraf aləmlə tanışlıq» məşğələsində uşaqları dörd komandaya və ya qrupa bölürəm. Hər yaş qrupunun qavrama qabiliyyətinə görə sadədən mürəkkəbə prinsipinə əsaslanaraq məşğələləri təkşil edirəm.

Bağçanın həyətindəki 3-4 ağacın yarpağını yığıram və həmin yarpaqları qarışıq halda nümayiş etdirirəm. Növbə ilə müxtəlif ağacların adını çəkirəm. Hər qrupdan bir uşaq həmin ağacın əlamətlərini deyir və seçir.

Qrupun başqa üzvləri müxtəlif tapmacalara cavab verir, şeir söyləyirlər. Tapşırığı düzgün və tez yerinə yetirən komanda qalib gəlir. Uşaqların bu oyunda iştirakı onları fəallaşdırır. Rollu oyunlardan sinifdənxaric tədbirlərdə istifadə etmək mümkündür.

Nitqin inkişafı üçün ən çox istifadə etdiyim təlim metodlarından biri də söz assosiasiyasıdır. Bu metoddan hər hansı bir mövzunun öyrənilməsinə başlamazdan əvvəl istifadə edilir. Müəyyənləşdirilir ki,

həmin mövzu haqqında nə bilirlər, mövzü mənimsənildikdən sonra onlar yeni nə öyrəndilər. Mövzunun əsas məğzini təşkil edən sözü qrupa söylənilir. Uşaqlar həmin söz əsasında xatırladıqları sözləri 1-2 dəqiqə ərzində həmin söz assosiativ şəkildə söylənilir, həmin söylənilıəni dinləyib müqayisə edib qiymətləndirilir. Bəzən uşaqlar öz fikirlərini rəsm şəklində bildirirlər. Məşğələlərdə yekunlaşdırıcı diskusuyalar da əhəmiyyətlidir. Ona görə ki, bəzi uşaqlar cavab verməkdə çətinlik çəkirlər. Diskusiya zamanı isə uşaq fikrini tam çatdırmağa səy göstərir. Doğrudur, tədris zamanı bu metodlardan ayrı-ayrı məşğələlərdə mövzuya uyğun tərzdə istifadə etmək mümkündür. Qeyd edək ki, fəal təlim metodları üzərində qrupları məşğələ, ənənəvi məşğələlərdən fərqlənir. Bu məşğələlər tam sərbəstlik şəraitində keçir.

Uşaqlar özlərinin bütün bilik, bacarıq və istedadlarını nümayiş etdirir, zəif yoldaşlarını öyrətməyə çalışır, özləri də biliklərini artırırlar, lakin fəal təlim metodlarının tətbiqi zamanı bir çox çətinliklərlə qarşılaşılır. Fəal təlim metodları ilə iş prosesində bəzi hallarda uşaqlara fərdi yanaşma prinsipi pozulur. Bu metodlarla işləmək üçün tərbiyəçiyə yol göstərən, istiqamət verən metodik ədəbiyyat çox azdır. Bu gün proqramlar da, dərs vəsaitləri də eyni metoda uyğun yazılmalıdır.

Məşhur çin mütəfəkkiri Konfutsi 2500 il bundan əvvəl demişdir: «Müəllim şajirdi öyrədəndə, tərbiyə edəndə də onu irəliyə aparır, arxasınca dartmır, onda maraq, məcbur etmir, ona yol göstərir, yolu sərbəst getməyə imkan yaradır. Nə qədər ki, o şagirddə maraq oyadır, məcbur etmir, deməli, şagirdin bilik qazanması asanlaşır. Nə qədər ki, o şagirdə yalnız yol açır, ona düşünmə imkanı verir».

Müəllimlə şagird arasında ittifaqın yaranması, bilik qazanmağın asanlaşması və şagirdə düşünmə imkanının verilməsi məhz bunlan müəllimlik məharəti deməkdir.

Tərbiyəçi məharəti ondan ibarətdir ki, şagirdlə müəllim, tərbiyəçi ilə məktəbəqədər yaşlı uşaqların arasında ittifaqın yaranması, bilik qazzanmanın asanlaşdırılması və şagirdə düşünmə imkanının verilməsindən əsasdır. Məktəbəqədər sahədə yeni təlim metodlarının tətbiqi problemini xeyli aktuallaşdırır. Bu gün dünya təcrübəsində müasir təlim metodlarından, o cümlədən interaktiv təlim metodlarından geniş istifadə olunur.

Müasir sosial-mədəni problemlər uşaqları kosmik səviyyədə geniş düşünməyi öyrətmək kimi tələblər irəli sürür. Uşaqlara bu metodla öyrətməyi öyrənməyi bacarmaqdır. Onlara müəllimi diqqətlə dinləmək, müstəqil işləmək, oxuduqlarını başa düşmək, tutuşdurmaq, qiymətləndirmək, təşəbbüskar və yaradıcı olmaq vərdişləri aşılamaq son dərəcə vacibdir.

Fikir mübadiləsindən əvvəl «Əqli hücum» metodikasından istifadə edərək uşaqlarla birgə müzakirə aparmaq qaydaları plakatını hazırladıq.

1. Danışanı dinləmək
2. Danışanın sözünü kəsməmək.
3. Danışanın fikrinə mədəni şəkildə etiraz etmək.
4. Danışmaq istəyəndən əlini qaldırmaq.
5. Heç kimin fikrini lağa qoymamaq və s.

## YENİ PEDAQOJİ TƏFƏKKÜRƏ ƏSASLANAN İNTERAKTİV METODLARIN TƏTBİQİ TƏCRÜBƏSİNDƏN İSTİFADƏ ETMƏ YOLLARI

Yeni pedaqoji təfəkkür dedikdə, **ilk təhsilin demokratikləşdirilməsi, differsiallaşdırılması** və **fərdiləşdirilməsi** nəzərdə tutulur.

Pedaqoji kollektivlərin fəaliyyəti bilavasitə uşaqların mənafeyinə xidmət etmək istiqamətinə yönəldilmişdir. Biz pedaqoji işçilər çalışırıq ki, gün ərzində uşaqların həyatını maraqlı, məzmunlu quraq, diqqətimizi ilk növbədə onların intellektual və yaradıcı inkişafına, məntiqi təfəkkürünün formalaşmasına, təhliletmə, ümumiləşmə aparma, əqli nəticə çıxarma üzrə bacarıq və vərdişlərin təşəkkülünə yönəldək, təfəkkürün maksimum dərəcədə inkişafını nəzərə alaq, təlim prosesini onlar üçün tədqiqatçılıq, araşdırmalar sahəsinə təcrübə meydançasına çevirək.

Uşaqların öz baxışlarını, rəylərini sərbəst və azad ifadə etmək informasiya almaq, ideyalar vermək, çalışmaların inkişafı üçün təhlükə törədə biləcək fəaliyyətdən kobud rəftardan, mənəvi və fiziki zorakılıqdan qorunmaq və s. kimi hüquqları vardır. Bu hüquqlar «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının qanununda təsbit olunmuşdur. Biz də uşaqlara münasibətdə ayrı-seçkiliyə yol vermir, uşaq hüquqlarına hörmətlə yanaşır, onların hüquqlarının qorunmasını təmin etməyə çalışırıq. Yeni pedaqoji təfəkkürün məntiqi tələbi də məhz ondan ibarətdir ki, hər cür tərbiyə təlim müəssisəsi hüquqi məkana çevrilməli, orada qanunların aliliyi təmin olunmalıdır. Təlim-tərbiyə prosesində biz mövcud təlim metodlarından mahiyyətcə əsaslı şəkildə fərqlənən müasir, intensiv metodlardan geniş istifadə etməyə çalışırıq. «İnteraktiv» termini dialoq qarşılıqlı əlaqədə fəaliyyət göstərmək kimi

izah olunur. İnteraktiv təlim metodlarının tətbiq edilməsi təlim prosesini xeyli intensivləşdirir, onu hər bir uşaq üçün daha əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevirir, məşğələlərdə uşaq fəallığının maksimum artırılmasına zəmin yaradır.

Təlim-tərbiyə prosesində bu metodların tətbiq edilməsi uşaqlarda müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı məsələ barədə başqasının fikrinə münasibət bildirmək və s. xüsusiyyətlərinin formalaşmasına bilavasitə kömək etmək təfəkkürün tənqidliyi, müstəqilliyi, çevikliyinə zəmin yaradır.

Təlim-tərbiyə prosesində rollu-sujetli oyunlar, cütlər və qruplar, əqli hücum, habelə suallar, ümumi diskusiya, rəsm etmə, şəkil və fotoşəkillər, kollektiv təlim üsulu kimi interaktiv metodlardan istifadə edirik.

Rollu-sujetli oyunlar uşaqlar tərəfindən böyük maraq və həvəslə qarşılanıb. Bu oyunları keçirməkdə başlıca məqsədimiz uşaqlara tanış olan hər hansı hadisənin, prosesin əyani canlandırması vasitəsi ilə qanunauyğunluqların, səbəb-məqsəd əlaqələrinin daha dərindən dərk edilməsinə kömək göstərməkdən ibarətdir. Rollu-sujetli oyunlardan «Mağaza», «Poçt», «Məktəb», «Kitabxana», «Xəstəxana» kimi oyunları uşaqlar böyük həvəslə oynayırlar.

«Xəstəxana» oyunu zamanı uşaqların həkim, onun vəzifəsi, işinin nədən ibarət olması, xəstələrlə incə davranması haqqında olan bilik və təsəvvürləri aşkar edilir. Bu oyuna belə bir yenilik, yaradıcılıq əlavə etmək olar ki, həkimin xəstələrə yazdığı dərmanlar içərisində «Qorxuqluq», «Hiyləgərlik», «Xəbərçilik» və s. əleyhinə dərmanlar əlavə olunur.

Göründüyü  kimi bu oyun vasitəsi ilə uşaqların həm həkimin işi haqqında olan biliklərini möhkəmləndirir, həm reseptlə dərmanın alınma

qaydasını öyrənir, həm də onlarda doğruçuluq, xeyirxahlıq, cəsarət kimi əxlaqi keyfiyyətlərin formalaşmasına şərait yaranır.

Məlumdur ki, uşaqlara məşğələlərdə verdiyimiz biliklər müxtəlif fəaliyyət zamanı, həmçinin oyunlar prosesində təkrarlanarsa, onlar daha sabit və möhkəm olar. Rollu-sujetli oyunlardan başqa uşaqlarla yaradıcı oyunlar da keçirilir. Xeyirxahlıq, dostluq, şənlik və fantaziya şəraitində keçən yaradıcı oyunlar zamanı hətta həyatın ilkin çağlarından uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişafı mümkündür. Bu baxımdan müəyyən stolüstü oyun tərtib etmək mümkündür. Kibrit qutularından düzəldilən «domino» oyunu iki və ya üç variantda verilir. Rəngli dominoda yeddi əsas rəng olur. Oyunu iki və ya dörd uşaq arasında oynamaq və ya təşkil etmək mümkündür. «Nərd» oyununn da da həm rəngli daşlardan, həm də həndəsi fiqurlardan istifadə etmək olar. Məşğələlərdə təlim etdiyimiz rəng və forma anlayışı bu stolüstü oyunlar prosesində daha yaxşı mənimsənilir və möhkəmləndirilir. Eyni zamanda «Fanqram», «Özün düzəlt» kimi oyunlar keçirilir. «Fanqram» oyununda uşaqlar bir neçə eyni həndəsi fiqurdan müəyyən bir forma alırlar. «Özün düzəlt» oyununda uşaqlar müxtəlif həndəsi formalardan ev, ev heyvanları, quşlar və s. düzəldirlər. «Nəqliyyat vasitələri» mövzusunda şəkillər tərtib edirlər.

Söz assosiasiyaları yolundan isə uşaqların hər hansı bir mövzu haqqında nə bildikləri və ya mövzunu necə mənimsədiklərini müəyyənləşdirmək məqsədi ilə istifadə edilir. Gəzinti zamanı ağacları müşahidə edəndən sonra uşaqlara belə bir oyun oynamağı təklif edilir. Onlara ağac sözü deyilir, onlara eşitdikləri sözlə əlaqədar xatırladıqları sözləri demək xahiş olunur.

Uşaqlar bu sözə aid müxtəlif sözlər deyirlər və ya payız sözünə uyğun gələn sözlər xatırladılır (soyuq, külək, qara buludlar, yağış, xəzan və s.)

İnteraktiv təlim metodu kimi suallardan da geniş istifadə edilir. Uşaqlara düşündürücü suallara müraciət olunur. Onların bu və ya digər hadisə haqqında düşünmələrinə, onu təhlil edib nəticə çıxarmalarını imkan yaradılır. Bədii ədəbiyyat məşğələsində xeyirxahlığa dair oxuduğu hekayə üzrə belə bir sual vermək olar:

--Uşaqlar, əgər sizin istənilən bir arzunuzun yerinə yetirilməsi imkanınız olsaydı, nə arzulayardınız?

Uşaqlar çox zaman öz şəxsi arzularını həyata keçirmək istəyirlər. Belə bir halda onları başqaları haqda da düşünməyi öyrətmək məqsədi ilə deyir: «Əgər mənim belə bir imkanım olsaydı mən arzulayardım ki, sizin heç biriniz heç vaxt xəstələnməyəsiniz». Bundan sonra uşaqların cavabı müxtəlif olur. Mən istəyirəm ki, çoxlu yağış yağsın. Ona görə ki, çoxlu meyvə yetişsin və hamıya çatsın. Uşaqların növbəti cavabları onu göstərir ki, onlar istiqamətverici sözlərinə biganə qalmırlar. Onlar arzu edirlər ki, valideynləri heç vaxt dalaşmasın, heç vaxt müharibə olmasın, hər yerdə çoxlu gül-çiçək olsun. Tez-tez uşaqlarla oxunmuş müəyyən əsər üzrə müzakirələr keçirilir. Bunun üçün problem stiuasiyalı bədii əsər seçilir. Tolstoyun «sınmış fincan» hekayəsi üzrə müzakirə keçirərkən «Niyə uşaq fincanı sındırdığını boynuna alırdı?» sualına uşaqlar belə cavab verirlər: «Ona görə ki, atası onu cəzalandırmasın. Böyük məktəbəqədər yaşlı uşaqlar yalan danışmağın pis aadət olduğunu soruşduqda onu adətən, cəzalandırmaqla əlaqələndirirlər».

Əgər cəzalandırmasa, onda necə? Sualına cavab verməkdə çətinlik çəkirlər. Təbii ki, xeyirxahlıq, düzlük, doğruçuluq, qorxu hissindən irəli gəlməməlidir.

Uşaqlara izah edilməlidir ki, yalan başqalarına böhtan atılmasına, onların pis vəziyyətdə qalmasına səbəb olur, onu eşidənlər aldanırlar. Yalan danışsan adamı cəzalandırırlar. İnsanın yalan danışmasını heç kəs bilməsə də o yalan danışanda özü-özündən utanır.

Oxunmuş müəyyən əsər üzrə müzakirə keçirdikdə biz uşaqların hissələrin fəallaşdırır, təfəkkürünün müstəqilliyini inkişaf etdirmiş oluruq. Məlumdur ki, qrupdakı 20 uşaqdan yalnız 5-6 uşaq məşğələlərdə fəal olurlar və onlar müstəqil öyrənmə qabiliyyətinə malik olurlar. Qalan uşaqları – məşğələyə cəlb etmək, onlarda öyrənməyə maraq hissi oyatmaq üçün təlimin səmərəliliyini artırmaq məqsədi ilə biz mənəvi izahedici illustrativ metoddan əsaslı surətdə fərqlənən qrupda təlim formasından istifadə edirik.

Üzləşdiyimiz maddi çətinliklər hər məşğələdə qruplarla iş üsulundan istifadə etməyə imkan vermir, lakin biz çalışırıq ki, heç olmasa ayda bir dəfə də olsa məşğələlərimizi bu iş üsulundan istifadə etməklə quraq. Məsələn, riyaziyyat məşğələlərində uşaqları dörd nəfərdən ibarət qruplarda birləşdirir, hər qrupa məşğələ yerinə yetirilməsi nəzərdə tutulan eyni proqramın məzmunu üzrə tapşırıqlar verilir. Əşyaların sayını müəyyənləşdirmək və rəqəmlər arasında bu rəqəmi dairəyə almaq, eyni həndəsi fiqurları tapmaq. Hansı rəqəmin yazılmadığını müəyyənləşdirmək, neçə əşyanın üstünlüyünü gözəyarı müəyyən etmək. Qrupları uşaqların intellektual səviyəsini nəzərə almaqla da təşkil etmək olar. Bu təlim forması zamanı uşaqlar çalışırlar ki, problemi birgə həll etsinlər. Hər uşaq öz fikrini söyləsin.

Eyni zamanda dinlənilmiş olsun. bu cür təlim forması bütün uşaqlara öz imkanlarını həyata keçirməyə, müstəqil öyrənmə qabiliyyətinin inkişafına və təlimin fərdiləşdirilməsinə şərait yaradır. Düşünmək bilik və bacarığın yaradıcısı, prosesin vacib amilləridir. Təəssüf ki, uşaqlarımızda bilik və bacarıq düşünməkdən daha çox üstünlük təşkil edir. Bu baxımdan təlim prosesində uşaqlarda ilk növbədə yaradıcı qabiliyyətləri, təfəkkürü, müstəqilliyi inkişaf etdirməyə çalışırıq. Bütün bunlar isə uşaqlara bilik əldə etməyə, bacarıq və vərdişlər qazanmağa kömək edir. Biz çalışırıq ki, təlim prosesini

təcrübə və araşdırma işləri ilə paralel aparaq, çünki dərk edərək yadda saxlama, yaradıcı fəaliyyət prosesində qazanılmış biliklər daha möhkəm və dərin olur.

# TARİX ÜZRƏ İNTERAKTİV DƏRSLƏRİN MÜXTƏLİF MODELLƏRİ

## MƏNBƏLƏRİN ÖYRƏNİLMƏSİ ÜZRƏ DƏRSLƏR

Mənbələrin öyrənilməsi və onlar əsasında tarixi vəziyyətin göstərilməsi olduqca vacib əhəmiyyətə malikdir. Mənbələrin öyrənilməsi üzrə dərs müxtəlif bilik mənbələri ilə (müəllimin şifahi hekayəti, yazılı mətni, illüstrasiyalar, xəritələr, videomateriallar və s.) işi təşkil etməyə, şagirdlərə tarixi faktların təhlili, təsnifatı və sistemləşdirilməsi üsullarını, onların ümumiləş-dirilməsini və öz mövqeyini əsaslandırmasını öyrənməyə imkan verir. Belə dərslər şagirdlərin tədqiqat fəaliyyətini stimullaşdırır. Şagirdlərin müstəqil təhlil işini müxtəlif dərs formalarının köməyi ilə təşkil etmək olar.

## A) «BİLİK MÜBADİLƏSİ» MODELİ. DƏRSİN SXEMİ

1.Təlimatlandırma. Müəllim dərsin ümumi mövzusu çərçivəsində bir neçə eyni mənalı sual seçir. Sinif müvafiq olaraq suallardan birini öyrənmək üçün kiçik qruplara bölünür. Hər qrupa öz «mənbələr paketi»ni və tapşırığını alır.

2.Tədqiqat. hər qrup öz sualını mənbələr üzrə tədqiq edir və bütün sinif üçün izahat hazırlayır.

3.Bilik mübadiləsi. Qruplar növbə ilə çıxış edir və sinif işlərinin nəticələri ilə tanış edir. Hər qrupun cavabına diqqəti fəallaşdırmaq üçün, bütün sinf ümumi tapşırıq verilməsi olduqca vacibdir. Bu problemi sual, ümumiləşdirilmiş və müqayisəli cədvəllərin doldurulması və s. ola bilər.

## B)«NÖMRƏLƏNMİŞ İŞTİRAKÇILAR» MODELİ. DƏRSİN SXEMİ

1.Sinif eyni sayda iştirakçısı olan (yaxşı olar ki, 6-dan çox olmasın) qruplara bölünür və qrupda hər adama bir nömrə (məs., 1, 2, 3,4 5, 6) verilir. Bütün qruplar mənbə üzrə eyni tapşırıq alır.

2.Qruplarda mənbələr tədqiq edilir, müəllimin verdiyi sual müzakirə olunur, ümumi rəy hazırlanır.

3.Müəllim hər hansı bir nömrəni deyir və hər qrupdan yalnız həmin nömrəli iştirakçıların cavabı dinlənilir, səslənmiş cavablara yalnız əlavələr etmək olar.

4.Sonra müəllim qruplar üçün növbəti sualı səsləndirir və iş mərhələləri təkrarlanır.

**C) «EKSPERTLƏR» MODELİ. DƏRSİN SXEMİ**

1.Kiçik təhsil qruplarında hər iştirakçı «öz problemini alır onu göstərilən mənbələr üzrə tədqiq edir.

2.Hər iştirakçı sualı ümumi planda əlaqələndirərək qrupu öz materialı ilə tanış edir.

3.Qrupda materiallar müqayisə edilir, ümumi və fərqli cəhətlər aşkarlanır. Yekun nəticələr çıxarılır.

4.Hər qrup nəticəsini sinfə elan edir, müəllim ümumi nəticə çıxarır.

**Ç) «BİR TARİX DƏRSLİYİ YAZIRIQ» MODELİ**

Şagirdlərə müəyyən mövzu üzrə mənbələr kompleksinin öyrənilməsi əsasında müstəqil şəkildə tarix dərsliyinin bir paraqrafını və ya kiçik hissəsini yazmaq təklif olunur.

1.Müəllim dərsin mövzusunu problemi söyləyir və tapşırığı izah edir.

2.Şagirdlər kiçik təlim qruplarına bölünürlər və ilkin mənbələrin tədqiqi əsasında «tarix dərsliyi» üçün material seçirlər. Qrupların iş qaydası aşağıdakı kimi ola bilər:

a) paraqrafın başlığını və ya planın dürüst ifadə etmək; mövzunun açılması üçün hansı yarımbəndlər nəzərdən keçirilməlidir?

b) qısa müəllif mətni yazmaq;

c) xronoloji-hadisə (istənilən formada) sırasını açmaq;

ç)məqsədəuyğun sayılsa, mənbələrdən parçalar götürmək;

d) illüstrasiyaları axtarıb tapmaq;

e)xəritə tapmaq;

ə)«Zaman oxu»nu tərtib etmək.

3.Hər qrup işinin yekunlarını sinifə təqdim edir.

**FƏAL DƏRSİN QURULUŞU**

1.Motivasiya (problemi sualın qoyulması).

2.Tədqiqatın aparılması (1.Debatlar. 2.Karusel, 3.Kiçik qruplarda iş)

3.Məlumat mübadiləsi.

4.Məlumatın təşkili və müzakirəsi.

5.Nəticənin çıxarılması.

6.Refleksiya (əksetdirmə) → izləmə → öyrənməni → öyrədir qiymətləndirmə → →

7.Tətbiq edilməlidir.(reproduktiv)

**5 NÖV BACARIQ SƏMƏRƏLİ TƏLİM VƏ TƏDRİSİN ÖZƏYİNİ TƏŞKİL EDİR.**

***I DƏRSİN MƏNTİQİ CƏHƏTDƏN TƏŞKİLİ***

a) İzahat. Bu müəllimin aydın və başa düşülən nümunələrlə dərsi öyrətmək bacarığına əsaslanır.

b) Dərsin məzmununun təşkili. Təlim fəaliyyətini müəyyən edir.

c) dərsin məzmun və təlim fəaliyyətinin ardıcıllığı.

Dəqiq elmlərdə məlumdan naməluma. Humanitar elmlərdə xronoloji ardıcıllıq.

d) Nəyə diqqət yetirilməlidir. Müəllim dərs zamanı əsas diqqəti ən vacib məsələyə yönəltməlidir.

***II.DƏRSİN TƏQDİMATI***

Dərs başlayarkən 4 faktor nəzərə alınmalıdır.

1)Şagirdlərin diqqətini cəlb etməlidir.

2)Müəllim şagirdləri mövzu ilə maraqlandırmaq yollarını tapmalıdır, həvəsləndirilməlidir.

3)Yeni mövzu üçün baza biliyə malik olmalıdır.

4.Göstərişlərin verilməsi.

***III.YEKUNLAŞDIRICI VƏ ÜMUMİLƏŞDİ-RİCİ DƏRS***

1)Dərsin mühüm hissələri yenidən təkrar olunmalıdır.

2)Bölmə ardıcıllığı gözlənilməlidir.

3)Dərs vaxtı təkrara yer verilməlidir.

4)Mənimsəmə müəyyənləşdirilməlidir.

5)Növbəti dərs haqqında məlumat verilməlidir.

***IV.HƏVƏSLƏNDİRİCİ VƏ MARAQOYA-DICI AMİLLƏR***

**A)Müxtəlif vizual stimullar**

1.Müəllimin üzündəki ifadələr və jestlər.

2.Müəllim hərəkət edərək dərs keçə bilər.

3.Müəllim geyimində və saç düzümündə müxtəliflik etməlidir.

**B)Müxtəlif dinləmə stimulları**.

1) Müəllimin səsindəki həcm və yüksəklik həddi, danışıq tempi.

2) Şagirdlər də danışmalıdırlar.

3) Kaset və SD-lər kimi audio vasitələrdən istifadə.

***V.NÜMAYİŞ ETDİRMƏ***

**Nümayiş dərsin məqsədinə uyğun olmalıdır.**

1.Ardıcıllıq müəyyənləşdirilməlidir.

2.Nəticə və problem haqqında xəbər verilməlidir.

3.Nümayiş TƏHLÜKƏSİZ OLMALIDIR!

4.Materiallar toplanmalı və nümayişə hazır vəziyyətə gətirilməlidir.

5.Şagirdlər cəlb olunmalıdır.

6.Nümayiş darıxdırıcı keçməməlidir.

7.Nümayişin sonu olmalıdır.

## DƏRSLƏRDƏ ŞAGİRDLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

Qiymətləndirmə tapşırığın yerinə yetirilməsinə əsaslanmalıdır.

**Obyekt: ev tapşırığı, qrupların işində və diskussiyalarda iştirak, suallar formalaşdırmaq və tədqiqat aparmaq bacırığı.**

***QİYMƏTLƏNDİRİLMƏLİDİR.***

**1)Məzmun-əsas faktların və terminlərin, səbəb-nəticə əlaqələrin, nəticə və ümumiləşdirmələrin mənimsənilməsi.**

**2.Təhliletmə vərdişlərinin, öyrənmə bacarığının, digər qrupların baxışların yaxud nöqteyi-nəzərinin başa düşülməsi.**

**3.Davranış tənzimləyiciləri kimi dəyərlərin formalaşdırılması.**

Qiymətləndirilmə meyarları bütün siniflə müzakirə edilə bilər.

**QİYMƏTLƏNDİRMƏNİN ÜSUL VƏ FORMALARI.**

1)Müəyyən konkret cavabı olanlar (Testlər)

2)Açıq suallar.

Şagirdin özünüqiymətləndirilməsi çox vacibdir.

Bu onlara öz davranışına daha məsuliyyətlə yanaşmağa sövq edir, onlarda obyektivliyin tərbiyə edilməsinə yardımçı olur. Münasibətlərin düzlük və qarşılıqlı anlaşma prinsipləri əsasında qurmağı öyrədir.

## MÜASİR DƏRS NÜMUNƏLƏRİ

**Mövzu: «Cəmiyyətin siyasi təşkili»**

**DƏRSİN MƏQSƏDİ:**

**Biliklər:**

--«Siyasət», «Cəmiyyətin siyasi təşkili» anlayışları;

--cəmiyyətin siyasi təşkilinin strukturu və onun əsas elementləri;

--dövlətin əhəmiyyəti;

--cəmiyyətin siyasi təşkilində dövlətin xüsusi rolu.

**Bacarıqlar:**

--Mövzuya daxil olan anlayışları izah etmək və onları düzgün işlətmək;

--Cəmiyyətin siyasi təşkilinin strukturunu təhlil etmək və onun əsas elementlərini fərqləndirmək;

--Cəmiyyətin siyasi təşkilində dövlətin xüsusi rol oynadığını sübut etmək;

**Dəyərlər:**

--siyasətə fəal vətəndaş münasibəti;

--ictimai və dövlət institutlarına hörmət.

**Əsas anlayışlar**: siyasət, cəmiyyətin siyasi təşkili, cəmiyyətin siyasi təşkilinin strukturu. Cəmiyyətin siyasi təşkilinin elementləri, dövlətin əlamətləri, dövlət.

**Mənbələr və materiallar**:

--siyasətin tərifini əks etdirən plakat

--cəmiyyətin siyasi təşkilinin tərifini əks etdirən plakat

--cəmiyyətin siyasi təşkilinin strukturlarının elementləri yazılmış kartoçkalar.

--dövlətin əlamətlərini əks etdirən plakat (ya da paylama materialı)

--vatman kağızı vərəqələri, marketlər, skotç.

**Dərsin planı:**

1.Siyasət nədir?

2.Cəmiyyətin siyasi təşkilinin strukturu, onu təşkil edən elementlər.

3.Cəmiyyətin siyasi təşkilində dövlətin xüsusi rolu.

4.Dövlətin əsas əlamətləri.

**Dərsin gedişi:**

**1-ci mərhələ: Əqli hücum.**

Bu mərhələnin məqsədi «siyasət» anlayışının mahiyyətini açıqlamaq, şagirdlərin bu sahədə malik olduqları bilikləri ümumiləşdirməyə və genişləndirməyə kömək etmək.

Dərsin əvvəlində müəllim şagirdlərdən xahiş edir ki, Azərbaycan Respublikasında son həftə (gün və s) ərzində baş verən əsas siyasi hadisələri söyləsinlər.

Sonra şagirdlərə «Siyasət nədir?» sualı verilir. Cavablardakı əsas ideyalar müəllim və ya şagirdlərin biri tərəfindən vatman kağızında yazılır.

Şagirdlərin cavabları səsləndikdən sonra müəllim «siyasət» anlayışının tərifi yazılmış vatman kağızını lövhədən asır:

Siyasət-dövlət hakimiyyəti orqanlarının ölkənin iqtisadi strukturu və ictimai quruluşunu əks etdirən fəaliyyəti, eyni zamanda, ictimai qrupların, partiya və digər ictimai təşkilatların öz maraq və məqsədlərini əks etdirən fəaliyyətdir.

Müəllim siyasətin başqa təriflərindən də istifadə edə bilər. Tərif şagirdlərin cavabları ilə müqayisə edilir və ümumi cəhətlər markerlə qeyd olunur.

**2-ci mərhələ. Kiçik qruplarda iş.**

Növbəti mərhələnin məqsədi – şagirdləri «cəmiyyətin siyasi təşkili» anlayışı və onun struktur elementləri ilə tanış etmək.

Müəllim şagirdlərin diqqətinə çatdırır ki, cəmiyyətin siyasi həyatında müxtəlif dövlət orqanları və ictimai təşkilatlar iştirak edirlər və xahiş edir ki, bunlardan bəzilərini söyləsinlər.

Şagirdlər öz fikirlərini söylədikdən sonra müəllim onları qruplara bölür.

Qruplara cəmiyyətdəki müxtəlif idarə və təşkilatların adı yazılmış kartoçkalar paylanır və aşağıdakı tapşırıq verilir: «Cəmiyyətin siyasi həyatına bu təşkilatların təsiri eyni səviyyədə deyil. Onları cəmiyyətin siyasi həyatına təsir dərəcəsinə görə sistemləşdirin. Qərarınızı əsaslandırın.»

Tapşırığın yerinə yetirilməsinə 7 dəqiqə vaxt verilir. Təqdimat zamanı qruplar öz variantlarını təqdim edirlər.

Sistemləşdirilmiş siyahının variantlarından biri: (müəllim üçün)

- Dövlət
- Siyasi partiyalar
- İctimai-siyasi hərəkatlar
- Həmkarlar ittifaqları
- Gənclər təşkilatları
- Qadın təşkilatları
- Yaradıcılıq təşkilatları (yazıçılar, bəstəkarlar, rəssamlar və s.)
- Dini təşkilatlar
- Filotelistlər, kitabsevərlər və s. birliklər
- İstehsal kooperativləri
- Səhmdar cəmiyyətləri
- Şəxsi müəssisə və təşkilatlar

**3-cü mərhələ. Müzakirə.**

Qruplar işlərini təqdim etdikdən sonra onların işinin müqayisəsi və yekunlaşdırılması istiqamətində kiçik müzakirə aparılır.

Müzakirə aşağıdakı suallar ətrafında aparıla bilər:

--Sadalanmış təşkilatlar cəmiyyətin siyasi həyatına necə təsir edirlər?

--Onların təsir səviyyəsi hansı amillərdən asılıdır?

--Onlar hansı məqsədlərlə yaradılır?

--Göstərilən təşkilatlardan hansılar siyasi məqsədlə yaradılır?

**MÜƏLLİM ÜÇÜN MƏLUMAT:**

**Partiya** (latınca partio-«bölürəm» sözündən-dir) – birgə siyasi fəaliyyət göstərən vətəndaşları birləşdirən təşkilatdır. Cəmiyyətin tərəqqisi yoluna baxışları eyni olan şəxslər, bir partiya sıralarına keçərək, cəmləşirlər. Onlar ümumi siyasi mövqe ətrafında öz həmfikirləri ilə birləşərək partiya yaradırlar. Bu prosesin mahiyyəti insanların hakimiyyətə gəlməsi üçün birləşməsi və hakimiyyət vasitəsi ilə öz ümumi maraqlarını təmin etməsindən ibarətdir. demokratik dövlətlərdə hakimiyyətə gəlmək üçün zor tətbiq edən partiyaların ləğv edilməsi təcrübəsi vardır. Müasir cəmiyyətin siyasi həyatında doğru dövlət təşkilatları arasında partiyalar daha böyük rol oynayır.

İctimai-siyasi hərəkatlar partiyalardan fərdi olaraq daha bir məqsədlərlə, məsələn, sülhün, ətraf mühitin qorunması və s. məqsədlərlə yaradılır. Onlar öz qarşılarına hakimiyyətə gəlmək məqsədi qoyur, yalnız hökumət qarşısında müəyyən tələblər irəli sürürlər. İctimai-siyasi hərəkatın tərkibinə, həm ayrıca vətəndaşlar, həm də təşkilatlar daxil ola bilərlər.

Həmkarar ittifaqları – insanların peşə əlamətlərinə görə yaradılmış birliklərdir. Onlar əmək adamlarının maraqları naminə iş adamları, dövlət orqanları ilə əmək şəraiti, əmək haqqı, əməyin mühafizəsi və s.

haqqında danışıqlar aparırlar. Həmkarlar İttifaqının ölkənin siyasi həyatında iştirak etmək, öz namizədlərini irəli sürmək hüququ vardır.

Qadın, gənclər, yaradıcılıq və s. təşkilatları və birlikləri – cins, yaş və digər əlamətlərə görə yaranmış maraq qruplarıdır. Belə qruplar kütləvi informasiya vasitələrinə arxalanaraq onları narahat edən məsələlər barədə bilgilər yayır və öz üzvlərinin xeyrinə siyasətə təsir göstərirlər. Belə qrupların hər biri demokratiya şəraitində fəaliyyət göstərir, ictimai rəyi öyrənir, öz sosial bazasını genişləndirməyə çalışır.

Bu təşkilatlar və hərəkatlar müxtəlif mübarizə formalarından – dinc yürüşlər, kollektiv ərizələr, boykotlar, tətillər və s. istifadə edirlər.

**<u>4-cü mərhələ:</u>**

Müəllim şagirdləri «cəmiyyətin siyasi təşkili» termini ilə tanış edir (onu əks etdirən plakat lövhədən asılır):

Ölkənin siyasi həyatında iştirak edən dövlət, siyasi və ictimai orqan, təşkilat və birliklərin məcmusu cəmiyyətin siyasi təşkilini müəyyən edir. Bütün sadalanmış təşkilatlar onun struktur elementləridir.

**<u>5-ci mərhələ: Kiçik qruplarda iş.</u>**

Bu mərhələ cəmiyyətin siyasi həyatında dövlətin rolunu və əlamətlərini üzə çıxarmağa həsr olunub.

Təcrübə göstərir ki, bütün qruplar öz siyahılarında birinci yerə dövləti qoyurlar. Müəllim şagirdlərə təklif edir ki, bu eyni fikirliyin səbəbini izah etsinlər. Sonra o qeyd edir ki, dövlət həqiqətən də cəmiyyətin siyasi təşkilində xüsusi rol oynayır.

**Qruplara yeni tapşırıq verilir:**

«Dövlət cəmiyyətin siyasi təşkilinin digər elementlərindən fərqləndirən əlamətləri vatman kağızında yazın».

Tapşırığın yerinə yetirilməsinə 10 dəqiqə vaxt verilir.

Vaxt bitdikdən sonra hər bir nümayəndə öz qrupunun işini təqdim edir.

Dövlətin fərqləndirici əlamətləri aşağıdakılar ola bilər:

--dövlət hakimiyyəti ölkənin bütün əhalisi üzərində mövcuddur.

--müəyyən ərazi çərçivəsində fəaliyyət göstərir.

--xüsusi idarə və məcburetmə aparatına malikdir. (onun tərkib hissəsələri qanunverici, icraedici və səhkəmə orqanları, ordu, polis, məhbəs və s.)

--qanunların qəbul edilməsi

--dövlətin suverenliyi

**6-cı mərhələ. Refleksiya. Qiymətləndirmə.**

--Biz bugünkü dərsdə nəyi öyrəndik?

--Dövlətin əlamətlərinə istinad edərək dövlətin tərifini formalaşdırmağa çalışın.

--Cəmiyyətin siyasi təşkilinin normal fəaliyyəti üçün nə lazımdır?

**7-ci mərhələ. Yekun.**

Dərsin sonunda şagirdlər müəllimin köməyi ilə belə nəticələr formalaşdıra bilərlər:

--cəmiyyətin siyasi təşkili müxtəlif idarə, təşkilat və birliklərdən ibarətdir;

--cəmiyyətin siyasi təşkilində dövlət xüsusi rol oynayır;

--Dövlət—cəmiyyətin siyasi təşkilatıdır, o, müəyyən ərazidə fəaliyyət göstərir, xüsusi idarə və məcburetmə aparatına malikdir;

--ictimai inkişafın müxtəlif məsələlərini daha səmərəli həll etmək üçün cəmiyyətin siyasi təşkilinin elementlərinin qarşılıqlı əlaqəsinin əsasında əməkdaşlıq, qarşılıqlı yardım və dəstək prinsipləri dayanmalıdır. Dövlət, siyasi və ictimai təşkilatların belə əməkdaşlığı real demokratiya rejimi yaradır.

**Ev tapşırığı:**

I variant. Dövlətə aid mümkün qədər çox tərif tapmaq.

II variant. Nə üçün dövlət lazımdır? (5 əsas səbəbi qeyd etmək).

VII sinif

## MÖVZU: AZƏRBAYCAN RESPUBLİKASININ HİMNİ

**Vaxt:** 45 dəqiqə.

**Məqsəd:** 1. Himnin tərifini vermək;

-dövlət rəmzi kimi himnin təyinatını izah etmək.

2. Şagirdlərdə tarixi materiallarla işləmək vərdişləri;

-himnin mətnini təhlil etmək bacarığı formalaşdırmaq.

3. Şagirdlərdə dövlət rəmzlərinə hörmət hissi aşılamaq;

- vətənpərvərlik hissini inkişaf etdirmək.

**Təchizatı:**

-Azərbaycan Respublikası himninin mətni;

-himnlər yazılmış audiokasetlər;

-maqnitofon;

-vatman kağızı vərəqləri, markerlər.

**Dərsin gedişi:**

**1-ci mərhələ:**

müəllim qabaqcadan iki-üç dövlətin himninin melodiyalarını seçir, özü də seçməni elə aparır ki, bunlardan biri Azərbaycan Respublikası himninin melodiyası olsun.

Dərsin lap başlanğıcında üç himndən: Azərbaycan Respublikasının, Türkiyə Respubli-asının və Rusiya Federasiyasının himnlərindən (digər dövlətləroin himnlərini də təklif etmək olar) parçalar səslənir.

Müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:

-Bu melodiyalardan hansı sizə tanışdır?

-Bu cür melodiya necə adlanır?

Dərsin bu mərhələsinin məqsədi şagirdlərin şəxsi təcrübəsindən istifadə etməklə onlarda öyrənilən mövzuya maraq oyatmaqdır.

**2-ci mərhələ. Əqil hücum.**

Müəllim uşaqlara ayağa qalxmağa təklif edir. Azərbaycan Respublikasının himni səslənir.

Himn dinlənildikdən sonra müəllim şagirdlərə belə bir süalla müraciət edir:

-İndicə səslənən melodiya sizdə nə kimi hisslər doğurur.

Vatman kağızı vərəqində «himn» sözü və şagirdlərin cavabları yazılır, məsələn, qürur, şərafət, hörmət, dövlət şərəfi, sevinc, təntənə, Vətənə məhəbbət (vətənpərvərlik) və i.a.

Sonra müəllim şagirdlərə aşağıdakı sualla müraciət edir:

-himnin xarakterik cəhəti nədir?

Şagirdlərin cavabları başqa vatman kağızı vərəqində yazılır, məsələn: melodiya asan yadda qalır, marşı xatırladır, əzəmətliliyi ilə fərqlənir, təntənəli hallarda ifa olunur və i.a.

İkinci mərhələnin məqsədi konkret təcrübə əsasında şagirdləri «himn» sözünün tərifini başa düşməyə istiqamətləndirməkdir.

**3-cü mərhələ: Kiçik qruplarda iş.**

Müəllim sinfi qruplara bölür.

**Qruplara tapşırıq.**

Müəllim: «Himnin nə demək olduğunu ifadə etməyə çalışın. Öz tərifinizi yazın. Vatman vərəqlərindəki yazılarınızdan istifadə edə bilərsiniz».

Bu iş üçün 7-10 dəqiqə ayrılır.

**Qrupların işinin təqdimatı.**

Qrupların işləri təhlil olunur, bu işlərdə eyni bəndlərin altından xətt çəkilir.

Bu mərhələnin məqsədi – «Himn» anlayışını formalaşdırmaq.

**4-cü mərhələ.**

Müəllim «himn» anlayışının tərifi yazılmış mətnləri qruplara paylayır:

**Himn** – 1) Dövlət və ya sosial birliyin rəmzi kimi qəbul olunmuş təntənəli mahnıdır; 2) Mədhedici mahnıdır, musiqi əsəridir.

Müəllim şagirdlərə təklif edir ki, mətni oxusunlar və onu qrupların qeydləri ilə müqayisə etsinlər.

Bu mərhələ şagirdlərin «himn» anlayışı haqqında biliklərini ümumiləşdirməyə və genişləndirməyə kömək edir.

Müəllim şagirdlərə deyir ki, hər hansı dövlətin mühüm əlaməti onun atributları, rəmzləridir. Bunlar gerb, bayraq və himndir. Dövlət rəmzləri müqəddəs, toxunulmaz sayılır. Bütün zamanlarda öz bayrağını düşmən qarşısında yerə tullamaq, öz ölkəsinin himnini əyləşmiş halda dinləmək rüsvayçılıq sayılmalıdır.

Bu yerdə müəllim sinfə belə bir suallar müraciət edə bilər:

-Nə üçün himni ayaq üstə dinləmək qaydası qəbul olunmuşdur?

Müəllim şagirdlərə belə bir nəticə çıxarmaqda kömək edir ki, himnə, dövlət rəmzlərinə göstərilən hörmət dövlətə, ölkəyə hörmət deməkdir.

**5-ci mərhələ.**

Bu mərhələdə qabaqcadan hazırlanmış şagird «Azərbaycan Respublikası Himninin yaranma tarixindən» mövzusunda aşağıdakı plan üzrə məlumat verir.

1) Azərbaycan Respublkiasının himni hansı ildə yaradılmışdır?

2) Himnin yaradıldığı tarixi şəraitin xarakteristikası.

3) Himnin sözlərinin və musiqisinin müəllifləri

**Məlumat təhlil olunur**

Bu mərhələnin məqsədi şagirdlərə tarixi materiallarla işləməyi öyrətmək, Azərbaycan Respublikası himninin yaradılması tarixinə dair məlumatlar əldə etməkdir.

**6-cı mərhələ**

Azərbaycan Respublikası himninin kollektiv şəkildə ifa edilməsi. Bu öz dövlətinin himninə hörmət, Vətənə məhəbbət, onunla fəxr etmək hissləri oyadır.

Şagirdlərin qiymətləndirilməsi

## MÖVZU: NEFT-SUVEREN AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ SƏRVƏTİDİR

**Vaxt:** 45 dəqiqə

**Məqsəd:** 1. Azərbaycan Reəpublikasının neft strategiyasının qiymətləndirilməsi üçün neft sahəsində müxtəlif mülkiyyət formalarının üstünlük və çatışmazlıqlarının açılması.

2. Şagirdlərdə:

-çətin və birmənalı olmayan vəziyyətlərdə – neft üzərində mülkiyyətin müxtəlif formalarının təhlili zamanı – düşünülmüş qərarlar qəbul etmək;

-tarix və iqtisadiyyat dərslərində əldə edilmiş bilikləri bu problemin həllinə tətbiq etmək bacarıqlarını formalaşdırmaq.

3. Öz ölkəsinin milli sərvəti üçün qürur hissi və mühüm məsələlərin həlli zamanı məsuliyyət hissi tərbiyə etmək.

**Təchizat:**

- «Azərbaycan hansı təbii ehtiyatlarla zəngindir?» plakatı;
- 4 ədəd cədvəli vatman kağızı; markerlər.

**Dərsin gedişi:**

***1-ci mərhələ. Əqli hücum.***

Yazı taxtasında plakat asılır. Müəllim şagirdlərə sual verir: «Azərbaycan hansı təbii sərvətlərlə zəngindir?» Şagirdlərin cavabları bu plakata yazılır.

Asılmış vərəq dolanda müəllim şagirdlərə deyir ki, bugünkü dərsdə söhbət ölkəmizin əsas sərvətindən – neftdən gedəcək.

Bu mərhələ müəllimə kömək edəcək ki, şagirdlərin Azərbaycan Respublikası təbii sərvətlərinə dair ümumi biliklərini aşkarlasın və dərsin mövzusuna keçsin.

**2-ci mərhələ. Qərarlar ağacı.**

Müəllim bildirir ki, əsrlər boyu neft ölkəmizin iqtisadiyyatında böyük rol oynamışdır. Müxtəlif vaxtlarda bu təbii sərvət xarici özəl sahibkarların, milli burjuaziya nümayəndələrinin mülkiyyəti olmuş, elə dövr də olmuşdur ki, neftin çıxarılması dövlətin inhisarında olmuşdur. Bizim günlərdə isə neft yataqlarının işlənməsi suveren Azərbaycanın iqtisadiyyatının dirçəlməsində aparıcı rola malikdir. Muasir Azərbaycan Reəpublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət formalarına əsaslanır. Azərbaycan Respublikasının neft strategiyasının işlənib hazırlanması da bu prinsipial müddəalara əsaslanır.

Müəllim sinfi hərəsində 4-6 nəfər olmaqla 4 qrupa bölür.

**Qruplara tapşırıq.** Müəllim: «Təsəvvür edin ki, sizə milli təbii neft sərvətlərinin taleyini həll etmək ixtiyarı verilib. Bu sərvətlərin çıxarılmasını kimə tapşırardınız: dövlətə, Azərbaycan özəl sektoruna, yoxsa ki xarici şirkətlərə? Hər bir qrup təklif olunan hər üç variantı nəzərdən keçirir, onlardan hər birinin üstün cəhətlərini və çatışmazlıqlarını qeyd edir və yalnız bundan sonra müəyyən qərara gəlir – variantlardan birini seçir».

Problem vatman kağızı üzərində belə verilir:

| İqtisadiyyatın yüksəldilməsi üçün neft ehtiyatlarının işlənməsi ixtiyarını verərdiniz | | |
|---|---|---|
| Dövlət sektoruna | Azərbaycan özəl sektoruna | Xarici özəl sektora |
| + | + | + |
| - | - | - |
| Qərar: | | |

Cavab «Qərar» xanasına yazılır, üstü örtülür.

Hər qrup yazıları oxuyur, amma gəldiyi qərarı bildirmir. Bunu müəyyənləşdirmək digər qruplara təklif olunur. Həmin qruplar qəbul olunan qərar haqqında öz fikirlərini bildirir.

**3-cü mərhələ. Yekun**

Müəllim deyir: həyatda elə vəziyyətlərimiz olur ki, biz çox düşünmədən dərhal bir qərara gəlməli oluruq. Bu zaman bütün mümkün variantları nəzərdən keçirmək, «lehinə» və «əleyhinə» olan məqamların hamısını ölçüb-biçmək və yalnız bundan sonra qərar qəbul etmək lazımdır. Bizim indicə yerinə yetirdiyimiz tapşırıq düşünülmüş qərar qəbul etməkdə yardımçı oldu.

Şagirdlərin qiymətləndirilməsi.

# İNTERAKTİV DƏRSLƏRDƏ QİYMƏTLƏNDİRMƏ

## DƏRSLƏRDƏ ŞAGİRDLƏRİN QİYMƏT-LƏNDİRİLMƏSİ

Məktəblərimizdə mövcud olan ənənəvi qiymətləndirmə sistemi fəal təlim metodlarının tətbiq edildiyi dərslərdə şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün səmərəli deyildir. Bu cür dərslərdə yeni qiymətləndirmə sistemi nəzərdə tutulmalıdır. Qiymətləndirmə tapşırıqların yerinə yetirilməsinə əsaslanmalıdır. Qiymətləndirmənin əsası tapşırığın yerinə yetiril-əsinin keyfiyyətidir. Qiymətləndirmənin obyektləri isə şagirdlərin yerinə yetirdiyi ev tapşırığı, qrupların işində və diskussiyalarda iştirak, suallar formalaşdırmaq və tədqiqat aparmaq bacarığı ola bilər. Ev tapşırığı müsahibə, sosioloji sorğu aparılmasından, esse (kiçik inşa) yazılmasından, anket hazırlanmasından və i.a. ibarət ola bilər. Şagirdlər öz biliklərini və əqil vərdişlərini şifahi, yazılı, vizual, rollu, ya da digər formada təqdimat-ar yolu ilə nümayiş etdirə bilərlər. Yaxşı təşkil edilmiş təqdimetmə şagirdlərin biliklərinin və əqli vərdişlərinin yüksək səviyyədə olması deməkdir.

**Dərslərdə nə qiymətləndirilir?**

1.Məzmunun-əsas faktların və terminlərin, səbəb-nəticə əlaqələrinin, nəticə və ümumiləş-dirmələrin mənimsənilməsi.

2.Təhliletmə vərdişlərinin, öyrənmə bacarı-ının, digər qrupların baxışlarının, yaxud nöqteyii-nəzərinin başa düşülməsi və i.a.

3.Dəyərlərin formalaşdırılması.

**Qiymətləndirmə meyarlarını necə işləyib hazırlamalı?**

Şagirdlərin qiymətləndirilməsi üçün dəqiq meyarlar işlənib hazırlanmalıdır. Meyarlar bilik və bacarıq, o cümlədən, informasiyanı aydın təqdim etmək bacarığı və məntiqi təfəkkür qabiliyyəti kimi göstəricilərin inkişafını əks etdirməlidir. Qiymətləndirmə meyarları nə

qədər aydın olsa, bir neçə müəllimin bu və ya digər şagirdin işini eyni qaydada qiymətləndirəcəyinə bir o qədər çox yəqinlik yaranar. Şagirdlərin özləri də qiymətləndirmə meyarlarını bilməlidirlər ki, onlardan nə gözlənildiyini təsəvvür etsinlər. Yerinə yetirilmiş ev tapşırığının «əla», «yaxşı», «kafi» qiymətləndirilməsi meyarlarını şagirdlərin özlərinin müəyyənləşdirməsi prinsipial məsələdir. Qiymət-əndirmə «əks-əlaqə»nin yaradılmasına kömək etməli, yəni şagirdlərə və müəllimlərə bir-birini daha yaxşı başa düşməkdə yardım göstərməlidir. Şagirdlər qiymətləndirmə meyarlarını kiçik qruplarda işləyib hazırlaya, sonra isə bütün siniflə birlikdə müzakirə edə bilərlər. Yekun qiyməti şagirdin özünüqiymətləndirməsindən, onun qruplardakı işinin qiymətindən və müəllimin verdiyi qiymtədən toplanaraq yarana bilər.

**Qiymətləndirmənin müxtəlif üsul və formaları.**

**Test tapşırıqları.**

Dərslərdə qiymətləndirmə üçün müəllim tərəfindən hazırlanmış işçi vərəqlərindən istifadə etmək olar. İşçi vərəqlərindəki tapşırıqlar iki növə ayrıla bilər.

a) müəyyən, konkret cavabı olanlar (testlər). Məsələn: (1 və 2 test)

b) problemlərə münasibətlərin, onların məqbul, ağlabatan şəkildə qiymətləndirilməsini nəzərdə tutanlar (açıq suallı tapşırıqlar). Bu axırıncı tapşırıqlar müəyyən dərəcədə şagirdlərin bəzi şəxsi xüsusiyyətlərinin öyrənilməsi vasitəsi rolunu oynaya və onlar tərəfindən özünü dərk etmək üçün istifadə oluna bilər. Məsələn: (3 və 4 test)[1.]

1.BMT-nin Baş Məclisi Uşaq Hüquqları Konvensiyasını nə vaxt qəbul etmişdir:

a) 1966-cı ildə;

b)1982-ci ildə;

c)1980-cu ildə.

2.Uşaq Hüquqları Konvensiyanan əhəmiyyəti nədir?

a) burada uşaq hüquqları beynəlxalq hüquq norması qüvvəsi almış olur;

b) o, gələcək üçün öhdəlik götürülməsi deməkdir;

c) o ilk dəfə uşaq hüquqlarının təsvirini verir.

3. «1948-ci il İnsan Hüquqları Ümumi Bəyannaməsi demokratizm manifestidir, insanların azadlıq və sülhə çatmaq yolunda ən yaxşı arzularının təcəssümüdür».

«İnsan Hüquqları Ümumi Bəyannaməsi kifayət qədər köhnəlmiş sənəddir və az-çox zəkalı müasirimizi ruhlandırmağa qabil deyildir. İnsan hüquqlarının daha yeni və müasir ruhda formalaşdırılması gərəkdir».

Bu iki nöqteyi-nəzərdən hansının həqiqətə uyğun olduğunu güman edirsiniz? Öz rəyinizi izah edin.___________________________________

4.Sizin fikrinizcə, nə daha vacibdir-insanın milliyyəti, yoxsa onun vətəndaşlığı (yəni müəyyən dövlətə hüquqi mənsubiyyəti)? _________________

_____________________________________________

Nə üçün?________________________________

**Şagirdin özünüqiymətləndirməsi**

Ola bilsin ki, bəzi dərslərdə müəllim tərəfindən biliyin yekun qiymətləndirilməsi nəzərdə tutulmur və qiymət qoymaq tövsiyə edilmir. Lakin onlar məktəblilərin refleksiya, yəni suallara cavablar, müzakirələr vasitəsilə özünüqiymətləndirməsinə yol açır. Şagirdlərin öz fəaliyyətinin qiymətləndirilməsinə cəlb edilməsi çox vaciödir, çünki bu iş məktəbliləri öz davranışına daha məsuliyyətlə yanaşmağa sövq edir, onlarda obyektivliyin tərbiyə edilməsinə yardımçı olur, öz münasibətlərini düzlük və qarşılıqlı anlaşma prinsipləri əsasında qurmağı öyrədir.

Lakin bu qiymətlər qeyri-səmimilik və ya özünüaldatma ucbatından təhrif edilə bilər. Ancaq insanın öz-özünü necə gördüyünü müəyyən etmək daha vacibdir, çünki özünüqiymətləndirmə ilə kənardan verilən qiymətlərdəki fərq öz-özlüyündə qrup və fərd üçün zəngin informasiya mənbəyi ola bilər. Dərsə aşağıdakı suallar yazılmış kiçik anketin köməyi ilə yekun vurmaq mümkündür.

1.Dərsdə sizin daha xoşunuza gələn nə oldu?

2.Daha çox xoşlamadığınız nə idi?

3.Vəziyyətin yaxşılaşdırılması üçün nə təklif edirsiniz?

**Şagirdin qrupdakı işini necə qiymətləndirməli?**

Şagirdin qrupdakı işinin qiymətləndirilməsini hər bir şagirdin qrupun işinin ümumi nəticəsinə verdiyi töhfənin faizlə nisbətinə əsasən müəyyənləşdirmək olar. Müəllim bütövlükdə qrupun aldığı balların miqdarını müəyyən edir. məsələn, dörd nəfərlən ibarət qrupa 20, üç nəfərlik qrupa 15 bal verilir. Şagirdlər bu balları hər kəsin ümumi nailiyyətdəki roluna, verdiyi töhfəyə əsasən müstəqil olaraq bölüşdürürlər. Qrupdakı işə görə alınmış ballara sinifdə aparılmış diskussiyada iştirak üçün müəllim tərəfinlən verilmiş mükafat balını da əlavə etmək zəruridir. Balların yekunu xüsusi jurnala yazılır. Original cavablara görə daha üç bal vermək olar. Rübün və ilin sonunda balların yekunu reytinq qiymətini təşkil edir ki, bu da şagirdlərin düşünmək və öz fikirlərini şifahi ifadə etmək, diskussiyada təşəbbüsü öz üzərinə götürmək qabiliyyətini əks etdirir. Dərslərdə şagirdlər, onların fikrincə, qrupun işinə faiz hesabı ilə nə kimi töhfə verdiklərini elan edirlər; onlar təsadüf qaydada cütlüklərlə bir-birinin rolunu, töhfəsini izah edirlər, qrup ayrı-ayrı şagirdlərin öh töhfəsi ilə bağlı təəssüratını ümumilikdə ya təsdiq, ya da təkzib edir. şagirdlər bir-birinin biliklərini qiymətləndirməklə sinif yoldaşına öz səhvlərini aradan qaldırmaqda kömək edə bilərlər. Qrupun özünüqiymətləndirməsi üçün aşağıda verilmiş vərəqlərdən istifadə etməklə bütövlükdə qrupun necə işlədiyinə, öz tapşırığını necə yerinə yetirdiyinə qiymət vermək olar.

**Dərslərin qiymətləndirilməsinin əsas prinsipləri**

Dərslərin qiymətləndirilməsi zamanı əsas diqqət təkcə informasiyanın mənimsənilməsinə deyil, həm jə cəmiyyətin həyatında bir vətəndaş kimi iştirak etmək üçün zəruri olan bacarıqların mənimsənilməsinə yönəldilir. Müasir vətəndaş cəmiyyətində bu bacarıqlar fəaliyyətin dörd növündə cəmlənir: tədqiqat (tənqidi təhlil); kommunikasiya (ünsiyyət, informasiyanın verilməsi və başa düşülməsi, əqidə); qərar qəbulu; fərdi və kollektiv fəaliyyətin təşkili. «Yanlış cavablar ola bilməz, onlar müxtəlif ola bilər» müddəası əsas prinsiplərdən biri olmalıdır. Bu prinsipin ardıcıl həyata keçirilməsi bir-biri ilə rəqabət aparmamağa, əksinə, əməkdaşlıq etməyə, ümumi mövqe işləyib hazırlamağa imkan verir. Ümumiyyətlə, fəal təlim metodlarının tətbiq edildiyi dərslərdə müəllim etibara, hörmətə əsaslanan əməkdaşlığa hazır olmalıdır.

Aşağıda esse, qruplarda iş və təqdimatda iştirakın qiymətləndirilməsinin bəzi meyarları və şagirdlərin özünüqiymətləndirməsi üçün vərəqlər verilmişdir ki, müəllimlər bunlardan fəal təlim metodlarının tətbiq olunduğu dərslərdə istifadə edə bilərlər. Aşağıda göstərilən meyarlara müəllimin lazım bildiyi başqa qiymətləndirmə parametrlərini də əlavə etmək olar.

**Qruplarda işin qiymətləndirilməsi.**

**Qrupun işində şagirdlərin fəallığının qiymətləndirilməsi meyarları.**

1.Şagird tapşırığın məqsədləri üzərində diqqətini cəmləşdirirmi?

2.O, qrupun digər üzvləri ilə qarşılıqlı əlaqədə çalışırmı?

3.Başqalarına mane olmadan işləyirmi?

4.O, qrupun bütün üzvləri ilə nəzakətlə rəftar edirmi?

5.Şagird tapşırığın yerinə yetirilməsinə nə kimi töhfə verir?

6.Qrup halında işin yaxşılaşdırılması yollarını tapmağa kömək edirmi?

Qrupda işləmək bacarığını aşağıdakı cədvəl üzrə ranjir, yəni hər bir qiymətləndirmə meyarına rəqəm balının (2-dən 5-dək) verilməsi metodu ilə də qiymətləndirmək olar.

| | Həmişə | Tez-tez | Bəzən | Demək olar, heç vaxt |
|---|---|---|---|---|
| | 5 | 4 | 3 | 2 |
| 1.Qrupdakı şifahi diskusiyada iştirak edir | | | | |
| 2.Başqalarının sözünü kəsmədən onları dinləyir | | | | |
| 3.Qrupun digər üzvlərinin danışdıqlarını yenidən nəql edə bilir (bu onun deyilənləri qavradığını göstərir) | | | | |
| 4.Qrupun işi üçün zəruri olan tapşırıqları yerinə yetirir | | | | |
| 5.Qrupun digər üzvlərini ümumi işə cəlb edir | | | | |

Ay, rüb və ya yarımillik üçün ümumi qiymət orta, yaxud reytinq balı ola bilər. Öz işinin və qrupun işində iştirakının şagirdlərin özləri tərəfindən qiymətləndirilməsinin nəzərdə tutulması faydalıdır.

**Dərslərdə dəyərlərin qiymətləndirilməsi zamanı istifadəsi mümkün olan meyarlar.**

**«Baxışların genişliyinin» qiymətlən-dirilməsi**[1]

--şagird yeni ideyaları və yeni fəaliyyət növlərini qavramağa hazırdırmı?

-o, işdə yeni metodlardan istifadə etməyə hazırdırmı?

-o, diskussiyalarda faktları hisslərdən yüksək tuturmu?

-o, yeni faktlar əsasında öz fikrini dəyişirmi?

-o, öz mühakiməsini hər kəsə ədalətli münasibət əsasında qururmu?

-o, məsələni hərtərəfli nəzərdən keçirirmi?

-o, stereotiplərə və irəlicədən yaranmış rəylərə şərik olurmu?

**İnformasiyanın toplanması və təhlili** kimi bacarıqların qiymətləndirilməsi üçün ranjir (1-dən 5-dək) metodundan istifadə etmək olar.[2]

---

1. İlk addımlar insan hüquqlarının öyrənilməsinin ibtidai kursu. Dərs vəsaiti. Bakı, 1990-cı il . səh.41-42.
2. Vıborı v demokratiçeskom obhestvo. Podraəd. Voskresenkoy N.M. i Polijevüa P.Q.Moskva, 1996 qod. str. 39.

| İnformasiyanın təqdim edilməsi | | |
|---|---|---|
| 1 | Həmişə dəqiq - | 5 |
| 2 | Əsasən dəqiq - | 4 |
| 3 | Kifayət qədər dəqiq olmayan - | 3 |
| 4 | Yetərli olmayan informasiya - | 2 |
| 5 | İnformasiyanın yoxluğu | 1 |

**İNFORMASİYANI HƏMÇİNİN MÜXTƏLİF SƏVİYYƏLƏRDƏ TƏHLİL ETMƏK OLAR:**

**1) empirik səviyyədə (şagird hadisələrin təsvirini verir, amma onların mahiyyətini başa düşə bilmir);**

**2)nəzəri səviyyədə (şagird hadisələrin mahiyyətini izah edə və nəticələr çıxara bilir).**

**Qrupun təqdimatının qiymətləndirilməsi meyarları.** [1]

Fəal təlimin üsullarından biri layihə fəaliyyətidir. Layihələr şagirdlərin müxtəlif problemləri müstəqil şəkildə tədqiq etməsidir. Bunlar qrup halında və fərdi ola bilər. Tədqiqatların nəticələri sinif və ya məktəb çərçivəsində təqdim olunur (təqdimatlar).

---

1.Qrupların təqdimatının qiymətləndirilməsi meyarlarının yazılması zamanı bu vəsaitdə verilmiş tövsiyələrdən istifadə olunmuşdur. Bax: «Qrajdanskoe obrazovanie soderjanie i aktivnıe metodı obuçeniə. Pod.red. S.Şextera i N.Voskresenskoy.Moskva. 1997 qod. str. 167-173.

Müəllim təqdimatın növünü və onun keçiriləcəyi şəraiti şagirdlərlə birlikdə müəyyənləşdirə bilər. Təqdimat zamanı hər bir şagird layihənin eyni əhəmiyyətə malik olan hissəsini təqdim etməlidir.

Təqdimatın hər bir növünün öz qaydaları və ənənələri vardır. Məsələn, şifahi təqdimatın qiymətləndirilməsi zamanı intonosiyadan, testlərdən, foto və vidio materiallardan və i.a. yerli-yerində istifadə edilməsi kimi amillər nəzərə alınır. Təqdimatın qiymətləndirilməsi üçün meyarların işlənib hazırlanması zamanı biliklər (faktlar, problemləri, anlayışları, ideyaları bilmək), əqli vərdişlər (məlumatların təhlili, qiymətləndirilməsi, sintezi, yəni məntiqi təfəkkür qabiliyyəti) və kommunikativ vərdişlər (informasiyanı aydın təqdim etmək bacarığı) kimi göstəriciləri nəzərə almaq vacibdir. Aşağıda şifahi təqdimatın dörd səviyyəsi üçün qiymətləndirmənin bəzi meyarları təklif olunur. Müəllimlərin arzusuna uyğun olaraq onlar dəyişdirilə və ya tamamlana bilər.

**4-cü səviyyə**

-əsas anlayışlar, mövzular, problemlər, ideyalar diqqətlə seçilir, tәriflər və təsvirlər verilir;

-faktlar dəqiqdir;

-şagird problemə aid olan bütün məlumatları seçir və məntiqi surətdə təşkil edir;

-məlumatlara əsaslanaraq nəticələr çıxarır;

-təqdimatda bütün ideyalar şagirdin fənn haqqında dərin biliklərə və məntiqi düşünmək qabiliyyətinə malik olduğunu aşkarlayan bir tərzdə verilir;

-təqdimat əla təşkil olunmuşdur.

**3-cü səviyyə**

-əsas anlayışlar, mövzular, problemlər, ideyalar yerli-yataqlı seçilir, dürüst müəyyən edilir və təsvir olunur;

-faktlarda kiçik dəqiqsizlik vardır;

-problemə aid məlumatların əksəriyyətini seçir və məntiqi şəkildə təşkil edir;

-məlumatlara əsaslanaraq informativ nəticələr çıxarır;

-təqdimatdakı ideyaların əksəriyyəti şagirdin fənn haqqında dərin biliklərə və məntiqi düşünmək qabiliyyətinə malik olduğunu sübut edən tərzdə verilmişdir;

-təqdimat yaxşı təşkil olunmuşdur.

**2-ci səviyyə**

-əsas anlayışlar, mövzular, problemlər, ideyalardan bəziləri seçilir, tərif və təsvirləri verilir;

-bəzi informasiyalar düzgün, bəziləri səhvdir;

-problemə aid az məlumat tapır;

-məlumatlar əsasınla natamam nəticələr çıxarır;

-təqdimat yalnız bəzi ideyalar şagirdlərin fənn haqqında biliklərə və məntiqi düşünmək qabiliyyətinə malik olduğunu aşkarlayan bir tərzdə verilmişdir;

-təqdimat yetərincə yaxşı təşkil edilməmişdir.

**1-ci səviyyə**

-əsas anlayışlar, mövzular, problemlər, ideyalar seçilmir, tərif və təsvirləri verilmir;

-informasiya dəqiq deyildir və ya yoxdur;

-problemə dair mühüm məlumatları tapmır;

-nəticələr yoxdur və ya dürüst deyildir;

-təqdimatdakı bütün ideyalar dürüst ifadə edilməmişdir;

-təqdimat olduqca pis təşkil edilmişdir.

Səviyyələr arasındakı fərqlər şagirdlərin öz biliklərini necə göstərmələri ilə, yəni materialı nə qədər diqqətlə öyrənmələri, problemi nə dərəcəjə ətraflı nəzərdən keçirmələri, faktlardan və detallardan nə dərəcədə dəqiq və yerli-yerində istifadə etmələri ilə izah olunur.

4-cü və 3-cü səviyyələr – şagirdlər anlayışların, problemlərin, ideyaların tərif və ya izahını verə bilirlər, faktlar arasındakı qarşılıqlı əlaqəni başa düşürlər, məlumatların qiymətləndirilməsi üçün əqli vərdişlərdən (müqayisə, qarşılaşdırma, səbəb-nəticə əlaqələri, başlıca amilin müəyyən edilməsi və i.a.) istifadə edirlər. Təqdimatda materialın şərhi dəqiq, illüstrasiyalar və misallar yerli-yerində, çıxarılan nəticələr isə düzgündür.

2-ci və 1-ci səviyyələr – şagirdlər əsas anlayışları, problemləri izah edə bilmirlər, faktlar arasındakı qarşılıqlı əlaqəni pis başa düşürlər, faktlardan yersiz istifadə edirlər, çox vaxt isə onlardan istifadə etməkdən çəkinirlər. Problemin mahiyyəti haqqında danışa və nəticələri yerli-yerində formalaşdıra bilmirlər, təqdimatın keçiril-əsi qaydalarına lazımınca diqqət yetirmirlər.

**Essenin qiymətləndirilməsi meyarları**

-esse mövzusunun mahiyyətinin başa düşülməsi və onun açılmasının tamlığı;

-öz fikrinin faktlara, mənbələrin «şəhadəti» ilə, nəzəri sübutlar və mühakimələrlə əsaslandırıl-asının inandırıcılığı;

-terminlərdən, faktlardan düzgün istifadə olunması;

-mühakimələrin aydınlığı və ziddiyyətin olmaması;

-fikirlərin ardıcıllığı.

Esseni ənənəvi metodlarla da qiymətlən-dirmək olar.

Qiymətləndirmənin göstərilmiş meyar-larından və şagirdlərin özünüqiymətləndirmə vərəqlərindən qiymətləndirmə sisteminin yaradılması üçün tövsiyələr kimi istifadə etmək olar. Hər bir sinfin, məktəbin, təlim fənninin spesifik xüsusiyyətlərini nəzərə almaqla bu myearları müxtəlif variantlarda tətbiq etmək, şəraitə uyğun olaraq bunları tamamlamaq və dəyişmək olar.

# ƏDƏBİYYAT


1. Fəal təlim metodlarına gitriş üçün tövsiyyələr (məktəb müəllimləri üçün) AR. Təhsil Nazirliyi

2. Fəal təlim metodlarına giriş kursu. Məşqçilər üçün metodik tövsiyə. Azərbaycan Reəpublikası Təhsil Nazirliyi. Bakı –2000

3. Fəal təlim və məktəb rəhbərliyi. Azərbaycan Reəpublikası Təhsil nazirliyi. Bakı – 2001.

4. Məşqçilər üçün Parlament debatı üzrə metodiki rəhbərlik. Bakı – 2001.

5. Çto v arsenale metodiki? L.Shasov, H.Solovğev.

6. İnternet «Rambler.Ru», «google.Ru», «Livejonrhal.com/users/mahcuniah/», «Mosoblonline. Ru /control/second? Partito…

7. «Məktəbdə vətəndaş təhsili» «Nur» YTM. «Yeni nəsl» AJB nəşriyyatı Mərkəzi, Bakı 2002.

8. R.Məlikov, Q.Nəcəfli: « Tarixin interaktiv təlimi». Müəllimlər üçün metodik vəsait. Bakı.çaşıoğlu 2002.